Nigar
Nəsirova

ƏKBƏR BAYRAMOV:
alim ömrü

Bakı – Mütərcim – 2018

Redaktoru:

Ənvər Çingizoğlu

Nigar Nəsirova. ƏKBƏR BAYRAMOV: alim ömrü.
– Bakı: Mütərcim, 2018. – 216 səh.

Əkbər Bayramovun həyat və yaradıcılığına həsr olunmuş bu kitab onun yaxınları və dostları tərəfindən araya-ərsəyə gətirilmişdir. Kitabda mənalı, zəngin və keşməkeşli ömür yolu keçmiş Əkbər Bayramovun həyatının müxtəlif məqamları əks olunub.

Kitabda Əkbər Bayramovun yaradıcı portreti Azərbaycan alimləri, yazıçıları, tarixçiləri, jurnalistləri, həmkarları, dost-tanışları və b. tərəfindən dilə gətirilməklə, bu yorulmaz insanın həyat və fəaliyyətinin müxtəlif tərəflərini çevrələyir, onun alim şəxsiyyəti haqqında adekvat təsəvvür yaradır.

Kitab geniş oxucu kütləsinə ünvanlanmışdır.

K $\frac{4702060000}{026}$ 189-18

© N.Nəsirova, 2018

I BÖLMƏ

ƏKBƏR BAYRAMOV: ƏSLİ VƏ NƏSLİ

Kolanı eli

Qədim-qayım Qarabağın ünlü ellərindən biri də Kolanıdır. Kolanı adını türk dilində kolan – tirə kimi yozanlar var. Kolan-qədim türk dilində örkənin digər adıdır.

Kolanı camaatının kökü haqqında müxtəlif fikirlər var. İ.Şopenə görə, kolanı kürd və türklərdən ibarət qarışıq tayfadır. A.E.Xanoqov kolanıları Xorasanlı hesab edir. Qıpçaq soylarından biri kolan adlanırdı. (İstoriya Uzbekskoy SSR, t.II. kniqa 2, st.455). Buxara əmirlərindən Sübhanqulu xan Caninin (1680-1702) divanbəyisi Əvəz bəy Kolan idi. Rəhim bəy Kolan isə ünlü qıpçaq bəylərindən sayılırdı.

Səfəvilər dönəmində Kolanı eli Qızılbaşlar məmləkətinin hər yörəsində yaşayırdı. Xorasandan tutmuş Xuzistana qədər uzanan torpaqların hansı güşəsinə boylansan, oradan kolanı əri baş qaldıracaqdı.

1579-cu ildə Kolanı elinin başçısı Əmin bəy idi. Osmanlı sultanı ona məktub göndərib əgər tabe olarsa köhnə yerində qalmaqla yanaşı ənam-ərmağan alacağını vəd edirdi. Əmin bəylə yanaşı elin bir qolunu Şahverdi bəy idarə etmişdi. Osmanlı sultanı ona da şirnikdirici məktub göndərmişdi. Həmin məktubda deyilirdi: «Arzi mukhalestü sadakat eyleyenlərə asla reddü men yoxdur». Öteden beri, bizə itaat edenlərerin «himayet ve riayet» görməsi, geleneğimizdendir. Siz de itaat ederseniz, hökumetinizdeki yerler, «size ve evladü ahfadınuza neslen bade neslin» kıyamete değin verilecekdir. Mektubumuzu alınca, artık öteden alakanızı keserek bize sadakatle döndüğünüzü bildiren «mektubunuz ilə yarar ademlerinüzü» acele Istanbula göndermelisiniz ki, ötekiler gibi hilat ve sancağımızı verip, ülkenizi eli-

nizde bırakalım. Eğer Kızılbaş üzerinize gelecek olursa, Erzurum və Van bəylərbəyiləri ilə o çevredeki bəylərin, çerileriyle yardımınıza koşması için «fermanımuz sadır olmuşdur». (Mühimme, XXXII. 507 (17 zilkade 986).

Səfəvilər hökuməti dönəmində, 1620-ci ildə Zəncan vilayətini Gədayi sultan Kolanı idarə edirdi.

1654-cü ildə Dərələyəz mahalının Hurmeşin kəndinin yiyəsi Səfiqulu bəy Kolanı idi. Onun vəfatından sonra oğlu Əruz xan mülklərinə yiyəlik etmişdi.

Qarabağda Tərtər və Xaçın kolanılarından ibarət iki qrup vardı. Qarabağ kolanılarından bizə ilk məlum olanlar –Hüseyn bəyin oğlanları Məhəmmədxan bəy və Həsənxan bəydir. Qardaşlar XVIII yüzilin birinci yarısında Osmanlılar tərəfindən Qarabağ əyalətinin bir neçə kəndini idarə edirdilər.

Kolanı eli Gərravənd, Şıxavənd, Sırxavənd, Papravənd və başqa oymaqlara ayrılırdı.

Kolanılar Dəmirlər, İmarət Qərvənd, Çərəktar, Umudlu, Qaralar, Şıxavənd, Sırxavənd, Bruc, Əliağalı, Xaçın-Dərbətli, Çıraqlı, Hacı Qərvənd, Papravənd, Əlimədətli şenliklərində yaşayırdılar.

Kolanı eli əsasən Qarabağın Kolanı mahalında məskunlaşmışdı. Kolanı mahalı xanlıq dönəmində yaranıb. Tarixən Uşacıq kəndindən Tərtər çayı boyu, Göyçə sərhəddinə qədər uzanan ərazidə məskunlaşan kolanılar zaman-zaman gah Çuxur Səd, gah da Qarabağ bəylərbəyiliyinə bağlı olmuşlar. Pənahəli xan Sarıcalı-Cavanşir bu camaatı birdəfəlik Qarabağa aid etdi. Kolanı başçılarından İman bəy Allahveys bəy oğlu Gərravənd ilk Qarabağ xanına xidmət etmişdi.

İbrahimxəlil xan Sarıcalı-Cavanşirin hakimiyyəti dönəmində tanınmış kolanı bəyləri: Əli bəy Sədir bəy oğlu Gərravənd, Qələndər bəy Sədir bəy oğlu Gərravənd, Lələ bəy Əmirxan bəy oğlu Gərravənd, Turab bəy Çıraq bəy oğlu Gərravənd, Teymurxan bəy Allahveys bəy oğlu Gərravənd, İsaxan bəy Allahveys bəy oğlu Gərravənd, Tanrıqulu bəy Umud bəy oğlu Gərravənd, Novruz bəy Umud bəy

oğlu Gərravənd, Mirzə Həsən bəy Ata bəy oğlu Şıxavənd, Qəhrəman bəy Şərif bəy oğlu Şıxavənd, Bayraməli bəy Sırxavənd, Kazım bəy Papravənd və başqaları.

Mehdiqulu xan Kolanı camaatına inanır, arxalanırdı. 1822-ci ildə Irana qaçarkən özü ilə Kolanı camaatından xeyli adam götürmüşdü. Qaçqınlıqda olarkən məsləhətləşdiyi ruhanilərin arasında Molla Əskər Vəli oğlu Sırxavənd-Kolanı və Molla Mustafa Mustafa oğlu Şıxavənd-Kolanı da vardı. Cilovdarı İsmayıl bəy Qəhrəman bəy oğlu Kolanı idi. Məktublarını çox vədə qasid Əliməhəmməd Zaman oğlu ilə çatdırırdı.

Mehdiqulu xanla İrana qaçan adlı-sanlı kolanılar: Ağa bəy Həsən bəy oğlu Şıxavənd, Mirzəxan bəy Qara bəy oğlu Şıxavənd, Qaytaran bəy Qəhrəman bəy oğlu Şıxavənd və başqaları.

Mahalın ərazisində Kolanı elinə daxil olan obalar qərar tuturdular. Bu obaları sıralayaq: Gərravənd-I, Gərravənd-II, Gərravənd-III, Şıxavənd, Papravənd, Sırxavənd…

1823-cü ildə polkovnik Yermolov və mülki müşavir Mogilyevski «Qarabağ əyalətinin statistik təsviri» adlı vergi dəftəri hazırlayıblar. Həmin vergi dəftərində Kolanı mahalına qatılan inzibati məntəqələri də göstəriblər. Dəftər qüsurlu olsa da, içində dərdədəyən bilgilər var. Həmin bilgiləri yazımıza köçürürük.

Kolanı mahalı

1. Gərravənd obası – vergi ödəyənlər: 40 tüstü, ödəməyənlər: 2 tüstü, 13 tüstü təliqəsiz, 3 tüstü kədxudanın, Ağa bəyin rəncbəri 1 tüstü, Salman bəyin rəiyyəti təliqə ilə 2 tüstü. Minbaşı Salman bəyin və Ağa bəyin idarəsindədir. Allahveys bəy xanla qaçandan sonra dairə rəisi general-mayor knyaz Madatovun tapşırığı ilə Salman bəy və Ağa bəy İman oğluna verilib.

2. Şıxavənd obası – vergi ödəyənlər: 40 tüstü, ödəməyənlər: 2 tüstü kədxudalar, kasıb 6 tüstü, bu obanın tərkibində Papravənd obası da var. Orda ödəyən 1 tüstü kədxuda, ödəməyən 3 kasıb tüstü qərar tutur. Ağa bəy qaçandan sonra qardaşı Məhəmməd bəyin idarəsindədir.
3. Sırxavənd obası – 67 tüstü vergi ödəyirdi. Mərdan bəyin idarəsində idi.
4. Gərravənd obası – 22 ailə vergi ödəyirdi. Səməd bəyin idarəsində idi.

1827-ci ildə İrandan dönən Mehdiqulu xan Cavanşir əldən çıxmış torpaqlarını qaytarmaq üçün məhkəmələrə, dövlət idarələrinə baş vurdu. Məhkəməyə təqdim etdiyi sənədlərin içində mahallara bağlı olan dövlət kənd və obaları da var. Kolanı mahalına qatılan dövlət obaları:

Obalar	**Ödəyənlər**	**Ödəməyənlər**	**Rəncbərlər**
1.Gərravənd-I	61	7	3
2.Şıxavənd	15	1	-
3.Papravənd	22	2	-
4.Sırxavənd	53	5	3
5.Gərravənd-II	12	4	-

Rus üsul-idarəsi dönəmində Kolanı mahalı Cavanşir qəzasının tərkibinə qatıldı. 1831-ci ildə Əmiraslan bəy Sarıcalı-Cavanşiri mahal naibi təyin etdilər. Baba bəy Şakir yazırdı:

Ey Kolanı, yanıram mən sizin əhvalınıza,
Qəmər Əqrəbdə imiş, ilan çıxıb falınıza,
Mindiribdir köpəyi qısqırıban dalınıza,
Qapınızda nə ki, var, qəsd edərək malınıza
Söyərək ardınızı, sonra sizə dan gəlir.

Şair başqa bir şerində deyirdi:

Qarabağın həramisi, yalanı,
Üstə düşsən danımızlar yalanı,
Şimdi yerlər təqəlübdə Kolanı
Cəmilliyə Gürdüstanə dünüb.

Mahal 1840-cı ildə ləğv edilib, Şuşa qəzasının Cavanşir sahəsinə verildi. Sonra Cavanşir qəzasının tərkibinə daxil edildi.

Şıxavənd obası

Şıxavənd obası Kolanı elinin böyük qollarından biridir. Şıxavənd obası ağır-zaman, yekə-yetman igidlərin yurdudur.

Kolanı elinə bağlı olan obalardan biri də Şıxavənddir. Şıxavənd adının anlamı Şeyxə vənd, Şeyx uşağı deməkdir.

Qılınc və qələmi ilə Azərbaycan tarixində özünə səhifə açmış Şah İsmayıl Səfəvi (Xətai) Şıxavənd oymağından idi. Bu oymaqdan I Şah Təhmasibin vəzirlərindən olmuş Məsum bəy, Sultan Hüseyn mirzə Səfəvinin ələsi Sədrəddin xan kimi əmirlər çıxıb.

Siyahıda Şeyxavənd soyundan olan 2 nəfərin və 1 nəfər də seyidin adı çəkilir. Onlardan Məsum bəy Səfəvinin oğlu Sədrəddin xan Səfəvi saray əmiri, həm də Bəhram Mirzənin oğlu Sultan Hüseyn Mirzənin ələsi idi (İskəndər bəy Münşi, Tarixi-aləm-arayi-abbasi, s. 141; 128, 412).

İsgəndər bəy Münşi əsərindəki ikinci siyahıda (1628) isə müxtəlif dövlət vəzifələrində çalışan əmirlərin sayının 92 nəfərdən ibarət olduğunu qeyd etmişdir. Birinci siyahıda olduğu kimi, ikinci siyahıda da təkcə türk deyil, bu dövrdə dövlət qulluğunda olan qeyri-türk tayfa əmirlərinin də sayını göstərmişdir. O, tayfalar üzrə əmirlərin sayı haqqındakı siyahıda Şeyxavənd boyundan yalnız bir nəfərin, qorçu-

başı İsa xan ibn Seyid bəy ibn Məsum bəy Səfəvinin adını qeyd edir. (Yenə orda, s.1084)

Qızılbaş xanədan tayfası – şeyxəvəndlər

Qızılbaş dövlətinin hakim xanədan və ya sülalə tayfası olmuşmudur? Bu sual tarixçilər tərəfindən nadir halda soruşulmuşdur.

Qızılbaş dövlətinin hakim tayfası şeyxəvəndlər olmuşdu. Səfəvi ailəsinin böyüməsi və genişlənməsi onların boya çevrilməsinə səbəb olmuşdu. Bu boy, mənbələrdə şeyxəvənd adlanır.

Şeyxəvənd adı Şeyx Səfiyəddin soyundan gələnlərə verilirdi. Bunlar əsasən Ərdəbil və Xalxal bölgəsində məskun idilər. Ərdəbil onların ailə mülkü, Xalxal isə iqta əraziləri idi.

Mənbələrdə şeyxəvəndlər haqqında dolğun məlumat tapmaq çətindir. Bəzi hadisələrlə əlaqədar olaraq bu boyun nümayəndələrindən söz edilmişdir. 1536-cı il Gilan hadisələri zamanı I Şah Təhmasibin Gilanı, xüsusilə də buradakı Biyapəs hakimlərinin mülklərini şeyxəvəndlərə verdiyi bildirilir. I Təhmasib bu addımı atmasının səbəbi Biyapəs hakimi Müzəffər Sultanın Şirvana qaçması və Gilan hakimi təyin edilən Bəhram Mirzənin bölgədəki ədalətsiz idarəçiliyi səbəbi ilə meydana gələn ixtişaşları yatırmaq idi. I Təbmasib Gilanı şeyxəvəndlərə verərkən, bu boyun Biyapes hakimləri ilə qohumluq əlaqələrini əsasa almışdı. Belə ki, Müzəffər sultanın bacısı Xalxal şeyxəvəndlərindən bir bəylə evli idi.

Şeyxəvənd boyu haqqında bir digər məlumat Babur hökmdarı Humayunun 1544-1545-ci ildə Səfəvi ölkəsinə gəlməsi haqqındadır. Belə ki, Təbriz və Ərdəbilə gəlmək istəyən Humayun şahın bu istəyi I Təhmasb tərəfindən sevinclə qarşılanmışdı. Humayun şah Ərdəbilin Şaməsbi kəndində şeyxəvəndlər tərəfindən qarşılanmış və onun şərəfinə böyük bir şənlik təşkil edilmişdi.

I Təhmasb hicri 957-ci ildə (1550-1551) Ərdəbil məqbərəsinin və vəqfinin işlərini qardaşı Sam mirzəyə tapşırdı. Ərdəbildə 12 il qalan Sam mirzə özünün məşhur əsəri "Təzkirə-yi Sami" burada yazmışdır. Həddindən artıq mərhəmətli olan Sam mirzə Ərdəbil xalqı ilə yaxşı

rəftar etmiş və öz sərvətini kasıblara paylamışdı. Özü də dərvişanə həyat tərzi sürürdü. Ərdəbildə olarkən o, dəfələrlə şeyxəvənd boyunun xalqa pis rəftarına şahid olmuşdu. Özlərini hakim sülalənin nümayəndələri hesab edən şeyxəvəndlər Ərdəbildə istədikləri kimi rəftar edirlər. Sam mirzə onların bu özbaşnalıqlarını sərt cəzalandırmış və məsələylə əlaqədar I Təhmasba məlumat vermişdi. Bu, şeyxəvəndlər ilə Sam mirzə arasında narazılıqların yaranmasına səbəb oldu.

1550-1551-ci ildə Osmanlı sultanı Süleyman Qanunu üçüncü dəfə Azərbaycan səfəri zamanı I Təhmasb bəzi şeyxəvənd əmirlərini divan rəisliyinə təyin edərək onlara kürd üsyançılarını cəzalandırmaq vəzifəsini vermişdi. Çünki vəziyyətdən istifadə edən kürdlər quldurluq edir və ətraf əraziləri talan edirdilər. Şeyxəvəndlər çox sayda kürdü öldürmüş və yağmaladıqları malları ələ keçirmişdilər.

1551-1552-ci ildə I Təhmasb Şərqi Anadolu və Azərbaycana hücumlar təşkil edən İskəndər Paşa əmrindəki Osmanlı ordularının qarşısını almaq üçün dörd ordu birliyi hazırlamışdı. Bu birliklərdən biri şeyxəvəndlərdən təşkil olunmuşdu. Şeyxəvəndlər Ərciş, Batgirti və Bəndmahi bölgələrinə hücumlar edib, Axlatda xalqa divan tutmuşdular. Onlar 10 min qoyun, 10 min inək və 3 min atı qənimət olaraq ələ keçirmişdilər. [43] Bu məlumatlar şeyxəvəndlərin şahın öz ailəsi və əqrabaları olması səbəbi ilə səfəvilərin ən sadiq tərəfdarları olduğunu göstərir.

1553-1553-cü ildə Sultan Süleymanın səfəri ərəfəsində şeyxəvəndlər Osmanlı ordularının keçəcəyi Van, Vestan, Ərciş və Adilcəvazı talan edib, bölgəni boşaltmışdılar. Bu da Osmanlı ordusunun hərəkətini çox çətinləşdirmişdi.

Şeyxəvəndlər vəliəhd seçilməsində və şahların taxta çıxmasında çox təsirli idilər. I Şah Təhmasbın vəfatı zamanı şeyxəvəndlər İsmail mirzəyə qarşı Heydər mirzənin hökmdarlığını dəstəkləmişdilər. Hələ I Təhmasbın sağlığında şeyxəvəndlər İsmail Mirzənin həbsə atılmasını təşkil etmişdilər. Bu məqsədlə Qəzvindən Savəyə gələn şeyxəvənd silahlıları I Təhmasbın əmri ilə İsmail mirzəni həbs edib

Qəhqəhə zindanına atmışdılar. 1557-ci ildə həbs olunan İsmail mirzə 19 il zindanda qalmışdı. Qızılbaş tayfalarının İsmail mirzənin vəliəhdliyini dəstəkləməsi şeyxəvəndlər ilə qızılbaş tayfaları arasında gizli rəqabətin olduğundan xəbər verir.

I Təhmasb iqtidarı üçün təhlükəli hiss etdiyi qüvvələri şeyxəvəndlərin əli ilə ortadan qaldırdı. Bu da şeyxəvəndlərin özbaşınalığına səbəb olurdu. 1564-1565-ci ildə Heratda Qazax xanın çıxartdığı üsyanın yatırılmasını da I Təhmasb şeyxəvəndlərə tapşırmışdı. Qazax xanı ortadan qaldıran şeyxəvəndlər daha sonra Əbivərd və Nisaya hərəkət etmişdilər. Burada onlar Özbək xanı Din Məhəmməd xanın oğlu Əbul-xanın gizləndiyi Əbivərd qalasını mühasirəyə aldılar. Meydana gələn döyüşdə özbəklər ağır məğlubiyyətə uğradılar. Əbulxan isə bir daha səfəvilər ölkəsinə hücum etməyəcəyinə dair söz verib Xorasandan çəkildi. Bunun üzərinə şeyxəvəndlərin başçılıq etdiyi qızılbaş ordusu Məşhədə geri qayıtmışdı. [46]

1567-ci ildə I Təhmasb Lahicana göndərdiyi ordunun iradəsini şeyxəvəndlərə tapşırmışdı. Rudisəri alan şeyxəvəndlər bölgə hakimi Əhməd xanı həbs edib I Təhmasbın hüzuruna gətirmişdilər.

1568-1569-cu ildə həccə gedən zəvvarlar arasında 47 şeyxəvəndli olduğu bildirilir. Şeyxəvəndlər Fatıma vadisəndən keçərkən 6 zilhiccə günü (22 may 1569) Osmanlıların hücumuna məruz qaldılar. Osmanlılar şeyxəvəndlərin hamısını qılıncdan keçirdilər. Səfəvi zəvvarlarının qətliamı böyük təsir yaratdı. Osmanlılar əvvəlcə bu hadisəni inkar etmək istədilər. Daha sonra öldürdükləri zəvvarların ərəb soyğunçuları olduqlarını iddia etdilər. Son olaraq da şeyxəvəndlərin zəvvar adı ilə Anadoluda casusluq edən səfəvi tərəfdarları olduğunu bildirirdilər. Əslində osmanlılar bu qətliama planlı hazırlaşmışdılar. Belə ki Şam bəylərbəyi Dərviş Paşa 200 nəfərlik əsgər ilə ərəb libası geyinərək şeyxəvəndlərə hücum etmiş və beləcə qətliamı ərəblərin törətdiyi fikrini oyandırmışdı. Beləcə silahsız şeyxəvəndlər ehramda ibadət edərkən qılıncdan keçirilmişdilər.

Şeyxəvəndlər Səfəvi dövlətindəki öz mövqelərini I Şah Abbasa qədər qorudular. I Şah Abbasdan sonra isə şahsevənlər arasında əridilər. Bu boydan güclü əmirlər və dövlət adamları çıxmışdı. Həmin əmirlər arasında Məsum bəy Səfəvi, Xan Mirzə, Zeynəlabidin bəy, Sədrəddin bəy Səfəvi, Daşdar bəy Səfəvi və Xacə bəy Mirzə ən güclüsü hesab olunur.

Şeyxəvəndlilər soyu İranda bu gün də yaşayır. Xüsusilə İranda Səfəvi soyadını daşıyanların şeyxəvənd boyundan olduqları məlumdur.

Əlimədətli tayfası

Bu tayfanın ulu babası Bayram ağadır. Bayram ağa Kolanı mahalının Şıxavənd obasında anadan olmuşdu. Molla yanında oxumuşdu. İbrahimxəlil xan Sarıcalı-Cavanşirə xidmət etmişdi. Xan ona təliqə ilə məaf ünvanı vermişdi.

Bayram ağanın Əlimədət ağa adlı oğlu vardı.

Əlimədət ağa Bayram ağa oğlu 1765-ci ildə Kolanı mahalının Şıxavənd obasında doğulmuşdu. Molla yanında oxumuşdu. Mehdiqulu xan Sarıcalı-Cavanşirə xidmət etmişdi. Xan ona təliqə ilə məaf ünvanı vermişdi. 1827-ci ilə aid arxiv sənədlərində Əlimədət ağa vergi ödəməyənlər qrafasında qeyd olunmuşdur.

Əlimədət ağanın adı ilə bağlı hazırda kənd mövcuddur.

Əlimədət ağa Zəhra xanım İmanxan qızı ilə ailə qurmuşdu. Ələkbər ağa, Əsgər ağa, Bayram ağa, Adıgözəl ağa adlı oğlanları vardı.

Ələkbər ağa Əlimədət ağa oğlu 1807-ci ildə Kolanı mahalının Şıxavənd obasında dünyaya gəlmişdi. Molla yanında oxumuşdu. Heyvandarlıqla, qismən də əkinçiliklə məşğul idi.

Ələkbər ağa Pərzad xanım Əliməmməd ağa qızı ilə ailə qurmuşdu. Pəri xanım adlı qızı vardı.

* * *

Əlimədət ağanın ikinci oğlu Əsgər ağa 1809-cu ildə Kolanı mahalının Şıxavənd obasında anadan olmuşdu. Molla yanında oxumuşdu. Heyvandarlıqla, qismən də əkinçiliklə məşğul idi.

Əsgər ağa Səkinə xanım Həzrətqulu qızı ilə ailə qurmuşdu. Mərdan ağa, Əlipənah ağa, Məmmədəli ağa adlı oğlanları vardı.

* * *

Əlimədət ağanın dördüncü oğlu Adıgözəl ağa 1828-ci ildə Kolanı mahalının Şıxavənd obasında anadan olmuşdu. Molla yanında oxumuşdu. Heyvandarlıqla, qismən də əkinçiliklə məşğul idi.

Adıgözəl ağanın Məhərrəm ağa adlı oğlu vardı.

* * *

Əlimədət ağanın üçüncü oğlu Bayram ağa 1819-cu ildə Kolanı mahalının Şıxavənd obasında anadan olmuşdu. Molla yanında oxumuşdu. Heyvandarlıqla, qismən də əkinçiliklə məşğul idi.

II Bayram ağanın törəmələri **Bayramov** soyadını daşıyırlar.

II Bayram ağa Gülbəs xanım Süleyman qızı ilə ailə qurmuşdu. Mehrəli ağa, Qurban ağa adlı oğlanları vardı.

II Bayram ağanın ikinci oğlu Qurban ağa Kolanı mahalının Şıxavənd obasında doğulmuşdu. Molla yanında oxumuşdu. Heyvandarlıqla, qismən də əkinçiliklə məşğul idi.

Qurban ağa bir müddət İrəvan kolanılarının içində yaşamışdı.

Salman Qurban oğlu Bayramov

Professor Əkbər Bayramovun atası 1880-cı ildə Ağdam rayonunun Şıxavənd (Əlimədətli) kəndində zadəgan ailəsində anadan olmuşdur. Ağdərə rayonunda "Rus realnı" məktəbini bitirmişdir. Sonrakı dövrdə gimnaziyada təhsil almışdır. Beş dildə oxuyub yazmağı bacarırdı. Dövrünün mükəmməl ziyalısı olan Salman Bayramov Azərbaycan Xalq Cumhuriyyəti dövründə mühüm vəzifələrdə çalışmışdır. Müstəqillik dövründə ictimai-siyasi hərəkatda fəal iştirak edir. O dövrdə Qarabağda ictimai-siyasi gərginliyi daim çiyinlərində daşıyıb. Elinin, obasının, rayonunun, o cümlədən Qarabağın münaqişələrdən xilas olunması üçün var qüvvəsi ilə çalışıb.

Xalqü cumhuriyyəti süqut etdikdən sonra başı çox bəlalar çəkib, daim təqib olunub. Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra onun bilik və bacarığından, idarəetmə qabiliyyətindən istifadə edilir. Tər-tər Uyezdində (5 rayonu əhatə edirdi) İcraiyyə Komitəsinin sədri vəzifəsində çalışmışdır. Azərbaycan Kommunist partiyası 1-ci katibi Mircəfər Bağırovla bir cox görüşləri olmuşdur.

Bütün həyatını quruculuq işlərinə, savadsızlığın aradan qaldırılmasının, haqqın, ədalətin qorunmasına, dinin-imanın məfkurəsinə çalışmışdır.

Çox təəsüf ki, Salman Bayramov milləti üçün çalışdığına görə 1937-ci ildə repressiya olunur, dəfələrlə həbsdə olur. "Repressiya qurbanı" olan Salman Qurban oğlu Bayramov 1938-ci ilin mart ayının 6 da güllələnir. 22 may 1958-ci ildə Azərbaycan SSRİ-nin Ali məhkəməsinin qərarı ilə bəraət alır.

Fərman Salman oğlu Bayramov

1914-cü ildə anadan olmuşdur. 1935 –ci ildə Ağdam pedoqoji məktəbinə daxil olmuşdur. 1965-ci ildə isə Azərbaycan Pedaqoji institutunun filologiya fakültəsini bitirmişdir.

1941-ci ildə Böyük Vətən Müharibəsində iştirak etmişdir. Müharibənin ilk illərində Şimali Qafqaz cəbhəsində döyüşmüşdür, sonradan 1942-45-ci illərdə İrana göndərilmişdir. 1945-ci ildə qələbədən sonra ordudan tərxis olunmuşdur.

1946-cı ildən Ağdam rayonunun Əlimədətli kənd orta məktəbində müəllim kimi fəaliyyət göstərmişdir. 1959-1967-ci illərdə Əlimədətli kənd orta məktəbində direktor müavini, 1968-85-ci illərdə Xaçın su tikintisi fəhlə-gənclər orta məktəbində direktor vəzifəsində işləmişdir.

Fərman Bayramov 6 dəfə kənd sovetinin, iki dəfə rayon sovetinin deputatı seçilmişdir. Dəfələrlə medal, orden və mükafatlarla təltif olunmuşdur. Azərbaycan Maarif Nazirliyinin fəxri fərmanına layiq görülmüşdür.

Fərman müəllim Kolanı obasının sayılıb seçilən el ağsaqqalı, nüfuzlu ictimayyətçi idi.

Böyük bir ailənin böyük oğlu kimi çiyinlərində ağır bir həyatın yükünü çəkmək düşmüşdür. 1937-ci ildə atası Salman Qurban oğlu Bayramov repressiya qurbanı olur. Ailənin qayğıları demək olar ki, Fərman müəllimin üzərinə düşür. Gücsüz nənə, xəstə ana, beş qardaş və bir bacı başsız qalır. Ailə bütünlüklə yersiz təqiblərlə üzləşir. Belə bir ağır zamanda bütün mərhumiyyətlərə tab gətirmək çox çətin olur. Bu çətin anlarda ailəni dolandırmaq, dirçəltmək, qardaşları oxutmaq məhz Fərman müəllimin üzərinə düşür.

Repressiya dövrü, müharibə dövrü ailəni sarsıldır. Ana, nənə, müharibədə həlak olan Kamran qardaşını itirmək, ailəni gərgin niski-

lə qərq edir. Bu dərin kədərdən evin sonbeşiyi Əkbər Bayramov daha çox sarsılır.

Bütün bu istirablara baxmayaraq Bayramovlar ailəsi yenidən dirçəlir. Bayram Bayramov kimi, Əkbər Bayramov kimi, Soltan Bayramov kimi şöhrətli qardaşlar Fərman müəllimin həyat əsərləri olurlar. Fərman müəllim çoxlarının müəllimi olub. Həm dil-ədəbiyyat müəllimi, həm də həyat müəllimi. Fərman müəllimin yetirmələri arasında alimlər, yüksək çinli dövlət məmurları və görkəmli ziyalılar vardır. Fərman Bayramov vətənpərvər insan idi. O, bütün ömrü boyu vətəninin hər qarışını, daşını, torpağını, çölünü, çəmənini, dağını, dərəsini şagirdlərinə sevdirməyə çalışmışdır. Bunun nəticəsidir ki, Qarabağ döyüşlərində onun şagirdləri Yelmar Şahmar oğlu Edilov, Əlabbas Qara oğlu isgəndərov Azərbaycanın Milli qəhramanlarıdır.

Fərhad Aydın oğlu Əsgərov, Rasim Xurşud oğlu Edilov Azərbaycan Bayrağı ordeninə layiq görülmüşlər. Fərman müəllimin üç oğlu - Elman Bayramov, Əhliman Bayramov, Mehman Bayramov Qarabağ müharibəsi veteranıdırlar.

Fərman Bayramov həm də yaxşı ailə başçısı olmuşdur. Ömürgün, həyat yoldaşı Dilşad xanımla səkkiz övlad sahibi olmuşlar. Maraqlıdır ki, övladlarının dördü ömrünü müəllimlik sənətinə-ata sənətinə həsr etmişlər. Professor Qurban Bayramov kimi ədəbiyyatşünas-tənqidçi alim Fərman müəllimin şah əsəridir. Əkbər bayramovun böyük qardaşı, ata əvəzi Fərman Bayramov 1989-cu il iyul ayının 22 də vəfat etmişdir.

Kamran Salman oğlu Bayramov



1916-ci ildə Ağdam rayonunun Əlimədətli kəndində anadan olmuşdur. 1941-ci ildə Böyük Vətən müharibəsinə getmiş, 1942-ci ildə Rostov şəhəri uğrunda gedən döyüşlərdə həlak olmuşdur. Kamran Bayramovun şəhid olması ailəyə çox böyük zərbə olur. Müharibəyə qədər-1940-cı ildə Tavat Bayramova ilə ailə həyatı qurur, təəssüf ki, öv-

ladı qalmır. Azərbaycan qadınının sədaqətinə baxın! Kamran Bayramovun həyat yoldaşı Tavat nənə ömrü boyu həyat yoldaşına sadiq qalır. Kamran Bayramovun yolunu gözləyən Tavat nənə vəfa, abır-həya, inam-iman, əgidə, namus mücəssənəsi idi. Tavat nənənin taleyində, əxlaqı da, sədaqəti də hər kəsə bir nümunədir. Bayram Bayramovun nəvəsi Kamran Bayramov onun adını ləyaqətlə daşıyır. Əkbər Bayramov şəhid qardaşı haqqında dərin düşüncə ilə, sonsuz kədərlə danışardı.

Tavat nənə necə yazım ağını,
Sən çəkirsən bu həyatın dağını.
Gəl, danlama tale adlı yağını
Kamran adlı şəhidinlə fəxr etdin
Bu dünyadan kam almayıb sən getdin.

Bayram Salman oğlu Bayramov

1918-ci il dekabrın 11-də Yelizavetpol quberniyasının (indiki Ağdam rayonunun) Şixavənd kəndində anadan olmuşdur. Yeddiillik kənd məktəbini bitirib Ağdam Pedaqoji Texnikumunda təhsilini davam etdirmişdir (1934-1938). Tərtər rayonundakı Qusanlı kənd natamam orta məktəbində müəllim (1938-1940), Müsəlmanlar kəndində natamam orta məktəbin tədris hissə müdiri (1940-1941), Xoruzlu kənd yeddiillik məktəbində məktəb müdiri (1941-1942) işləmişdir. Böyük Vətən müharibəsində Mozdok uğrunda döyüşlərdə iştirak etmiş, ağır yaralanmışdır (1942). Hərbi xəstəxanada sağaldıqdan sonra altı ay Yevlax rayonunun Qoyunbinəsi kənd yeddiillik məktəbində müdirlik etmişdir. 1943-cü ilin aprelində yenidən Sovet Ordusu sıralarında qulluq etmişdir. Tərxis olunub doğma kəndlərinə qayıdarkən burada pedaqoji fəaliyyətini davam etdirmişdir: yeddiillik məktəbin müəllimi (1944-1945) işləmişdir. 1945-1950-ci illərdə ADU-nun filologiya fakültəsində təhsil almışdır. Sonra N.K.Krupskaya adına kitabxanaçılıq

texnikumunda müəllim (1948-1955), radionun ədəbi dram verilişləri redaksiyasında məsul redaktor (1956-1958), "Azərbaycan" jurnalı redaksiyasında ədəbi işçi (1958-1960), Azərbaycan Yazıçılar İttifaqında nəsr üzrə məsləhətçi (1960-1963) işləmişdir. Bir müddət yenə bütün qüvvəsi ilə yaradıcılıqla məşğul olmuşdur. Dövlətnəşrkomda sədr müavini kimi çalışmışdır (1966-1971). Qarabağa Xalq Yardımı Komitəsinin sədri vəzifəsində işləmişdir (1989-cu ildən). Azərbaycan Yazıçılar Birliyi Şurasının üzvü seçilmişdir (1991).

Bədii yaradıcılığa 1950-ci ildə "Azərbaycan gəncləri" qəzetində çıxan "Körpü" adlı ilk hekayəsi ilə başlamışdır. Həmin vaxtdan dövri mətbuatda müntəzəm çıxış edib. Fəal ictimaiyyətçi, Azərbaycan KP 26 Bakı komissarı rayon Partiya Komitəsinin büro üzvü (1960), Bakı şəhər Sovetinin (1961, 8-ci çağırış) deputatı və rayon Sovetinin (1959, 7-ci çağırış), Müstəqil Azərbaycan Respukliası Milli Məclisinin deputatı olmuşdur. "Şərəf nişanı" ordeni (1968), "Xalqlar dostluğu" ordeni (1978), "Böyük Vətən müharibəsi" ordeni (1985), "Qırmızı əmək bayrağı" ordeni (1988), Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı (1967) və medallarla təltif edilmişdir. Əsərləri SSRİ-də, eyni zamanda xarici ölkələrdə tərcümə və nəşr olunmuşdur.

1994-cü il noyabrın 9-da Bakıda vəfat etmiş, II Fəxri Xiyabanda dəfn olunmuşdur.

Soltan Salman oğlu Bayramov



14 may 1927-ci ildə anadan olmuşdur. 1959-cu ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmişdir və həmin ildən Ağdam rayonunun Əlimədətli kənd xəstəxanasının müdiri təyin olunmuşdur. Ucqar dağətəyi kənddə səhiyyə müəssisəsinə başçılıq edir. Kənd xəstəxanası olmasına baxmayaraq, üçkorpuslu geniş həyətyanı sahəsi olan xəstəxananın öz obasında yaradılması Soltan həkimin böyük əməyinin nə-

ticəsində baş vermişdir. 10 kəndin insanlarının sağlamlığı keşiyində ləyaqətlə dayanır. Bütün Kolanı obası Soltan həkimdən hədsiz dərəcədə razı idi.

1962-ci ildə Ağdam şəhərinə köçmüşdür. Bütün rayon əhalisinə geniş tibbi xidmət göstərmişdir.

Soltan Bayramov qayğıkeşliyi ilə, təşkilatçılığı ilə, bilik və bacarığı ilə hamıdan fərqlənirdi. Odur ki, 1970-77-ci illərdə Ağdam rayon Mərkəzi Xəstəxanasına baş həkim təyin edilir. Ağdam rayon Səhiyyə şöbəsinə başçılıq edir. Onun zəhməti, təşəbbüskarlığı ilə Ağdam rayonunda yeni səhiyyə müəssisəsi yaradılır. Xəstəxana kimi səhiyyə avadanlıqları ilə təchiz olunur.

Ağdam rayon camaatı Soltan həkimin şəfalı əllərindən şəfa tapdıqları üçün ondan çox razı idilər. Təəsüf ki, Soltan Bayramov 1986-cı ildə vəfat edir. Bütün rayon əhalisi bu hadisədən sarsılır. Soltan həkimin xatirəsi eldə-obada, rayonda o, cümlədən Qarabağda hörmətlə anılır.

Müharibə illərində Soltan Bayramov çox çətin həyat yaşayır. Böyük qardaşları Fərman, Bayram, Kamran Bayramovlar müharibəyə gedir. Eyni zamanda anasız-atasız 14 yaşlı yeniyetməni həyatın dərin girdabına duçar edir. Ailənin bütün yükünü öz çiyinlərində daşıyır, kolxozda çalışır.

O gün xəyal kimi xatirəmdədir.
Dərsdən evimizə qayıdan zaman
Gördüm əziz anam ağır xəstədir,
Nə həkim tapıldı, nədə ki, dərman
əsdi dodaqları: o, çox asdadan-
mənə son sözündə "təbib ol" dedi
anam gözlərini yumduğu andan
arzuma çevrildi ana ümidi.
Olsada yollarım daşlı kəsərli,
lakin yıxılmadım, büdrədim hərdən

Gecələr yuxusuz arzu diləkli,
Anamsız yaşadım o günləri mən.
Budur daşıyıram sənət yükümü,
ömürlər almaqçün əcəl əlindən,
anam görməsə də indi bu günü
analar gözündə ucalıram mən.

Soltan həkim altı vətənpərvər övlad böyütmüşdür. Böyük oğlu Sədrəddin Bayramov Xaçınçay dəryaçasında iki yoldaşını xilas etmiş, özü isə həlak olmuşdu.

İsmət Salman qızı Bayramova (Quliyeva)

Beş qardaşın bir bacısı 1929-cu ildə anadan olmuşdur. Əkbər Bayramovun həm analıq, həm bacılıq duyğusu yaşadan xanım-xatun şəxsiyyət idi. İsmət Bayramova 9 yaşında atasını itirir, 12 yaşında anasını itirir, 13 yaşında qardaşı Kamran Bayramovu itirir.

Gecəni sabaha oyaq bitirən
Qara gecələrin qara quşuyam.
Bahar dimdiyində payız gətirən
Bu dərdin, həsrətin qaranquşuyam.

Dərdin, həsrətin içində qovrulan İsmət xanım əməksevərliyi ilə, iradəliliyi ilə fədakarlığı ilə, ləyaqəti ilə bütün çətinliklərə sinə gərmişdir. Müharibəyə gedən qardaşlarından ikisi Fərman və Bayram salamat qayıdır, Kamran qardaşı həlak olur. Həmişə can ay qardaş deyib, için-için ağlayırdı. Kamran qardaşı onun and yeri idi.

Həyat nə qədər amansız olsa da, İsmət xanımın qardaşları Bayram Bayramov, Əkbər Bayramov, Soltan Bayramov Azərbaycan cəmiyyətində hörmət, şöhrət qazandıqca İsmət xanım dərdlərini unudur.

1949-cu ildə ailə həyatı qurur. 6 övlad sahibi olur. Zəhmətsevərliyi ilə övladları böyüdür. İsmət Bayramova əsl Azərbaycan qadını idi. Azərbaycan qadını adı şərəf, ləyaqət, təmizlik və sədaqət rəmzi onda cəmlənmişdir.

İsmət xanım məcburi köçkünlük həyatı ilə barışmırdı. İki öğlu – Ramiz və Rəşid döyüşlərdə iştirak edib. Rəşid Quliyev döyüşlərin birində yaralanıb.

Yurdum yoxdur, yuvam yoxdur
El-obamdan aralıyam.
Vətən mənim ürəyimdir,
Ürəyimdən yaralıyam.

Əkbər Bayramov bacısının hər qayğısını çəkirdi, lakin İsmət xanım heç kimə əziyyət vermək istəməzdi. Müsəlman qadın "ismətli və şərəflidir", deyəndə beş qardaşın bir bacısı İsmət xanım yada düşür.

Əkbər Salman oğlu Bayramov

30 dekabr 1930-cu ildə Ağdam rayonunun Əlimədətli kəndində anadan olmuşdur. O, Əlimədətli kənd 7-illik məktəbini (1945), Ağdam Pedaqoji Texnikumunu (1945-1949) və Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin məntiq-psixologiya şöbəsini (1949-1954) əla qiymətlərlə bitirmiş, Universitetin Böyük Elmi Şurasının qərarı ilə psixologiya ixtisası üzrə aspiranturaya tövsiyə edilmiş və Azərbaycan Pedaqoji İnstitutunda psixologiya ixtisası üzrə aspiranturada təhsil almışdır (1954-1957). Ə.S.Bayramov APİ-də aspirantura şöbəsinin müdiri (1957-1958), elmi işlər üzrə prorektorun köməkçisi işləmişdir (1958-1960).

1959-cu ildə «Təfəkkürün müstəqillik və tənqidiliyinə görə III - IV sinif şagirdlərinin fərdi xüsusiyyətləri» mövzusunda namizədlik və

1969-cu ildə «Kiçik məktəb yaşlı şagirdlərdə təfəkkürün müstəqillik və tənqidiliyinin inkişaf dinamikası» mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1960-1970-ci illərdə APİ-nin psixologiya kafedrasında baş müəllim, dosent, professor vəzifələrində işləmişdir.

1965-1969-cu illərdə əvəzçilik üzrə Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutunda baş elmi işçi işləmiş və həmin illərdə İnstitutun psixologiya laboratoriyasının digər əməkdaşları ilə birlikdə təlimdə şagirdlərin fəallaşdırılması və onlarda idrak proseslərinin inkişaf etdirilməsinin psixoloji problemləri ilə bağlı tədqiqat işləri aparmışdır. Əkbər Bayramov eyni zamanda Yerevan Pedaqoji İnstitutunun Azərbaycan bölməsinə kömək məqsədilə əvəzçilik üzrə (1965-1983) orada işləmişdir.

1970-1971-ci illərdə APİ-də psixologiya kafedrasında professor, 1971-1992-ci illərdə Azərbaycan Dövlət Universitetinində pedaqogika və psixologiya kafedrasının müdiri, 1992-ci ildə kafedralar ayrıldıqdan sonra Bakı Dövlət Universitetində psixologiya kafedrasının müdiri, 1999-cu ildən həmin kafedrada professor vəzifəsində işləmişdir.

1960-2004-cü ilə kimi keçmiş sovetlər ölkəsi məkanında, xarici ölkələrdə, xüsusən də respublikada keçirilmiş bir çox elmi konfrans və simpoziumlarda, eləcə də beynəlxalq elmi konqreslərdə fəal iştirak etmiş, psixologiya elminin aktual problemlərinə dair maraqlı elmi məruzələrlə çıxış etmişdir.

1955-2004-cü illərdə Əkbər Bayramovun 46-ya qədər monoqrafiya, dərslik, dərs vəsaiti, elmi-kütləvi kitablar və 250-dan artıq elmi məqalə və məruzə tezisləri nəşr edilmişdir. Eyni zamanda o, psixologiya elminin, təlim-tərbiyənin aktual məsələlərinə dair 270-dən artıq qəzet məqaləsinin müəllifidir. Psixologiya, pedaqogika, məntiq və s. elmlər üzrə o, 35-dən artıq dərslik, dərs vəsaiti və monoqrafiyanın elmi redaktoru olmuşdur.

Əkbər Bayramov 10 cildlik Azərbaycan Sovet Ensiklopediyası, Kitabi Dədə-Qorqud Ensiklopediyası üçün psixologiya elminin müxtəlif problemlərinə aid 58-dən artıq məqalə yazmışdır. Eyni zamanda o,

10 cildlik Azərbaycan Sovet Ensiklopediyasının və 3 cildlik Uşaq Ensiklopediyasının redaksiya nəşriyyat şurasının üzvü olmuşdur. O, nəinki respublikada, eləcə də digər (Tacikistan, Qırğızıstan, İran İslam Respublikası və b.) ölkələr üçün psixologiya üzrə yüksək ixtisaslı elmi kadrlar hazırlanmasında yaxından iştirak etmişdir. Onun elmi rəhbərliyi ilə psixologiya elmi üzrə 35-dən artıq elmlər namizədi və elmlər doktoru dissertasiyası yazılmış, 15-dən artıq magistr dissertasiyasının elmi rəhbəri olmuşdur. bununla bərabər o, keçmiş sovetlər məkanında 10-dan artıq namizədlik və doktorluq dissertasiyalarının rəsmi opponenti olmuşdur. Professor Ə.S.Bayramov 1993-cü ildən 2000-ci ilə kimi M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universitetinin nəzdindəki (n.054.03.04) psixologiya elmləri üzrə ixtisaslaşdırılmış müdafiə şurasının sədri olmuşdur. 2000-ci ildən ömrünün sonuna kimi Respublika Prezidenti yanında Ali Attestasiya komissiyasının ekspert şurasının üzvü olmuşdur.

SSRİ Psixoloqlar cəmiyyəti Azərbaycan şöbəsinin, Azərbaycan Təhsil Nazirliyi Elmi-Metodik Şurasının pedaqogika və psixologiya bölməsinin sədri, Respublika ictimai rəyi öyrənən sosioloji mərkəzin üzvü, onun təşəbbüsü və yaxından köməyi ilə psixologiya elmləri üzrə BDU nəzdində təşkil olunmuş ixtisaslaşdırılmış müdafiə şurasının (1994-2000) sədri, Respublika Ali Attestasiya Komissiyasının ekspert şurasının üzvü olmuşdur (2000-2004). Ə.S.Bayramov «Fədakar əməyə görə» yubiley medalı (1970), «Şərəf nişanı» ordeni (1976), «SSRİ maarif əlaçısı» (1977) və Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə elm və təhsil sahələrində xidmətlərinə görə «Şöhrət ordeni» (2000), eləcə də bir neçə dəfə Azərbaycan Təhsil Nazirliyinin fəxri fərmanları ilə təltif edilmişdir. 1981-ci ildə ona Əməkdar elm xadimi fəxri adı verilmişdir.

Professor Ə.S.Bayramov zəngin elmi-pedaqoji fəaliyyətinin 35-ildən artıq bir dövrü bilavasitə Bakı Dövlət Universiteti ilə bağlı olmuşdur.

Xatirələrimdə və yuxularımda səni axtarıram

Atam mənim üçün həmişə müqəddəs bir varlıq olub və bir ildir onsuz yaşamaq mənə çox ağır gəlir. Hər evimizə gəldikdə gözlərim onu gəzir. Lakin o, yoxdur...

Biz iki övlad olmuşuq. Mən və qardaşım. Atam bizi hədsiz istəyirdi, ancaq heç bir vaxt bunu aşkar bildirməzdi. Bunu biz xəstələnəndə, ya da hansı bir problemlə həyatda üzləşəndə hiss edirdik. Uşaqlıqda bu sualı atama verdim, "Nəyə görə bizi özün gəzməyə aparmırsan, məktəbə getmirsən?". Onun cavabı bu idi: "İstəmirəm, mənə çox öyrəşəsiniz, mən olmayanda atasızlığı çox hiss etməyəsiniz". O özü də yəqin ki, bu hissləri keçirib. Çünki çox erkən ata - anasız qalıb. Deyirlər, mən atama çox oxşayıram, bununla həmişə qürur duymuşam. Yayda bizə - Şüvəlana bağa gəlib qalardı. Bu vaxtlar mənim üçün ən sevimli dövr olurdu. Onunla uzun-uzun söhbət edib, danışardıq. Sirlərini yalnız mənə deyərdi.

Bir gün bağda mənə konvert uzatdı, içində pul var idi. Soruşdum: - "Bu nədir?" dedi ki, "Bu pulu saxla, mən olmayanda anana verərsən. Qoy maddi çətinlik çəkməsin". Bu pulu mən 20 il saxladım və heç kimə bildirmədim. Atam elə bir insan idi, həyatın maddi tərəfi onu heç bir vaxt maraqlandırmazdı. O, həmişə mənəviyyatını qoruyub saxlamağa üstünlük verərdi.

Uşaqlıq xatirələrimdən bunu qeyd etmək istəyirəm, qardaşlarını, bacısını və onların övladlarını çöx sevərdi. Hərəsini bir dillə dindirərdi. Mənim övladlarım və nəvələrimlə zarafatlaşmağı xoşlayırdı. Elə bil bizə edə bilmədiklərini onlara çatdırırdı. O vaxtlara qayıtmaq istərdim. Bəlkə də bütün işlərimi, qayğılarımı atıb onun yanından çəkilməzdim. Ağzından çıxan hər bir kəlməni böyük qayğı ilə qoruyub, saxlayardım.

İnsan ən gözəl vaxtlarının qədrini sonra dərk edir. İndi yalnız xatirələrimdə və yuxularımda səni axtarıram. Bir ildir, sənsiz yaşayıram, ancaq elə bir gün, saat, dəqiqə yoxdur ki, səni yad etməyim. Səninlə söhbətləşməyim. Səni çox sevirəm.

Pərvin Əkbər qızı İbrahimova

Xalqına, elminə, ailəsinə məhəbbət bəxş edən insan

Əvvəla bu kitabın redaktoru Ənvər Çingizoğluna mərhumun övladı, yani oğlu kimi öz minnətdarlığımı bildirirəm.

Çox böyük təəssüf hissiyatı və ürəkdə olan bir ağrı ilə Əkbər Bayramovun bu dünyadan köçməsinin 1 illiyinin yaxınlaşmasının şahidiyik. Zaman keçdikcə mən daha da dərindən dərk edirəm bu itkini və atasız olan bir boşluğu. Neçə gündür qələmi alırdım əlimə ki, atam haqqında fikir və təəssüratlarımı çatdırım, lakin vaxtı uzadaraq buna çox çətinliklə nail oldum. Ona görə ki atam qeyri adi, özündə bir müqəddəslik simasını, əsl kişi simvolu,sırf müsbət aura daşıyan təvazökar, öz sənəti, xalqına, elminə, ailə və qohumlarına həmişə məhəbbət bəxş edən insan olub.

Onun xalqını hədsiz dərəcədə istəməsinin ibrətamiz bir faktını qeyd etmək istəyirəm. Əkbər Bayramovun 70 yaşı tamam olurdu. Həmin günün qeyd edilməsi ilə əlaqədar universitet rektorluğunun təklifini atama bildirəndə o qayğı ilə bir görkəm alıb özünə məxsus təmkində demişdi: Mən bu təklifi ilk növbədə elmimizə olan hörmət və qayğı kimi qiymətləndirirəm. Lakin mən 70 illiyimlə əlaqədar olaraq yubiley tədbirləri keçirilməsinə əsla razı ola bilmərəm. Əvvəla 25 noyabrda baş verən təbii fəlakətin, yəni güclü zəlzələ zamanı həyatdan məhrum olmuş adamlarımızın hələ qırxı da çıxmır. Ən başlıcası axı minlərlə insanlarımız, nə qədər ailələr evdən-eşikdən olmuş,

maddi məhrumiyyətlərə düçar olmuş, hələki onların dərdlərinə lazımınca əlac tapılmayıb, bundan əlavə məlumdur ki dekabr qış ayıdır və minlərlə, on minlərlə qaçqın və köçkünlərin soyuq daxmalarda və çadırlarda əzab və əziyyətini, məşəqqətlərini, soyuqdan donan körpə balaların istirablarını yaddan çıxarmaq olarmı? Axı mənim onların dərdini yüngülləşdirməyə gücüm çatmır. İnsan isə öz gücsüzlüyünü dərk etməkdən böyük əzab və istiraba düçar olur və buna uyğunlaşmaq hərkəsə müəssər olmur. Odur ki, mən belə bir şəraitdə özümə yubiley keçirilməsinə razılıq verməyimi öz əxlaq və mənaviyyatıma sığışdıra bilmərəm. Əgər belə etsəm, bəs onda dahi şairimiz M.Ə.Sabirin əsl tənqid hədəfi olmarammı?

Millət necə tarac olur olsun, nə işim var?!
Düşmənlərə möhtac olur olsun, nə işim var?!
Qoy mən tox olum, özgələr ilə nədi karım,
Dünyavü cahan ac olur olsun, nə işim var.

Psixologiya elminin Sovetlər dövründə qonşu respublikalardan geriləməsi atamı çox narahat edirdi. Məhz onun əziyyətlərinin, prinsipiallıq və sonsuz dərəcədə zəhmətləri əsasında nəinki onların səviyyəsinə, hətta psixologiya elmi inkişafında biz onları ötüb keçdik. (Məlumat Cənub Qafqaz respublikalarına aiddir).

Əkbər müəllim SSRİ psixoloqlar cəmiyyətinin üzvü seçildikdən sonra onun Ümumdünya psixoloqlar konfranslarında çıxışları və məruzələrinin oxunulması mənim gənclik illərimin xatirələrindədir.

Atam çox gözəl məclis sahibi idi. Öz zərif zarafatları ilə, bizim və fars poeziyalarından oxunan şerlərlə heç kimi diqqətsiz qoymazdı.

Ailədə o həmişə tələbkar, sadəlövh, ciddi, mənimlə bağlı isə o, cəmiyyət arasında başqaları öz övladllarını tərifladikdə atam isə əksinə mənə tənqidlə yanaşırdı. Bunu mənə qarşı o səbəbdən edirdi ki, mən öz inkişaf və təhsilimin artırılmasında kifayətlənib durğunluğa məruz qalmayım. Bu açıqlamanı atam mənə qəriblikdəki tələbəlik illərimdə ünvanladığı səmimi məktubunda etiraf etmişdi.

Mən çox fəxr edirəm ki, bu gün məhz Əkbər adını daşıyan mənim kiçik oğlumdu və ondan xahişim və tələbim həmin adı daimi ucaltmaqdan ibarətdir.

Onu da qeyd etmək istəyirəm ki xoşbəxtlikdən bizim ailədə Əkbər müəllimin sənətinin davamçısı var. Bu bacım qızı Nigardır. O artıq psixologiya elmləri üzrə fəlsəfə doktorudur.

Səhəti ilə bağlı Əkbər müəllimin ağır vaxtlarında daimi yanında olan anam Vəsilə xanım və bacım Pərvinin ibrətamiz qayğılarına həmişə heyran qalmışam. Allah onları mənə çox görməsin.

Əkbər müəllim artıq 1 ildir ki sən bizi tərk etmisən, lakin sənin ruhun bizimlə yaşayır. Allah sənə qəni qəni rəhmət eləsin və qəbrin nurla dolsun!!!

Azər Əkbər oğlu Bayramov

Mənim Əkbər babam

Əkbər Bayramov çox gözəl insan, görkəmli alim idi. Onu tanıyanlardan sevməyən insan məncə yoxdur. Hər dəfə söhbət gedəndə hamı onun necə xeyirxah, mehriban, müdrik, sadə, təvazökar insan olduğunu vurğulayır. Və mən hər dəfə onun haqqında danışılanları eşidəndə Əkbər Bayramovun nəvəsi olduğumla qürur duyuram.

Babam o qədər maraqlı insan idi ki, o böyüklə böyük kimi, kiçiklə kiçik kimi davranardı, yəni hamı ilə dil tapa bilirdi. Çox zarafatcıl idi, incə yumor hissinə malik idi. İndiyə qədər də onun bütün tanışları, dostları, yaxınları, tələbələri onun etdikləri zarafatları yada salır.

Təbiətcə çox sakit insan idi, mən onun kiməsə səsini qaldırmağını və ya əsəbləşməsini nadir hallarda görərdim. Emosiyalarını həddindən artıq cilovlaya bilirdi.

O müşahidə etməyi çox sevirdi. Danışmağı çox sevməzdi, dinləməyi sevərdi o da yəqin onun peşəsindən irəli gəlirdi.

Bir epizod yadıma düşdü: babam kitablarını çox sevərdi, o heç sevməzdi kimsə onun kitablarına toxunsun. Kitablarını sanki öz övladları kimi sevib qoruyurdu. Mənə lazım olan bütün kitablar onun kitabxanasında var idi, çünki onun kitabxanası çox zəngin idi və kitab lazım olan kimi ona müraciət edərdim və o mənə qaytarmaq şərtilə istədiyim kitabları verərdi. Bir gün onun kitabxanasında kitab axtararkən, bizim uşaqlıqda çəkdiyimiz rəsmlərə rast gəldim. Çox təəccübləndim, əvvəl anlamadım ki, görəsən o bu cızma qaraları niyə saxlayıb. Mən Psixologiya fakültəsinə qəbul olduqdan sonra başa düşdüm ki, o cızma qaralarla babam bizim xarakterimizi müəyyənləşdirirmiş.

Əkbər Bayramov çox maraqlı insan idi. Bir də görürdün anidən sənə elə ciddi sual verirdi ki, özünü itirirdin. Cavabı aldıqdan sonra heç nə demirdi, yalnız gülümsəyirdi. Niyə o sualı verdiyini soruşanda elə belə soruşdum deyirdi. Ancaq yeni kitabı işıq üzü görəndə o meqamı oxuyanda, o verdiyi sualın nə məna kəsb etdiyini anlayırdıq. Həmişə ona həsəd aparırdım, çünki o çox güclü psixoloq idi. Psixologiya elmini dərindən bilirdi, sanki ona bu vergi kimi verilmişdi. Elə psixologiya elminə yiyələnməyə məhz, babamın yolunu davam etdirmək üçün qərar verdim. Həmişə onun verdiyi məsləhətlərlə bəhrələnirdim. O, mənim onun yolunu seçməyimə çox ciddi yanaşırdı, özü bildirməsə də fərəhlənirdi. Bəzən mən ondan inciyərdim ki, hansısa bir uğurum olanda o buna elə güclü reaksiya vermir. Amma bir gün Əkbər müəllim mənə dedi ki, sən başa düşmürsən vaxt gələcək bunu anlayacaqsan: Mən sənə arxayınçılıq hissini verə bilmərəm, çünki sən həmişə öz üzərində işləməlisən, inkişaf etməlisən. Elm insandan həmişə səy tələb edir. Və indi başa düşürəm ki, o necə uzaq görən insan idi. Onun məsləhətlərindən indi də yararlanıram və onun yoxluğunu, artıq dayağının olmamasını hər zaman hiss edirəm. Bizim babamla əlaqəmiz yalnız baba-nəvə əlaqəsi deyildi, bizi həmişə birbirimizə başqa hisslər bağlayırdı. Biz həm də yaxın dost idik. Birbirimizi bir baxışla anlayardıq. Saatlarla söhbət edərdik və heç vaxt yorulmazdıq.

Axır 3 il onun xəstələnməsi və elmdən uzaqlaşması mənə çox pis təsir edirdi. Heç qəbullana bilmirdim. Amma nə edə bilərik həyatın qanunu budur, hər bir insan həyatdakı öz missiyasını başa vurub getməlidir. Əkbər Bayramovu itirmək mənə həyatdakı ən əziz varlıqlardan birini itirmək oldu. Hələ də buna inana bilmirəm. Hər gün psixologiya kafedrasına gedəndə onun portreti ilə üzləşirəm və onunla içimdə danışıram. Və sanki o mənə hər gün öz xeyir duasını verir.

Allah ona rəhmət eləsin! Əkbər Bayramov mənim babam, mənim fəxrim həmişə mənim qəlbimdə yaşayacaq!

***

Bəşər tarixinə nəzər salsaq görərik ki, dünyada ən mütərəqqi mövqelər və uğurlar məhz elm və kamal sayəsində qazanılıb və bundan sonra da belə olacaq. Təsadüfi deyil ki, dünya elminə dəyərli töhfələr verən, ömrünü xalqının yolunda fəda edən insanlar heç vaxt unudulmur, xatirələri daim əziz tutulur. Onlardan biri də Əkbər Bayramovdur.

Əkbər Bayramov ömrü həyatından sonra da davam edən insanlardandır. O, yaşadığı dövrdə ölkənin ictimai-sosial həyatında, elm və təhsilin inkişafında mühüm rol oynayıb.

Ömrünü psixologiya elminə həsr etmiş Əkbər Bayramov həm də bacarıqlı pedaqoq idi. Yarım əsrdən çox pedaqoji fəaliyyətlə məşğul olan alim yüksək ixtisaslı kadrların hazırlanmasına bütün bilik və bacarığını sərf edirdi. Öz dərin biliyini və zəngin təcrübəsini gələcək nəsillərə ötürməyi bacaran alim kimi böyük elmi məktəb yaratmışdı. Onun yetirmələri təkcə Azərbaycanda deyil, həmçinin bir çox dünya ölkələrinin aparıcı elmi mərkəzlərində və universitetlərində çalışır, xalqımıza baş ucalığı və nüfuz gətirir. Bu, heç də bütün elm adamlarına nəsib olmur.

Əkbər Bayramovun ömür kitabı bu gün bir daha vərəqlənir, keçdiyi həyat yolu göz önündə canlanır.

Onun qismətinə düşən ömür payını əsl insan, vətəndaş kimi şərəflə yaşadı. Xeyirxahlıq, alicənablıq, insanpərvərlik, həssaslıq, səmimiyyət kimi ali insani keyfiyyətlərə malik olan Əkbər Bayramov həmkarları, tələbələri, onu tanıyanlar tərəfindən sevilib, sevilir və seviləcək...

Təbii ki, bu məhsuldar elmi-pedaqoji fəaliyyət diqqətdən kənarda qalmayıb və Əkbər müəllim Azərbaycanda təhsilin və elmin inkişafındakı xidmətlərinə görə “Şöhrət” ordeni ilə təltif edilib. Prezident fərmanından:

Məmmədəmin Rəsulzadə adına Bakı Dövlət Universiteti müəllimlərinin təltif edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

FƏRMANI

Məmmədəmin Rəsulzadə adına Bakı Dövlət Universitetinin 80 illiyi münasibəti ilə Universitetin aşağıdakı müəllimləri elm və təhsil sahələrində xidmətlərinə görə təltif edilsin:

"Şöhrət" ordeni ilə

Axundov Ağamusa Ağası oğlu
Bayramov Əkbər Salman oğlu
Cəfərzadə Əzizə Məmməd qızı
Əsədullayev Seyfulla Qüdrət oğlu
Əsgərov Şahlar Qaçay oğlu
Hacıyev Sabir Abdulmanaf oğlu
Hüseynov Tofiq Həsən oğlu
Xələfov Abuzər Alı oğlu
İmanov Həmid Rza oğlu
Qasımzadə Fuad Feyzulla oğlu
Qəmbərov Dəmir Heydər oğlu
Quliyev İskəndər Həsən oğlu
Məlikova Məsumə Fazil qızı
Mustafayev Qara Teyfur oğlu
Namazov Qənbər Kazım oğlu
Sultanov RəhimSultanMəmməd oğlu
Zeynalov Məmmədəli Baba oğlu

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 11 fevral 2000-ci il № 279

Əsl elm xadimi bütün ruhu ilə yaradıcı şəxsiyyətdir - o, daxildən gələn tükənməz enerji ilə çalışaraq qarşıya qoyduğu saf və ali məqsədlərə çatmaq üçün hər cür əziyyətə qatlaşır, zəhmətdən usanmır. Yüksək alimlik və tədqiqatçılıq keyfiyyəti onun fitrətindən, məqsədə doğru inamla irəliləmək, hədəfə yetişmək əzmindən qaynaqlanır. Etiraf etməliyik ki, bu gün ətrafımızda alim adı daşıyan çox sayda "elm adamı" ilə qarşılaşsaq da, onların arasında elə yaradıcı insanlar var ki, tədqiqatları ilə yüksək nəticələr qazana bilir, sanballı əsərləri ilə tanınır, milli məkanın hüdudlarını aşır.

Elmdə yüksək pillələri qət etmək hər bir tədqiqatçının arzusudur. Bu prizmadan Əkbər Bayramovun elmi yaradıcılığı özünün ictimai dəyəri, aktuallığı, yüksək faydalılıq əmsalı ilə diqqət çəkir. Ən maraqlısı budur ki, tanınmış alim hər hansı mövzu üzrə araşdırma apararkən, ilk növbədə, onun fəlsəfi-metodoloji sxemini işləyib hazırlayır, dünya miqyasında maraqla qarşılanan yeni elmi model təklif edir və konsepsiyalarını inandırıcı dəlil və sübutlarla əsaslandırır. Bu cəhətləri sayəsində Əkbər müəllim hazırda həm də milli düşüncə, pedaqogika və mentalitetlə bağlı müasir təmayüllü araşdırmaları ilə tanınır, dünya fundamental və ictimai elmlərinin mütərəqqi təcrübəsindən layiqincə bəhrələnir.

Professor Əkbər Bayramov qəyyum himayəsinə tapınan alimlərdən olmayıb, həyatda məqsədlərinə halal zəhmətlə, işgüzarlıqla, məqsədyönlülüklə çatıb. Əsl alim üçünsə elmdə zirvə və həddi anlayışı yoxdur. O öz elmi axtarışları ilə daim öyrənməyə, həqiqəti üzə çıxarıb isbatlamağa, əldə etdiyi faydalı nəticələri praktik surətdə gerçəkləşdirməyə çalışır. 50 illik yorulmaz tədqiqatları ilə elmdə layiq olduğu zirvəyə yetişən Əkbər Bayramovun gənc tədqiqatçı şövqü ilə yaratmaq, virtual məkanın hüdudsuz imkanlarından bəhrələnmək səyləri onu tanıyanlarda rəğbət hissi doğurur.

Əsl ziyalı üçün vacib keyfiyyətlərdən biri də onun aydın mövqeyə sahib olması, taleyüklü məqamlarda xalqının mənafeyi baxımından ən doğru, dürüst olanı seçməsi, lazımi anda qətiyyət, cəsarət nümayiş etdirməsidir. Mənəvi dünyasının, vicdanının səsi Əkbər Bayramovu yalnız özü üçün yaşamağa, əhatə olunduğu dövrün, mü-

hitin nöqsanlarına, qüsurlarına göz yummağa, etinasız yanaşmağa qoymayıb. O, ətrafda baş verən hadisə və proseslərə münasibətdə passiv müşahidəçi mövqeyindən çıxış edərək biganəlik, laqeydlik nümayiş etdirməyib. Məşhur 91-lərin biri kimi dövrünün ictimai-siyasi hadisələrinə laqeyd qalmayıb, fəaliyyətinin bütün mərhələlərində məhz Azərbaycanın gələcəyini düşünüb. Siyasi baxışlarında hər zaman sabit və prinsipial olan Əkbər Bayramov ümummilli liderin siyasi kursunu dönmədən müdafiə edərək Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən dövlət quruculuğu prosesinə layiqli töhfəsini verməyə çalışıb. Ulu öndərin siyasi fəaliyyətinə YAP-ın fəallarından biri kimi daim dəstək verən, dövlətçilik maraqlarının keşiyində dayanan alim bir çox təltiflərə layiq görülüb. Hər bir mükafat əməyə verilən dəyərin göstəricisi olmaqla yanaşı, həm də məsuliyyət deməkdir. Əkbər Bayramovun necə məsuliyyətli şəxs olması hamıya bəllidir.

Professor Əkbər Bayramov keşməkeşli olduğu qədər də mənalı, zəngin və şərəfli həyat yolu keçib, məqsədlərinə doğru pillə-pillə irəliləyib, xalqına fayda vermək əzmi və qətiyyəti ilə ömrünü elmi axtarışlara həsr edib.

Əkbər Bayramov fitri istedadı, uzun illərə söykənən zəngin təcrübəsi, orijinal və bənzərsiz elmi yaradıcılığı sayəsində Azərbaycanda öz dəsti-xəttini, iş üslubunu yaratmağa nail olmuşdur ki, bu da tək-tək elm adamının taleyinə düşən böyük Allah vergisi hesab edilə bilər.

Əkbər Bayramova məxsus ciddi prinsipiallıq, elmi gələcəyi görmə qabiliyyəti, naməlum olanı dərk etməyə çalışmaq cəhdi, gənc elmi kadrların yetişdirilməsinə diqqət onun şəxsi cazibədarlığı, xarizması və qayğıkeşliyi ilə harmoniya təşkil edirdi.

Əkbər müəllim həmişə gənc alimlərə arxa-dayaq, böyük məsləhətçi olmuşdur. Məhz elə bunun nəticəsidir ki, indiyə kimi onun ustad himayəsi, müəllim qayğısı və şəxsi təşəbbüsü ilə xeyli gənc istedad dissertasiya müdafiə edərək alim adını qazanmışdır.

Əzablı ömür qisməti dünyaya gəldiyi ilk illərdən onu izləməyə başlasa da, Ulu Tanrının mərhəməti sayəsində Əkbər Bayramov çox çətinliklərə sinə gərərək, öz yolu ilə inadla, inamla irəliləmişdir.

Əkbər Bayramovun geniş miqyaslı əmək fəaliyyəti müstəqil dövlətimiz tərəfindən də yüksək qiymətləndirilmişdir. Onun alim əməyi xalqımız və dövlətimiz tərəfindən dəyərləndirilərək fəxri prezident fərdi təqaüdünə layiq görülmüşdü. Həmin sərəncam:

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRDİ TƏQAÜDLƏRİNİN VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

SƏRƏNCAMI

"Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq qərara alıram:

1. Azərbaycanda təhsilin və elmin inkişafında böyük xidmətləri olan aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdləri verilsin:

Bayramov Əkbər Salman oğlu
Əsədullayev Seyfulla Qüdrət oğlu
Əsgərov Bəhram Mehralı oğlu
Məlikova Məsumə Fazil qızı
Mustafayev Qara Teyfur oğlu
Mütəllimov Təhsin Mustafa oğlu
Namazov Qəmbər Kazım oğlu

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 30 oktyabr 2009-cu il.

Qeyd edim ki, Əkbər Bayramov hər zaman öz aktivliyi ilə fərqlənən alimlərdən olub. O hər zaman övladlarına, tələbələrinə və yoldaşlarına bir şeyi yüksək formada anlatmağa çalışırdı: "Layiqli və ləyaqətli vətəndaş olmağı". Ona görə də Əkbər müəllimin bütün əməlləri, işləri, fəaliyyəti dövlətimizin inkişafına xidmət edən sağlam düşüncəli, sağlam ruhlu, savadlı vətəndaşların yetişdirilməsinə istiqamətlənmişdi.

Ulu Tanrı hər insana bir ömür bəxş edir. O kəslər xoşbəxtdir ki, öz ağlı, zəhməti, ədəb-ərkanı ilə məzmunlu yaşayır, insanlara xeyirxahlıq bəxş edir, yaşadığı ömürdən qürur duyur. Belələri şəxsiyyət zirvəsinə ucalır, əsl Vətən övladı olurlar.

Elmi erudiyası, iti təfəkkürü, istedadı, intellekti ilə seçilən, Azərbaycanda psixologiya elminin və təhsilinin inkişafında, onun zənginləşdirilməsində, tədqiqi, təbliği və tədrisində yorulmadan və fədakarlıqla çalışan, qəlbində vətən sevgisi, əməllərində xeyirxahlıq, təmənnasızlıq, fikirlərində aydınlıq, sözlərində səmimiyyət, hərəkətlərində alicənablıq mücəssəməsi olan Əkbər müəllim özünün fitri istedadı, gərgin zəhməti və əməksevərliyi, işinə və peşəsinə vurğunluğu sayəsində elmin və kamilliyin ən uca zirvəsinə yüksəlmişdi.

Görəcəyi işlərin zənginliyini, üzərinə düşən məsuliyyətin dəyərini hər kəsdən yaxşı bilən Əkbər müəllimin qürur duyduğu məqamlardan biri də övladlarını vətənpərvər ruhda tərbiyə etməsi idi.

Xalqımızın qan yaddaşını, öz yaddaşında qoruyan bir alim ömrünün apardığı gərgin elmi-tədqiqat işlərindən söz açmamışdan qabaq, üzü təbəssümlü, ruhu sağlam bir insanın qəlbində gəzdirdiyi nisgili, vətən yoxluğunu, yurd xiffətini, ikiyə bölünmüş Qarabağ ellərinin dərdini hər zaman özü ilə gəzdirdi. Dünyaya göz açdığı Ağdam bölgəsi, doğma babasının adını daşıyan Əlimədətli kəndi hər gün elsiz, vətənsiz bir alim ömrünə kədər, iztirab bəxş edirdi. O, inanırdı ki, doğma yurdu düşmən caynağından azad olacaq.

Əkbər müəllim zəhmətsevər, dostluqda sədaqətli, sözündə bütöv, yüksək əxlaq və fəzilət sahibi idi. Zəngin və geniş erudisiyası, ədalətliliyi, humanistliyi, sakit təbiəti ilə seçilirdi. Ruhi müvazinətini

heç vaxt itirməzdi. Bütün varlığı ilə Yaradana bağlı idi. Səbrli və dözümlü, özünə hörmət edən, öz şəxsiyyətini qoruyan, təvazökar insan idi. O, öz ərizəsi ilə kafedra müdiri vəzifəsindən çıxmışdı. Səhhəti onu narahat edirdi, müalicə olmaq, dincəlmək istəyirdi. Ömür yolu hamar və rahat olmamışdı. O, tale kitabının hər səhifəsini zəhmətlə, əziyyətlə, ən başlıcası isə halallıqla yazmışdı. Mənəvi saflıq, insanlara sonsuz məhəbbət, xeyirxahlıq onu ucalığa aparan yolun əsas bələdçisi olmuşdu. Sevimli babam, xeyirxah məsləhətçim Əkbər müəllim haqqında keçmiş zamanda danışmaq və yazmaq mənim üçün çox ağırdır. Amma nə etməli? Onun haqq dünyasına qovuşmasını qəbul etməkdən başqa yolumuz yoxdur. Təsəllimiz odur ki, əziz babamız uzun illəri mənalı, şərəfli, ləyaqətli və layiqli müəllim və alim ömrü yaşadı. Allah rəhmət eləsin.

II BÖLMƏ

ƏKBƏR BAYRAMOVUN HƏYAT VƏ YARADICILIQ BİOQRAFİYASI

Böyük alim, dəyərli şəxsiyyət

Professor Əkbər Bayramov Bakı Dövlət Universitetinin fəxri olan ziyalılardan idi. 100 ilə yaxın tarixi olan universitetimizdə Əkbər müəllim ikinci nəsillə üçüncü nəslin qovşağında fəaliyyət göstərən, milli kadrların ikinci nəslinin nümayəndəsi olan fenomenal bir şəxsiyyət, gözəl alim, nəcib bir insan idi. Mən Əkbər müəllimi gənclik illərindən tanıyıram. Universitetin böyük və mürəkkəb kollektivində onun həmişə xüsusi mövqeyi və yeri olmuşdur. Əkbər Bayramov psixologiya elmində maraqlı monoqrafiyaları,dərslikləri, dərs vəsaitləri, tərcümə kitabları yüzlərlə elmi məqalələri ilə tanınmış mütəxəssisdir.O, bütün ömrünü Bakı Dövlət Universitetində gərc nəslin təlim-tərbiyəsinə həsr etmişdir. Bu alimin psixologiya ilə bağlı mülahizələri elmi sferada hörmətlə qarşılanır, fikirlərinə istinadolunur. Təkcə onu qeyd edək ki, bir az bundan əvvəl Əkbər müəllimin postsovet məkanında ilk dəfə nəşr etdirdiyi «Sosial psixologiya»kitabı nəinki Azərbaycanda, həm də digər respublikalardaböyük əks-səda doğurdu. Bu kitabla, onun məz-

mun-mahiyyətiilə bağlı qəzetlərdə, jurnallarda, internet səhifələrində onlarla məqalələrözünə yer aldı. Onun tədqiqatçılıq səriştəsi tanınmış alimlər tərəfindənvurğulandı.

Elm aləmi və həmkarları yaxşı bilir ki, professor Əkbər Bayramov səriştəli pedaqoq, ciddi elmi-tədqiqat işlərinin müəllifidir.Qeyd edim ki, Əkbər müəllim müxtəlif illərdə yazdığı məqalələr,rəylər, şəxsiyyətlər barədə düşüncələr və xatirələr də xoştəsir bağışlayırdı. Onu deyim ki, bu yazılarda da Əkbər müəllim öz alim-tədqiqatçı mövqeyini hifz edirdi. Bəzən kiçikbir məqalədə çox vacib və elm üçün zəruri bir mətləbialim ciddiyyəti ilə ortaya qoyur və onu həll edirdi.

Gözəl insan, görkəmli alim, peşəkar pedaqoq Əkbər Bayramovun Azərbaycan elmi və təhsili qarşısında xidmətləri böyükdür. Təvazökar insan olan Əkbər müəllim bütöv xarakterə, humanist təbiətə, yüksək peşəkarlığa malik zəhmətkeş alim-pedaqoq idi. Onun milli dəyərlərə köklənmiş mənəvi aləmi, dərin biliyi, ədalət hissi, zəhmətkeşliyi elmi-pedaqoji mühitdə şəxsiyyətinə böyük hörmət aşılamış, tələbələrinin və həmkarlarının sevgisini qazandırmışdır.

Təvazökar təbiəti, həlim xasiyyəti, eyni zamanda tələbkarlığı, prinsipiallığı, müdrikliyi, düzlüyü, peşəsinə, dostlarına, yurduna, doğma Universitetinə, bütövlükdə Vətəninə sədaqəti Əkbər müəllimin işıqlı obrazını yaratmış, onu tanıyanların böyük hörmətini qazandırmışdı.

Yeniyə, yeniliyə can atmaq, təzə cığır açmaq, axtarmaq eşqi Əkbər Bayramovu daim yaradıcılığa sövq edirdi.İti zəkası, geniş təfəkkürü qocaman professorupsixologiya kimi böyük ümmanda problemləri görmək, çözmək, sistemləşdirmək, dəyərləndirmək bacarığı vermişdi. Bütün həyatını elmə həsr edən bu cəfakeş alim üçün psixologiya sehirli bir dünyaya bənzəyərdi. Onu tanıyanlar təsdiqləyərlər ki, bu alim heç vaxt məşğuliyyətsiz olmayıb. Yaratmaqla yaşayardı.

Professorun portretində Şəxsiyyət psixologiyası ilə bağlı fəaliyyətinində xüsusi yeri vardı.

Əkbər müəllim həm də yüksək mənəvi keyfiyyətləri ilə seçilən el ağsaqqalı kimi sevilirdi.Elə bunun nəticəsidir ki, gözəl ailə başçısı

kimi xalqımız üçün çox dəyərli övladlar tərbiyə edərək yetişdirib. Sadəlik, ziyalılıq, mənəviyyat qanunlarına əməl etmək onun üçün hər şeydən üstün idi.

Alimin fəaliyyətinin elmi zirvəsi bugünümüzün ən bariz nümunəsi və gələcəyin uğurlu göstəricisidir.Müstəqillik dövründə universitetimizdə geniş vüsət almış psixologiya istiqamətinə professor Əkbər Bayramovun verdiyi töfhələr çoxdur. O, bu fənni tədris etməklə bərabər, həm də kurs üzrə proqram, dərslik və dərs vəsaitlərinin yazılmasında yaxındaniştirak edirdi. Bu cəhətdən onun müəllifi olduğu «Psixologiya» (1989), «Sosial psixologiya» (1986), «Məhkəmə psixologiyası» (1985), «Məhkəmə psixologiyası və psixoloji ekspertiza məsələləri» (1987), «Etnik psixologiya» (2001) və s.dərsliklərini xüsusi vurğulamaq istərdim.Respublikadakı yaradıcı mühitdən, universitetimizdəyaranmış gözəl tədris situasiyasından, elmi axtarışlarüçün açılmış hüdudsuz müstəvidən gen-bol bəhrələnməyi bacaran professor həsəd aparılası məhsuldarlıq nümayiş etdirmişdi.

Professor Əkbər Bayramovun həyatında, yaradıcılığında, taleyində və psixoloji toponomikasında ən başlıca yeri Azərbaycan tuturdu. O, doğulub boya-başa çatdığı torpağın tarixini, mədəniyyətini, milli-mənəvi dəyərlərini yaratdığı əsərlərində sönməz sevgi ilə, yanarlıqla tərənnüm və təbliğ edirdi. Milli psixologiyamızın ayrı-ayrı səhifələrini araşdırıb təhlil etdikcə yenidən özündə qüvvət tapır, cavanlaşırdı. Yeni ruhla və həvəslə bədii yaradıcılığını, elmi araşdırmalarını davam etdirirdi. Əkbər müəllim Allahın ona verdiyi ömür payını əsl kişilərə layiq yaşadı, özündən sonra şərəfli bir ad qoyub getdi.

Əkbər Bayramovun bir fikri heç yadımdan çıxmır: "Gənclərin ləyaqətli vətəndaş kimi yetişməsi üçün müəllimlər hərtərəfli biliyə, milli keyfiyyətlərə malik olmalıdrlar". Onun özü bütün müsbət keyfiyyət tələblərinə cavab verirdi.

Dərin təfəkkürə, elmi biliyə malik olan Əkbər Bayramov həm də həssas təbiətli, vətənini ürəkdən sevən, torpağına bağlı bir insan kimi yaddaşlarda yaşayır.Professor Əkbər Bayramov universitet kol-

lektivinin xatirində yüksək mənəviyyatı, ziyalılığı, insanpərvərliyi ilə qalmışdır. Xalqımızın milli-mənəvi dəyərlərinə hörmət ilə yanaşan alim müəllim kimi fəaliyyət göstərdiyi illərdə tələbələrinə də bu müqəddəs hissləri aşılamış, onları Vətənə sədaqətlə xidmətə səsləmişdir. Nümunəvi həyatı və fəaliyyəti ilə hər birimizin yaddaşına həkk olmuş professor Əkbər Bayramovun əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır

Abel Məhərrəmov,
Bakı Dövlət Universitetinin rektoru,
AMEA-nın həqiqi üzvü, Əməkdar Elm Xadimi

Ömrü örnək olan alim

O, mənalı bir ömür yaşamışdı, cəmiyyətə, xalqına şərəflə xidmət etmişdi, güclü məntiqi təfəkkürə, dərin düşüncə tərzinə malik idi. Aydın elmi əsaslara söykənən fikirləri, yüksək insani keyfiyyətləri ilə həmişə fərqlənmişdi. Hamı onunla işləmək, nə barədə olursa-olsun söhbətləşmək, fikir mübadiləsi aparmaq istəyirdi. Hər şeydən öncə böyük bir ziyalı idi. Nurlu əməlləri, əsl vətəndaş mövqeyi hamıya örnək idi. Məramı xoş, niyyəti saf, fikirləri işıqlı idi. Söhbət Azərbaycanda psixologiya elminin inkişafında müstəsna xidmətləri olmuş, özünün elmi məktəbini yaratmış görkəmli alim, unudulmaz müəllim, xeyirxah insan - əməkdar elm xadimi, professor Əkbər Salman oğlu Bayramovdan gedir. O, ömrünün 85-ci ilində dünyasını dəyişmişdi.

Əkbər müəllim haqqında keçmiş zamanda yazmaq olduqca çətindir, amma bu da bir gerçəklikdir. Həmin gerçəklik isə dərk edilməli və yaşanmalıdır - ömrünü elmə, xalqa xidmətə həsr etmiş alimin yaşadılması üçün. O, yaddaşlarda böyük qəlbə malik elm xadimi, özünü təsdiq edən şəxsiyyət kimi qalmışdır. Təmkinli, səbirli, dözümlü və iradəli insan idi. Lakin doğulub boya-başa çatdığı doğma Əlimədətlinin, Ağdamın, bütövlükdə Qarabağın Ermənistan tərəfindən işğal edilməsi onu çox sarsıtmışdı. Bəlkə də elə bu yurd dərdi onu içdən üzdü!

1988-1990-cı illərdə Azərbaycana və azərbaycanlılara qarşı törədilən soyqırımı, etnik təmizləmə, SSRİ rəhbərliyinin ədalətsiz

mövqeyi, 20 Yanvarda sovet ordusunun dinc mülki adamları - azərbaycanlı əhalini gülləbaran etməsi görkəmli alimi dəhşətə gətirdi. Əkbər Bayramov səsini ucaltdı və bu cinayətləri "Psixoloji etüdlər" (rusca) kitabında psixoloji baxımdan təhlil edərək kəskin tənqidi mövqeyini bildirdi. Kitabın rus dilində yazılmasında məqsəd isə Azərbaycanda baş verən hadisələri beynəlxalq ictimaiyyətə çatdırmaq idi. Bu, indi hamıya sadə görünə bilər. Amma dövrün, zamanın sərt olayları, ziddiyyətləri o vaxt bütün bunları söyləməyə böyük cəsarət tələb edirdi. Bax belə, çəkinmədən, qorxmadan, əsl ziyalı kimi Əkbər müəllim xalqı ilə bir yerdə oldu.

Böyük nüfuza malik idi və onun sözü ictimai rəyə ciddi təsir edirdi. Ona görə də həmin çətin dövrdə xalqı və dövləti xilas edə biləcək yeganə siyasətçinin məhz ümummilli lider Heydər Əliyev olduğunu dərk edərək bu böyük şəxsiyyətin hakimiyyətə gəlməsinə çağırış edən "91"lərin ilklərindən biri də professor Əkbər Bayramov oldu. Baxmayaraq ki, buna görə təzyiqlərə, təhqirlərə, lüzumsuz tənqidlərə məruz qaldı, amma haqq yolundan çəkilmədi.

Professor Əkbər Bayramov 30 dekabr 1930-cu ildə Ağdamın Əlimədətli kəndində anadan olmuşdur. 1949-cu ildə Ağdam Pedaqoji Texnikumunu bitirmiş və həmin il Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin məntiq-psixologiya şöbəsinə qəbul olunmuşdu. Onun istedadı universitet rəhbərliyinin diqqətindən kənarda qalmır və Elmi Şuranın qərarı ilə aspiranturaya tövsiyə edilir. Əkbər Bayramov 1954-cü ildə psixologiya ixtisası üzrə aspiranturaya qəbul olur və 1959-cu ildə namizədlik, 1969-cu ildə isə doktorluq dissertasiyalarını uğurla müdafiə edir. Araşdırmaları psixologiya elminə yeni nəfəs, istiqamət gətirir. Təsadüfi deyil ki, "Kiçik məktəb yaşlı şagirdlərdə təfəkkürün müstəqillik və tənqidiliyinin inkişaf dinamikası"nın tədqiqinə həsr edilmiş elmi araşdırmaları ovaxtkı SSRİ-də böyük maraq doğurur. Beynəlxalq konfranslarda irəli sürdüyü nəzəriyyə ilə bağlı məruzələri qısa zamanda yeni tədqiqatlara təkan verir. O, İttifaq

miqyasında nüfuzlu alim kimi tanınmaqla yanaşı, həm də psixologiyada elmi məktəb yaratmış məşhur alim kimi qəbul edildi.

Professor Əkbər Bayramov əmək fəaliyyətinə Azərbaycan Dövlət Pedaqoji Universitetində başlayır və bu ali təhsil ocağında elmi-pedaqoji kadrların hazırlanmasında, elmi-tədqiqat işlərinin təşkilində, psixologiyanın tədrisində, eyni zamanda dərsliklərin hazırlanmasında yaxından iştirak edir. Təsadüfi deyil ki, həmin dövrdə psixologiya üzrə yazılan dərslik və monoqrafiyaların demək olar ki, hamısının elmi redaktoru professor Əkbər Bayramov olmuşdur.

Görkəmli alim 1971-ci ildə Bakı Dövlət Universitetinə "Pedaqogika və psixologiya" kafedrasına müdir vəzifəsinə dəvət edilir və ömrünün sonuna qədər burada işləyir. O zaman da bu kafedra respublikada aparıcı kafedra sayılırdı və ona görkəmli alimlər akademik A.Makovelski və professor M.Məhərrəmov rəhbərlik etmişdilər. Kafedraya rəhbərliyi dövründə psixologiya elminin inkişafı, onun yeni sahələri üzrə elmi-tədqiqat işlərinin təşkili yüksək səviyyədə aparılır, müttəfiq respublikaların və xarici ölkələrin ali məktəbləri ilə əməkdaşlıq əlaqələri genişlənir. Psixologiyanın tətbiqi sahəsində ilk addımlar atılır.

Əkbər müəllim milli təəssübkeşliyi ilə də seçilirdi. Onun sağlam ziyalı mövqeyi hər yerdə özünü göstərirdi. İşlərinin həddən artıq çox olmasına baxmayaraq, Yerevan Pedaqoji İnstitutunda yaradılmış Azərbaycan filologiyası bölməsinin fəaliyyətinə kömək məqsədilə 1965-1983-cü illərdə əvəzçi professor kimi mühazirələr də oxumuşdur. O istəyirdi ki, dədə-baba torpaqlarında yaşayan azərbaycanlılar yüksək təhsil alsınlar, inkişaf etsinlər, öz yurdlarını tərk etməsinlər, ermənilərin məkrli siyasətinin qurbanı olmasınlar. Hər şeyi öz rəngində görməyi bacaran və bunu hamıya tövsiyə edən Əkbər Bayramovun bu xüsusiyyəti vətənpərvərliyindən və cəsarətindən irəli gəlirdi.

Professor Ə.Bayramovun elmi yaradıcılığı çoxşaxəlidir. O, sözə sığmayacaq qədər işgüzar idi. Alimin təfəkkürün müstəqillik və tənqidiliyinin inkişaf xüsusiyyətləri ilə bağlı araşdırmaları psixologi-

ya elminin inkişafında yeni mərhələ kimi dəyərləndirilməlidir. O, kifayət qədər öyrənilməmiş mühüm bir problemin - ağlın keyfiyyətləri problemini şəxsiyyət yanaşması baxımından araşdıraraq "perseptiv" inikasdan tənqidi təfəkkürün müxtəlif səviyyələrinə keçidin qanunauyğunluqlarını müəyyən etmiş, müstəqil və tənqidi təfəkkürün funksiyalarını, strukturunu və mənşəyini tədqiq etmiş, eyni zamanda bunları şəxsiyyət keyfiyyətləri kimi nəzərdən keçirmişdir. Əlbəttə, onun elmə gətirdiyi bu yeniliklə tamamilə təzə bir elmi istiqamətin əsası qoyuldu. Bu, azərbaycanlı alimin psixologiya elminin inkişafına verdiyi ən böyük töhfə idi. Təsadüfi deyil ki, psixologiya elminin tarixində təfəkkürün müstəqilliyinin şəxsiyyət keyfiyyəti kimi tədqiqi istiqaməti 1950-1960-cı illərdən amerikalı məşhur psixoloq Salomon Aşın və məşhur azərbaycanlı psixoloq Əkbər Bayramovun adları ilə bağlıdır. Hər iki alim eyni vaxtda bu problemin həllinə nail olmuşlar.

Professor Əkbər Bayramovun rəhbərliyi ilə ali məktəblər üçün yazılmış psixologiya üzrə dərsliklər yenidən işlənərək dəfələrlə nəşr edilmişdir. Ali məktəblər üçün nəzərdə tutulmuş "Psixologiya" dərsliyi (professor Əbdül Əlizadə ilə birlikdə) 1989-cu ildən bu günə kimi 15 dəfə yenidən çap edilərək hər bir psixoloqun stolüstü kitabına çevrilmişdir. "Sosial psixologiya" (1986), "Məhkəmə psixologiyası" (1985), "Məhkəmə psixologiyası və psixoloji ekspertiza məsələləri" (1987), "Etnik psixologiya" (2001) və digər dərsliklər milli zəmində zəngin ədəbi-bədii irsimizin təhlili əsasında yazılmış dəyərli əsərlərdir.

Onun tədqiqatlarında "Kitabi-Dədə Qorqud" dastanlarında, Nizami Gəncəvi, İ.Nəsimi, M.Füzuli, A.Bakıxanov, M.F.Axundzadə, C.Məmmədquluzadə, M.Ə.Sabir ədəbi irsinin təhlili əsasında Azərbaycan psixoloji fikir tarixinin kökləri və qaynaqları öyrənilmiş, ümumiləşdirmələr aparılmışdır. Nizaminin ölməz əsərlərində rənglərin simvolikası, hürufizmin psixoloji kökləri, Məcnunun timsalında şəxsiyyətin autizasiyası, təşəkkülü, özünüdərki və özünüqiymətlən-

dirməsinin psixoloji problemləri, Nəsiminin yaradıcılığında ekzistensial psixologiya məsələləri araşdırılmışdır.

Onun etnik xüsusiyyətlər və etnoslararası qarşılıqlı münasibətlərin psixoloji problemləri ilə bağlı tədqiqatları da böyük elmi əhəmiyyətə malikdir. "Psixoloji düşüncələr" (1994), "Etnik psixologiya məsələləri" (1996), "Kitabi-Dədə Qorqud" dastanlarında etnik-psixoloji xüsusiyyətlərin inikası" (2000), "Etnik psixologiya" (2001) və digər əsərləri milli psixologiyanın tədqiqinə həsr edilmişdir.

Professor Əkbər Bayramov əsərlərində həm də erməni vəhşiliklərinin psixoloji köklərini araşdırır, nekrofiliya (E.Fromm) anlayışı axarında ermənilərin etnik xüsusiyyətlərini psixoloji ədəbiyyatda ilk dəfə olaraq açıqlayır və inkaredilməz elmi dəlillərlə erməni faşizminin mahiyyətini açır.

Görkəmli alim ilk çoxcildli Azərbaycan ensiklopediyasının hazırlanmasında yaxından iştirak etmişdir. 10 cildlik Azərbaycan Sovet Ensiklopediyası və 3 cildlik Uşaq Ensiklopediyasının redaksiya-nəşriyyat şurasının üzvü kimi onlarla maraqlı elmi məqalənin də müəllifi olmuşdur. "Kitabi Dədə-Qorqud" Ensiklopediyası üçün psixologiya elminin müxtəlif problemlərinə aid 58-dən artıq məqalə yazmışdır.

Azərbaycan SSR Təhsil Nazirliyinin ali məktəblər üçün dərslik və proqramların nəşrinə icazə verən şuranın uzun illər sədri olmuşdur. Onun elmi rəhbərliyi ilə Azərbaycanda və xarici ölkələrdə psixologiya üzrə 36 fəlsəfə doktoru və elmlər doktoru dissertasiyası müdafiə edilmiş, keçmiş sovetlər məkanında 10-dan artıq namizədlik və doktorluq dissertasiyasının rəsmi opponenti olmuşdur.

SSRİ Psixoloqlar Cəmiyyəti Azərbaycan şöbəsinin uzun illər sədri olan professor Əkbər Bayramov həm peşəkar psixoloqların birgə səmərəli fəaliyyətini, həm də SSRİ və Zaqafqaziya psixoloqlarının ayrı-ayrılıqda keçirilən qurultay və konfranslarında respublikamızın fəal iştirakını təşkil etmişdir. Elm təşkilatçısı kimi onun təşəbbüsü ilə ilk dəfə BDU-nun nəzdində psixologiya elmləri üzrə Dissertasiya Şurası yaradılmış və bu şuranın 1994-2000-ci illərdə sədri olmuşdur.

2000-2015-ci illərdə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasında ekspert şurasında fəaliyyət göstərmişdir. 2016-cı ildən isə yenidən psixologiya elmləri üzrə BDU-nun nəzdindəki Dissertasiya Şurasının üzvü olmuşdur. Qeyd etmək lazımdır ki, professor Əkbər Bayramovun psixologiya sahəsində elmi-pedaqoji kadrların hazırlanmasında da müstəsna xidmətləri var. O, keşməkeşli həyat yaşadığından yetirmələrinə də dərin inam bəsləyirdi. Bu da elmi problemlərin həllində qarşıya çıxan çətinliklərin aradan qaldırılmasında onlara böyük psixoloji yardım göstərirdi. Tələbələrini əsl alim və şəxsiyyət kimi görmək arzusunda idi. Qayğıkeşliyi, səmimiyyəti, xeyirxahlığı, alicənablığı onu ətrafındakılara doğmalaşdıran və sevdirən ən mühüm keyfiyyətlər idi. Bu gözəl alimin amalı xalqının maariflənməsi ilə bağlı idi. Nəcib hərəkətləri isə onun həyatında çox olub...

Professor Əkbər Bayramov BDU-da Sosial elmlər və psixologiya fakültəsinin yaradılmasının təşəbbüskarı və həmin fakültənin ilk dekanı olmuşdur. O, ilklərə imza atan alimlərimizdən və görkəmli tədqiqatçılarımızdan idi. 1996-cı ildə 65 yaşında ərizə yazaraq kafedra müdirliyindən istefa verdi. Bildirdi ki, mən gənc kadrları sağlığımda iş başında görmək istəyirəm. Hər bir uğurlu işin gələcəyi onu davam etdirə biləcək kadrların hazırlanmasından asılıdır. O, belə geniş düşüncəyə malik alim-təşkilatçı idi! Əkbər müəllimin bu addımı respublikada bir ilk idi. Bu gün də onun atdığı həmin addım hamıya gözəl bir örnəkdir.

Alim Əkbər Bayramovun 46 kitab və monoqrafiyası, dərslik, dərs vəsaiti, elmi-kütləvi kitabları və 600 elmi məqalə və məruzə-tezisləri nəşr edilmişdir. Psixologiya, pedaqogika, məntiq və s. elmlər üzrə o, 35-dən artıq dərslik, dərs vəsaiti və monoqrafiyanın elmi redaktoru olmuşdur.

Görkəmli elm xadimi Ə.Bayramovun fədakar əməyi dövlət tərəfindən həmişə yüksək qiymətləndirilmişdir. Alim “Fədakar əməyə görə” yubiley medalı (1970), “Şərəf nişanı” ordeni (1976), “SSRİ

maarif əlaçısı" (1977), "Əməkdar elm xadimi" (1981), "Şöhrət ordeni" (2000), Azərbaycan Respublikası Təhsil Nazirliyinin fəxri fərmanları ilə təltif edilmişdir. 2009-cu ildə ona Prezident təqaüdü, 2016-cı ildə BDU-nun "Fəxri professor"u adı verilmişdir.

Əkbər müəllimin bir böyük arzusu var idi - işğal edilmiş torpaqlarımızın azad edilməsi və doğma yerləri qarış-qarış gəzmək. Bəlkə də bu yurd həsrəti, nisgili qənim kəsildi ona. Amma əminliklə deyə bilərəm ki, torpaqlarımız azad ediləcək və Əkbər müəllimin ruhu rahatlıq tapacaq. Ağdam şəhərində onun adına məktəb də, küçə də olacaq. O məktəbin məzunlarından professor Əkbər Bayramovun yolunu davam etdirəcək yeni psixoloqlar nəsli yetişəcək, zaman daim onu yaşadacaq.

Bəxtiyar Əliyev,
AMEA-nın müxbir üzvü,
psixologiya elmləri doktoru, professor

Müəllim və alim ömrünün bəhrəsi

Çox sevdiyin, əziz tutduğun şəxs haqqında söz demək həm asandır, həm də çətin. Asandır ona görə ki, bu şəxsi yaxşı tanıyırsan, bütöv mənəviyyatı, gördüyü işlər, əməlləri sənə tanışdır. Çətindir, o mənada ki, bu şəxs haqqında necə söz, fikir söyləyəsən ki, onun bütün varlığını, iç dünyasını tam göstərə biləsən. Haqqında söz demək istədiyim, çox hörmətli şəxs, tanınmış alim, ziyalı, tələbələrin sevimli müəllimi Əkbər Bayramovdur.

İlk növbədə qeyd etmək istərdim ki, o mənim atam Əbdül Əlizadə ilə eyni bir dövrdə elmi fəaliyyətə başlamışdır. Maraqlıdır ki, uzun illər bir yerdə çalışan Əkbər Bayramovu və Əbdül Əlizadəni bu gün elmin səmasında qoşa qanada bənzədirlər. Müəllimlik illərdən başlayaraq hər iki alimin elmi fəaliyyətində aparıcı rol oynayan istiqamətlərdən biri də ölkəmizdə milli təhsil quruculuğunun elmi-nəzəri platfomasının yaradılmasında, eləcə də yeni təhsil konsepsiyasının tələblərinə cavab verən dərslik və tədris vəsaitlərinin hazırlanmasında yaxından iştirak etməsidir.

1964-cü ildə dövrün psixoloji fikrini sistemli əks etdirən sanballı "Psixologiya" dərsliyi hazırlandı. Onun altı müəllifindən üçü respublikanın qocaman psixoloqları (Ə.Zəkuzadə, F.İ.İbrahimbəyov və M.Məhərrəmov), üçü isə istedadlı gənc psixoloqlar (Ş.Ağayev, Ə.Bayramov və Ə.Əlizadə) idi. Bu dərslik sanki onların gələcək elmi fəaliyyətinə böyük təkan verdi. O dövrdən başlayaraq onlar birlikdə çoxlu sayda dərslik və dərs vəsaitləri yazdılar: "Sosial psixologiyanın

aktual məsələləri", "Psixologiya" və s. Bu dərsliklərin hamısı elmi-nəzəri səviyyəsinə, praktik məzmun yükünə, faktoloji əhəmiyyətinə və sanbalına görə yüksək peşəkarlığı ilə fərqlənir.

Ə.S.Bayramov 1971-1992-ci illərdə BDU-nun pedaqogika və psixologiya kafedrasına, 1992-1997-ci illərdə psixologiya kafedrasına rəhbərlik etmiş, 2017-ci ilə kimi həmin kafedranın professoru vəzifəsində işləmişdir, 1993-1999-cu illərdə psixologiya elmləri üzrə Dissertasiya şurasının sədri olmuşdur. Onun rəhbərliyi ilə 31 fəlsəfə doktoru, elmi məsləhətçiliyi ilə 2 elmlər doktoru dissertasiya müdafiə etmişlər.

Prof.Əkbər Bayramovun çoxşaxəli elmi yaradıcılıq fəaliyyətində təfəkkür problemi, xüsusən də təfəkkürün müstəqillik və tənqidliyinin inkişaf xüsusiyyətləri ilə bağlı araşdırmalar diqqəti cəlb edir. Bu tədqiqatlarla respublikamızda psixologiya elminin inkişafında yeni mərhələ başlanmışdır. O, mühüm bir problemi-ağlın keyfiyyətləri problemini tədqiq etmiş və bununla da *təfəkkür psixologiyasında mahiyyətcə yeni elmi istiqamət müəyyən etmişdir. O, «perseptiv» inikasdan tənqidi təfəkkürün müxtəlif səviyyələrinə keçidin qanunauyğunluqlarını müəyyən etmiş, funksiyalarını, strukturunu və mənşəyini aydınlaşdırmış, təfəkkürün müstəqillik və tənqidliyinin inkişaf xüsusiyyətlərini öyrənmək üçün adekvat tədqiqat metodikası işləyib hazırlamışdır.*

Ə.Bayramov böyük alim olmaqla yanaşı, sözün əsl mənasında, xalqını sevən, onun tərəqqisi üçün daim çalışan, elmimizi daha geniş diapazonda inkişaf etdirmək arzusu ilə yaşayan və yaradan, elmi kadrların hazırlanması və onlara daim əvəzsiz qayğı göstərməyi bacara bilən sadə bir insan idi. Öz bilik və təcrübəsi, peşəkarlıq səviyyəsi ilə fərqlənirdi. Yüksək səviyyəli pedaqoq-alim, tədqiqatçı kimi kollektivin böyük hörmətini qazanmışdı. Yaşadığı şərəfli ömür yolunda gərgin elmi fəaliyyəti, tükənməz həyat eşqi, bacarıqlı təşkilatçılığı ilə çoxlarından fərqlənən professor Əkbər Bayramov şəxsiyyəti zaman keçdikcə fenomenləşir, əlçatmaz zirvələri asanlıqla fəth edir.

Azərbaycanda psixologiya üzrə kadrların hazırlanması onu düşündürən çox saylı problemlərdən biri idi. Məlum olduğu kimi sovetlər dönəmində psixologiya, o cümlədən bir çox ictimai – siyasi ixtisaslar üzrə kadr hazırlığı mərkəzi şəhərlərdə həyata keçirilirdi. Psixologiya üzrə kadrlkara ehtiyacın artdığını görən Əkbər Bayramov ölkəmiz müstəqillik əldə etdikdən sonra, öz həmkarları ilə bir yerdə BDU-da "Sosial elmlər və psixologiya" fakültəsinin açılmasına nail olur. Hətta bir il dekan kimi fəaliyyət göstərərək, fakültənin inzibati-təşkilatı strukturunun formalaşmasmasına kömək etmişdir. Bu gün "Sosial elmlər və psixologiya" fakültəsində altı ixtisas üzrə - "Fəlsəfə", "Psixologiya", "Təhsildə sosial-psixoloji xidmət", "Korreksiyaedici təlim", "Sosiologiya" və "Sosial iş" ixtisasları üzrə hazırlanan kadrlar ölkəmizin bütün regionlarında öz ixtisasları üzrə uğurla fəaliyyət göstərirlər.

Bir pedaqoq-alim kimi qeyd edirəm ki, Azərbaycan xalqı üçün müəllim müqəddəs, toxunulmazdır. Həyatda ən müdrik insanlıq yolu sanballı, etibarlı müəllim əməyindən nəşət tapır. Müəllimlik yalnız hər hansı fənnin tədrisi ilə məhdudlaşdırılmır, xalqın gözündə, o cümlədən şagirdlərin, tələbələrin gözündə əsl müəllim dərin elmi biliyə, saf əxlaqa, geniş dünyagörüşünə və həmkarları arasında dərin hörmət qazanmağa qabil olan şəxsiyyətlər nəzərdə tutulur. Professor Əkbər Bayramov məhz belə şəxsiyyət olmuşdur. Yetirmələri onun müəllim fütühatından halallıq, təvazökarlıq, mərdlik, cəsarətlilik, işgüzarlıq, əməksevərlik, təşəbbüskarlıq, açıqgözlülük, səmimilik, səxavətlilik, həssaslıq, nəzakətlilik kimi nəcib əxlaqi keyfiyyətlər əxz edərək, ona bənzəməyə, onun kimi xeyirxah və ədalətli olmağa çalışırlar.

Zəngin əxlaq və fəzilət sahibi olan professor Əkbər Bayramovu elmi-pedaqoji ictimaiyyət psixologiya elminin nəzəri, metodoloji və təcrübi problemlərinin tədqiqi, tədrisi və təbliğində böyük xidmətləri olan pedaqoq alim kimi yaxşı tanıyır, onun elmi-pedaqoji və ictimai fəaliyyətini yüksək dəyərləndirir.

Ə.S.Bayramovun elm və təhsil sahəsindəki xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. Ona "Əməkdar elm xadimi" fəxri adı verilmiş, o "Şərəf" və "Şöhrət" ordenləri ilə təltif edilmiş, Prezident təqaüdünə layiq görülmüş, BDU-nun "Fəxri professoru" seçilmişdir.

Əkbər Bayramovun elmi irsi, onun tələbələri və həmkarları tərəfindən uğurla davam etdirilir, əziz xatirəsi onu tanıyanlar və Azərbaycan psixoloqları tərəfindən daim dərin hörmətlə yad edilir.

Hikmət Əlizadə,
pedaqoji elmləri doktoru, professor

Yeri görünən insan

Azərbaycan xalqı dünyaya çoxsaylı elm xadimləri bəxş etmişdir. Son bir əsr ərzində Azərbaycanın çox görkəmli, dünya miqyasında tanınan və qəbul edilən alimləri yetişmişdir. Onlardan biri də Azərbaycan elminin cəfakeşlərindən olan, böyük psixologiya alimi, professor Əkbər Salman oğlu Bayramovdur. Bu adın çəkilməsi kifayətdir ki, onu tanıyanların, dostların, həmkarlarının gözü önündə ləyaqətli, dönməz, təvazökar, əməksevər obraz canlansın.

Həyatda elə insanlar var ki, onların adları çəkilən kimi işıqlı əməlləri göz önündə dayanır. Belə insanlardan biri də Əkbər Bayramovdur. İndi haqq dünyasına qovuşmasının bir ili tamam olur.

Ömrünün sonuna kimi elmi araşdırmalarla məşğul oldu. Çox təsadüfi hallarda mətbuata müsahibələr verərdi, ekranda görünərdi. Onun bir amalı vardı - sən sənətinin ləyaqətli təmsilçisi olmağa borclusan.

Yaradıcılığı və elmi fəaliyyəti ilə Azərbaycan psixoloqları üçün nümunə olan Əkbər Bayramov həmişə qarşısına qoyduğu məqsədə nail olub, istər elmi sahə olsun, istərsə də həyatda şəxsi arzuları.

Əkbər müəllim həm də vətənpərvər bir ziyalı idi. 1993-cü ildə Qarabağda baş verən separatçılığa qarşı mübarizə aparanların ön sırasında Əkbər müəllim də var idi. Onun həmin hadisələr zamanı necə fədakarlıqla çalışdığı hamının yadındadır.

Yüksək mənəvi, əxlaqi, intellektual səviyyəyə malik ziyalıların əməlləri, yaradıcılıqları müasirləri, tanışları üçün həmişə örnək olur. Əkbər müəllim də ətrafdakılara örnək ola biləcək belə şərəfli ömür

sahibi idi. Dəyərli alim olmaqla yanaşı, o, həm də öz sözünü deməyi bacaran fəal ziyalılarımızdan idi. Harada olmasından asılı olmayaraq Əkbər müəllim hər zaman azərbaycançılığı, öz vətəndaş mövqeyini yüksək səviyyədə nümayiş etdirirdi.

Əkbər müəllim elmi fəaliyyətlə yanaşı pedaqoji fəaliyyətlə də, yaradıcılıqla da, maarifçiliklə də, ictimai işlə də məşğul idi. Mən onun əsərlərini, elmi-tədqiqat işlərini maraqla oxuyur və onun məşğul olduğu elm sahəsinin nə qədər dəyərli, gərəkli, müasir tələblərə cavab verən bir sahə olduğunu xüsusi olaraq qeyd etmək istəyirəm.

Sanballı monoqrafiyaların, populyar dərsliklərin və maraqlı elmi axtarışların müəllifi olan Əkbər müəllimin elmi yaradıcılığı ölkə ictimaiyyətinə yaxşı tanışdır. Mən onun pedaqoji fəaliyyəti və insani keyfiyyətlərindən danışmaq istəyirəm. Hər bir xalqın inkişafı, onun təhsili və mədəniyyəti ilə six bağlı olduğundan müəllimlik peşəsi müqəddəs sayılır. Ona görə də bu sənəti ömür yolu seçən insanlar hörmətə layiqdirlər.

Çox sevdiyi və bəhrələndiyi Nəsirəddin Tusinin nəzəriyyələrinə görə, elm adamlarında iki növ kamillik olur: elmi və əməli kamillik. Unutmaq olmaz ki, “elm əməlsiz məhv olar, əməl isə elmsiz mümkün deyildir. Deməli, elm səbəb, əməl nəticəsidir”. Və təbii ki, elmi və əməli kamillik bir-birilə vəhdət təşkil edəndə tam bir ziyalı, əsl vətəndaş obrazı formalaşır. Ə.Bayramov məhz elmi və əməli kamilliyi özündə birləşdirən yüksək mənəviyyata malik əsl vətəndaş ziyalılarımızdandır.

İnsan həyatının mənası onun xalqa, Vətənə xidməti ilə ölçülür. Neçə il ömür sürürsənsə sür, əgər tərəqqiyə xidmət edə biləcək bir iş görmüsənsə, deməli yaşadığın ömür hədər getməmişdir. Əkbər Salman oğlunu yaxından-uzaqdan tanıyan, onunla həyatda bircə dəfə təmasda olan bütün insanlar sözün əsl mənasında belə böyük Kişinin yoxluğu ilə barışa bilmirlər.

Əkbər müəllim bir insan, psixioloq, müəllim, alim, kafedra müdiri kimi həmişə, yaşının bütün çağlarında və hər yerdə bir cür görünən adam idi. O, sadəlik, səmimilik, təvazökarlıq timsalı idi.

Rəna Qədirova,
BDU-nun professoru

Əkbər Bayramov: Azərbaycan psixologiyasının korifey – fenomenal şəxsiyyəti... (xatirə-oçerk)

Neçə müddətdir, haqqında söz açmaq istədiyim şəxsiyyət barəsində yazmaq istəyirdim. Beynimdə onun haqqında xoş fikirlər dolaşırdı. Gözəl insan, dəyərli ziyalı, hörmətli pedaqoq, tanınmış alim, mehriban ailə başçısı, qayğıkeş əmi və s. bu fikirlərin içərisində şaxələnirdi. Nədən, necə başlayacağımı götür-qoy edirdim. İstəyirdim onu olduğu kimi, trafaretdən kənar bir şəkildə təsvir edim... Həm ictimai, elmi, həm də dəyərli bir insan kimi fenomenal şəxsiyyəti barəsində mümkün qədər təsəvvür yaradım...

Əkbər Bayramov Azərbaycan maarifinin, humanitar elminin, psixologiya sahəsinin tanınmış elm xadimi, istedadlı pedaqoq, elmlər doktoru, professoru idi... O, kövrək qəlbli müəllim, geniş erudisiyalı alim olmuşdur. O, 60 illik pedaqoji fəaliyyətində minlərlə gəncin təlim-tərbiyəsinin təkmilləşməsinə, ziyalılar nəslinin püxtələşməsinə, xeyirxah bir ömür həsr etmişdir. Onun yetirib ərsəyə çatdırdığı gənclər, mütəxəssislər, hazırda Azərbaycanın mədəni, iqtisadi yüksəlişində hünər, rəşadət göstərməkdədir. O 250-dən çox, elmi, metodik, nəzəri, sosial, psixoloji problemlərə aid məqalə çap etdirib, xeyli elmi monoqrafiyasını, dərsliyini, eksperimental tədqiqatlarını elmi ictimaiyyətin, tələbələrin, oxucuların istifadəsinə təqdim edib...

Əkbər müəllimin elmi-sosial yaradıcılığı davamlı olaraq hələ də bəhrə verməkdədir və şübhəsiz on illər boyu bu missiyanı davam etdirəcəkdir. Onun qələminin məhsulu olan sosial və eksperimental psixologiya sahəsinə, milli psixologiyanın formalaşma və təşəkkülü tarixinə həsr olunmuş əsərləri, məqalələri, tarixi-ədəbi-psixoloji araşdırmaları elm xəzinəmizi zənginləşdirmişdir...

Psixoloiya elminin müxtəlif sahələrinə həsr etdiyi – "Kitabi-Dədə Qorqud» dastanında etnik-psixoloji xüsusiyyətlərin inikası". Bakı, 2000; "**Psixologiya" (Ensiklopediya üçün). Bakı, 2007;** "**Pedaqoji psixologiya", 19.00.07-Pedaqoji psixologiya ixtisası üzrə namizədlik minimumunun proqramı. Bakı, 2005;** "**Azərbaycan Milli Ensiklopediyası: psixologiya elmində işlənilən anlayışların şərhi". Bakı, 2006;** "**Psixologiya haqqında adı həqiqətlər. "Anfas" elmi- kütləvi, ədəbi – bədii jurnal, Bakı, 2008, № 3, s. 16-18-24-26; "Psixologiya". Ali məktəblər üçün dərslik. Bakı, 1989 - 2009;** "**İnsan və cəmiyyət", I hissə, Bakı, Təhsil Nəşriyyatı, 2003;** "**Sosial psixologiya". Bakı, 2003 (dərslik);** "**Hüquq psixologiyası. Dərslik. Bakı, 2009;** "Etnik Psixologiya". Bakı, 1989; "Etnik psixologiya məsələləri". Bakı, 1996; **"**Etnik Psixologiya, Şəxsiyyət". Bakı, 2001 və s. bu qəbildən yazdığı mükəmməl dərslikləri, monoqrafiyaları diqqətəlayiq səviyyədə, yüksək erudik intellektlə yazıldığı üçün bakalavr-psixoloqlar, magistrlər, psixoloq və pedaqoq – aspirantlar, məktəb rəhbərləri, müəllimlər və tərbiyəçilər, praktik psixoloqlar, hüquq sahəsinin əməkdaşları, eləcə də geniş oxucu kütləsi üçün xüsusi qiymət, fayda və maraq kəsb edir...

Elmi yaradıcılığa 1955-ci illərdə başlamış Ə.S.Bayramov həyatının son illərinə qədər 46 monoqrafiya, dərslik, dərs vəsaiti, elmi-kütləvi kitablar və 250-dan artıq elmi-nəzəri məqalə, məruzə və tezisləri nəşr edilmişdir. Eyni zamanda o, psixologiya elminin, təlim-tərbiyənin aktual məsələlrinə dair 270-dən çox qəzet, jurnal məqaləsinin müəllifidir. Psixologiya, pedaqogika, məntiq və s. elmlər üzrə o, 35-dən artıq dərslik, dərs vəsaiti və monoqrafiyanın elmi redaktoru olmuşdur.

Psixologiya elmləri doktoru, professor Əbdül Əlizadə haqlı olaraq yazır: ***"Elmin zirvəsinə yol fədakarlıqdan və istedaddan keçir. Ancaq ağır zəhmətə qatlaşanlar, bütün həyatının mənasını elmə həsr etməkdə görən istedadlı şəxslər bu zirvəyə yüksələ bilərlər. Bu gün həmin zirvədə duranlardan biri ömrünün müdriklik çağını yaşayan görkəmli psixoloq, əməkdar elm xadimi, professor Əkbər Salman oğlu Bayramovdur. Respublikada psixologiya elminin inkişafında, yeni psixoloqlar nəslinin yetişməsində Əkbər müəllimin xidməti əvəzsizdir".***

Haşiyə – həyatından fraqmentlər:

Azərbaycanın görkəmli alimi, psixologiya elmləri doktoru, Azərbaycan Respublikası Əməkdar elm xadimi, professor, həmçinin BDU-nun fəxri professoru Bayramov Əkbər Salman oğlu 30 dekabr 1930-cu ildə Ağdam rayonunun Əlimədədli kəndində (o dövrdə Şıxavənd sovetliyi adlanırdı) ziyalı ailəsində anadan olmuşdur. Atası Bayramov Salman bəy Qurban oğlu öz dövrünün seminariya təhsili görmüş, ərəb, fars, rus, Osmanlı türkcəsini və erməni dillərini mükəmməl bilmiş, Müsavat partiyasının Qarabağ mahalı üzrə idarə heyətinin üzvü kimi nüfuzlu bir şəxsiyyət olmuş, Tərtərbasar adlanan bölgədə Yuxarısı Kəlbəcər, aşağısı Bərdə) Qəza İcraiyyə Komitəsinin sədri (el arasında Dağbəyi adlanan) vəzifəsində çalışmış, Salman bəy olaraq tanınmışdır... Kolanı ellərinin ağsaqqalı olan Salman bəy Sovet hakimiyyətinin ilk on illiyində də məsul vəzifələr icra etsə də, repressiyadan yaxa qurtara bilməmiş, qonşu erməni bəylərinin qarayaxma böhtanları ilə iki dəfə həbs edilib Şuşa qalası və Bakıdakı Bayıl türmələrində yatsa da, azad edilmiş, üçüncü dəfə 1938-ci ildə həbs edilərək, əvvəl Şuşa qala türməsində, sonra Bakıdakı Bayıl türməsinə yatab edilmiş, 1938-ci il, mart ayının 06-da Nargin adasında vəhşicəsinə güllələnmişdir...

Haşiyəyə əlavə:

O dövrdən sağ qalan, hadisənin iştirakçısı olan qocalar (Qaçaq Gəncim baba, Bezavatlı oymağından olan Qələndər oğlu Behbud

baba, Salman babamın milis-yavəri işləmiş Bəşirov Qulu baba və s.) danışırdılar ki, Salman bəyi M.C.Bağırov yaxşı tanıyırdı, hətta Ağdama, Kolanı ellərinə ayağı düşəndə Salman bəyin ağ daşdan tikilmiş ağban otaqlı, geniş eyvanlı evinin əziz qonağı olardı... Qocalar söylərdilər ki, bir dəfə Mir Cəfər Salman bəyin qonağıymış, səhər-səhər geniş eyvanda əyləşib çay içə-içə söhbət edirmişlər, özü də rusca danışırmışlar.. Bu məqamda evin üst tərəfindən keçən el yolundan Salman bəyin sırf Qarabağ cinsindən olan ilxısı gəlib keçir... Mir Cəfər hədsiz dərəcədə at həvəskarı imiş... İlxını görən kimi ayağa qalxır, eynəyinin altından parlayan gözlərinə daha da parlaqlıq gəlir, həvəslə ilxını seyr edir, təriflər yağdırır, ilxının içində oynağa qalxan boz köhlənə xüsusi diqqət yetirir, maşallah deyir... Salman bəy, təşəkkürünü bildirir, üzə vurmadan, kasıbın olanından deyərək gülümsəyir...

Yenidən süfrə arxasında əyləşib söhbətlərini davam etdirirlər. Hər ikisi popiros çəkərmişlər. Stolun üstündə portsiqarlar yanaşı qoyulmuşumuş. Mir Cəfərin gümüş portsiqarı xüsusi olaraq hazırlanıbmış. Salman bəy vaxtaşırı bu gümüş portsiqara nəzər yetirir, alıb əlində fırladıb, baxıb, qaytarıb yerinə qoyarmış...

O vaxtlar Hüsü Hacıyev Ağdam rayonunda nəçənnik (naçalnik) NKVD işləyirmiş. Mir Cəfər başının dəstəsiylə Ağdama qayıdır... Elə kənddən bir az aralaşandan sonra, Salman bəy geriyə qayıdır, buyruqçularına deyir ki, ilxıdakı bu nəmdə, bu nişanda olan boz köhləni kəməndləyib boğsunlar, sakitləşdirsinlər, ingilis yəhəri-yüyəni ilə bir yerdə Ağdama aparıb Hüsü Hacıyevə versinlər ki, bu atı Salman bəy Mir Cəfərə pay göndəribdir. Belə də edirlər... Mir Cəfər bu hadisədən olduqca təsirlənir, Salman bəyin diqqətçilliyindən, mərdliyindən, qonaqpərvərliyindən xoşhal olur və yadına düşür ki, Salman bəy də söhbət boyu onun gümüş portsiqarına nəzər yetirib... Hüsü Hacıyevi çağırır, Gümüş portsiqarı ona verərək tapşırır ki, “Mir Cəfər Bağırovdan Salman bəy Bayramova hədiyyə!” sözlərini portsiqarın iç qapağına yazdırıb, xüsusi bir ehtiramla, özü də içi popirosla (əlbəttə, Mir Cəfərin çəkdiyi) dolu Salman bəyə göndərsin! Belə ki, onların bu dərəcədə

münasibətləri varımış... Salman bəyin başının dəstəsi ilə əvvəlki həbsdən buraxılmasını da, xüsusi şövqlə danışırdılar...

Danışardılar ki, Salman bəyi 1936-cı ilə, Orucluq (Ramazan) ayında 25-nəfər qohum-qardaşı ilə birgə həbs edib, Bakıdakı Bayıl türməsinə yatab etmişdilər. Mir Cəfər bundan xəbər tutur, Bayıl türməsindəki kabinetində xüsusi süfrə hazırladır. Qələndər oğlu Behbud baba dnışardı ki, mən cavan oğlan idim... Hamımız yerdən döşənmiş süfrə arxasında bardaşqurma əyləşmişdik, Salman bəylə Mir Cəfər stolda... Süfrədə şirin şeylər, qalet peçeynələr, xurma, halva, müxtəlif yeməklər var idi... İftar vaxtı deyildi. Türmədə yatan adam, süfrədəki nemətləri heç yuxudada görməmişik, amma əlimizi uzatmırıq... Çay gətirib payladılar, yenə də qımıldanan olmadı... Hamımız oruclu idik... Birdən Mir Cəfər gülümsəyərək dedi: - Hə, ay kolanılar, yadıma düşdü, axı siz orucsunuz. Amma qaydanı bilmirsiniz. Siz dustaqsınız, evlərinizdən uzaqsınız, səfərdə hesab olunursunuz. Ona görə də, sizə bu müddətdə oric saxlamaq düşmür, günaha batmayın. Çayınızı için, çörəyinizi yeyin.. Mən seyidəm, günahdırsa, qoy babalı mənim boynuma olsun... Bu sözdən sonra hamı "Bismillah!" – deyib, əlini süfrəyə uzatdı... Və bizi elə buradanca buraxdılar, yatab maşınlarına mindirib Biləcəridən qatarla Yevlağa yola saldılar... Mir Cəfər belə Mir Cəfər idi... Hətta, Salman bəyə bir dost kimi söyləmişdi ki, Kolanıdan çıx, gəl Bakıya, get Gəncəyə, Tiflisə... Sənə şərait yaradaram işlərsən... Təki, Kolanıdan çıx, bir tərəfdən səni gözü götürməyən paxılların, bir yandan da ermənilər səndən hey danos yazırlar... İki dəfə siyahıda gördüm, üstünə düşdüm... Birdən elə olar ki, heç görmərəm, qolluyaram, bədfənaya gedərsən... Harayına çatan olmaz... Deyir, "Qəza bəd gətirəndə, quymaq diş çıxardar!" Elə də, olur və Salman babam güdaza gedir, ailəsi, uşaqları 1957-cı ilə qədər xalq düşməninin uşaqları təhnizi altında qıvrıla-qıvrıla yaşayır, appelasiyadan sonra qırışıqları açılır... Əkbər müəllimin bəy atası belə kişilərdən olubdur...

Haşiyənin davamı:

Əkbər Bayramov Salman Bayramovun böyük ailəsinin sonbeşik övladıdır. Özündən böyük qardaşları Fərman, Bayram, Kamran, Soltan Bayramovlar da xalq düşməninin övladları kimi basqı altında yaşasalar da, xalqa, millətə xidmətdə olmuş, Qarabağın Kolanı əşirətinin ağsaqqallarından olan babaları Məşədi Qurbanın, ataları Salman bəy Bayramovun ailə ənənlərini qorumuş, ləyaqətlə yaşamışlar... Onu da, qeyd edim ki, Əkbər müəllimin ulu babaları Əlimədəd və Bayram kişilər (neçənçi Əlimədəd, neçənci Bayram – bilinmir) Qərbi Azərbaycanın Vedibasar kolanılarındandır. Abbasqulu bəy Şadlinskinin qohumlarındandırlar... Onlar Vedibasara Şahbuzun Kolanı kəndindən gəlmişimişlər... Ümumiyyətlə, qədimlərdə Kolanı elatı (digər türk elatları kimi) irəli-geri, eldən-elə, yurddan-yurda köçmələr etmişlər... Əkbər əmimin anası, ata-baba Xaçın Kolanısından, Dirivəllər tirəsində olan Qaragöz qöjam da xeyli müddət Vedi Kolanısında yaşamışdı... Salman babam xanım-xatın qojamızı oradan gətirdib evlənmişdi... Bu fakt da göstərir ki, əlaqələr üzülməyibmiş, gediş-gəliş həmişə olubdur...

Yadımdadır, rəhmətlik Fərman Kərimzadənin besteller olan "Qarlı aşırım" ("Axırıncı aşırım") romanından parçalar dərc edilirdi. Hamımız onun fanatına çevrilmişdik. Yazı-pozuma görə xətrimi çox istərdi.. Müəyyən müsamirələrdə onunla görüşəndə mənə "əmiöğlu" – deyə, müraciət edərdi. Mən də, o vədələr gənc idim, çox mətləblərdən xəbərsizidim... İki-üç dəfədən sonra dedim ki, "Ay qağa" – biz hardan əmioğlu olduq? Sən Vedidən, mən də Qarabağdan, Ağdamdan! Gülə-gülə dedi: "Get ağsaqqallardan (Bayram əmimi, Əkbər əmimi nəzərdə tuturdu) soruş, sənə deyərlər. Soruşdum və tor gözümə aydınlıq gəldi...

Şıxavənd kəndinin adı "Şıx" adına görə dəyişdiriləndə kəndin adı Əlimədədli – bizim ulu babamızın adı ilə rəsmiləşdirildi və indi də yeddi Kolanı kəndlərini birləşdirən Əlimədədli sovetliyinin (indi

Əlimədədli kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik) adı Əkbər müəllimin babasının – sülaləsinin adını daşıyır...

Yeri gəlmişkən bir haşiyə də çıxım... Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda qiyabi aspiranturada oxuyur, həmin İnstitutda da işləyirdim... Keçən əsrin 70-ci illərin ortaları idi... İlk dəfə Naxçıvan Muxtar Respublikasına ezamiyyətə getdim... Qrupun rəhbəri, rəhmətlik, çox qüdrətli şair İslam Səfərli idi... Ürəklə, xüsusi qonaqpərvərliklə bizi gəzdirirdi... Batabatın füsunkar gözəlliyi indi də gözlərim önündə cilvələnir... Ordubadı, Şahbuzu kəzdik... Orda arzumu bildirdim ki, mümkünsə Kolanı kəndinə gedək... O dövrün partiya funksionerləri yazıçıya, şairə, alimə xüsusi hörmətlə yanaşardılar, özləri qarşılayar, özləri də yola salardılar... Nə isə, mənim arzumla Kolanı kəndinə getdik, orada İslam Səfərlinin sinədolusu, xüsusi ovqatla şeir-poeziya müsamirəsi oldu... İslam Səfərli məni Kolanı cammatına böyük həvəslə, bir az da təmtəraqla – Kolanı yazıçı Bayram Bayramovun, görkəmli psixoloq-alim Əkbər Bayramovun nəslinin davamçısı kimi təqdim etdi, dedi kii, Sizə Qarabağın Ağdam rayonunda yaşayan kolanıların gənc, istedadlı bir nümayəndəsini qonaq gətirmişəm... Bu Kolanı kəndində də, Əkbər əmimin tələbələsi olmuş müəllimlərlə rastlaşdım... Əkbər müəllimin Kolanı olmasından qürurlanırdılar... Mən orada neçə-neçə Əlimədədlə, Bayramla, Qurbanla qarşılaşdım... Nəsil səcərəsi addan-ada, tarixdən-tarixə ötürülərək yaşayırmış... Bir-neçə saatlığa getmişdik, Kolanı camaatı bizi zor-güc iki gün qonaq saxladılar, ayrılanda da kolanısayağı barımız-barxanamız ayrıca tutulmuşdu...

Haşiyə – davam:

Əkbər müəllimin böyük qardaşları Fərman və Bayram Ağdam Pedaqoji Texnikumunu qurtarıb müəllim işləmiş, Böyük Vətən müharibəsində Fərman, Bayram və Kamran qardaşları iştirak etmiş, Kamran qardaşı Mozdok döyüşlərində itgin düşmüşdü... Müharibədən sonra Fərman Bayramov ali təhsil alaraq Əlimədədli kənd orta məktəbində ömrünün sonuna qədər müəllim, tədris hissə müdiri, orta məktəb di-

rektoru kimi fəaliyyət göstərmiş, sayılan, secilən maarif işçisi olmuş, kəndin ağsaqqalı kimi böyük nüfuz qazanmışdır. Digər qardaşı Bayram Bayramov respublikada və o dövrdəki İttifaq miqyasında tanınmış yazıçı səviyyəsinə yüksəlmiş, Azərbaycan Respublikasının Xalq Yazıçısı, Dövlət Mükafatı laureatı, Ali Sovetin deputatı, ağır illərdə isə Qarabağa Xalq Yardımı Komitəsinin sədri olmuşdur. Soltan Bayramov orta təhsilini gümüş medalla başa vuraraq Azərbaycan Tibb İnstitutunu bitirmiş, Ağdam rayonu Səhiyyə şöbəsinin müdiri vəzifəsinə qədər yüksəlmiş, təkcə Ağdamda deyil, ətraf rayonlarda da bacarıqlı səhiyyə işçisi, loğman-həkim kimi tanınmışdır... Mən isə, tənqidçi-ədəbiyyatşünas Qurban Bayramov Əkbər müəllimin böyük qardaşının ilk övladıyam, səggiz uşağın böyüyk qardaşıyam...

Səkkiz yaşından atadan, doqquz yaşından anadan yetim qalan, malları-mülkləri əllərindən alınan, daşdan tikilən iki mərtəbəli 16 otaqlı, dəmir çardaqlı evləri, damları, ambarları, mal-qara tövlələri, ilxıları, qara mal naxırları, qoyun sürüləri yağmalanan Əkbərgilin öz əl damlarında (yerdən qazma) qalmalarına belə icazə verilmir. Beş qardaş, bir bacı, ana, gəlinlər qonum-qonşunun, qohum-qardaşın, yadların torpaqdan qazma damlarında qalmağa məcbur olurlar. Biriki ilin içində xanım-xatın anası Qaragöz nənəni də itirirlər... Qardaş-bacılar bir-birinə sığınıb məhryumiyyət içində yaşayırlar, gecə-gündüz kolxoz işində tər tökürlər... Yeddillik məktəbdə əla qiymətlərlə oxuyan cılız bədənli şagird Əkbər əmim müxtəlif kolxoz işlərində, hətta el malının naxırçısının köməkçisi də işləyir, başqa sözlə naxırçı da olur ki, evə bir parça ruzi gətirsin, ailəyə pasiban olsun...

Müharibənin ilk illərində və sonra bu böyük ailə Tərtər rayonunun Xoruzlu, Hüsənli, Yevlax rayonunun Malbinəsi, Qoyunbinəsi kəndlərindəki məktəblərdə müəllimlik edən Fərman və Bayram qardaşları ilə birgə, dolanışıq xatirinə kənddən-kəndə, eldən-elə düşmüşlər... Lakin bu cür çətinliklər, mərhumiyyətlər onların qollarını bağlaya, arzularından döndərə bilməmişdir...

Davam – təhsil və elm yollarında:

Əkbər Bayramov da, digər ailə üzvləri kimi ləyaqətli bir nəslin övladı kimi yaşamış, ömrünün sonuna qədər ləyaqətli ömür sürmüş, fenomen alim nüfuzu sahibi olmuşdur... O, Əlimədətli kənd 7-illik məktəbini (1945), Ağdam Pedaqoji Texnikumunu (1945-1949) və Bakı Dövlət Universitetinin filologiya fakültəsinin məntiq-psixologiya şöbəsini (1949-1954) əla qiymətlərlə bitirmiş, Universitetin Böyük Elmi Şurasının qərarı ilə psixologiya ixtisası üzrə aspiranturaya tövsiyə edilmiş və Azərbaycan Pedaqoji İnstitutunda psixologiya ixtisası üzrə aspiranturada təhsil almışdır (1954-1957). Ə.S. Bayramov APİ-də aspirantura şöbəsinin müdiri (1957-1958), elmi işlər üzrə prorektorun köməkçisi işləmişdir (1958-1960). 1959-cu ildə «Təfəkkürün müstəqillik və tənqidiliyinə görə III - IV sinif şagirdlərinin fərdi xüsusiyyətləri» mövzusunda namizədlik və 1969-cu ildə «Kiçik məktəb yaşlı şagirdlərdə təfəkkürün müstəqillik və tənqidiliyinin inkişaf dinamikası» mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1960-1970-ci illərdə APİ-nin psixologiya kafedrasında baş müəllim, dosent, professor vəzifələrində işləmişdir.

Haşiyə:

Əkbər əmimin 1959-cu ildə namizədlik müdafiəsı yadımdadır. O dövrlərdə Respublikada namizədlik müdafiəsi əlahiddə bir hadisə sayılırdı, “Kommunist” qəzetində elan verilirdi... O ki, qaldı Əkbər Bayramovun müdafiəsi... Əkbər Bayramov Qarabağdan ilk psixoloq, Qarabağın Kolanı mahalından ilk alim idi ki, rəsmi müdafiə edirdi... Bizim camaatın, eləcə də Ağdamın sayılan-seçilən ziyalıları, ağsaqqalları – iki avtobus adam xüsusi təm-təraqla, pay-boxça ilə, mən də onların arasında, Bakıya yola düşmüşdülər... Mən onda yeddinci sinifdə oxuyurdum və bəlkə də bu hörmət və ehtişamın təsiri ilə alim, yazı-pozu adamı olmaq həvəsinə o vaxtlardan düşmüşəm...

Əkbər müəllimin doktorluq işinin müdafiəsi də yadımdadır. Onda mən aspiranturada oxuyurdum... Bu müdafiə də eyni ehtişamla keçdi... Böyük banket verildi. Əkbər müəllimin tanınmış alim-peda-

qoq dostları ilə bahəm məşhur yazıçı qardaşı Bayram Bayramovun da yazıçı-şair dostları həmin məclisdə iştirak edirdilər... Xalq yazıçılarından Süleyman Rəhimov, Əli Vəliyev, İlyas Əfəndiyev, Xalq şairi Məmməd Rahim, şairlərdən Hüseyn Hüseynzadə, Qasım Qasımzadə, tənqidçi-ədəbiyyatşünas Qulu Xəlilov yadımdadır. Yadıma düşən məşhur alimlərdən Ziyəddin Göyüşovu, Cəmil Quliyevi, Mehdi Əliyevi, Əhməd Zəkuzadəni, Mirabbas Qasımovu, Məmmədəli Məhərrəmovu, Əhməd Seyidovu, Şövqü Ağayevi, Əbdül Əlizadəni, Muxtar Həmizəyevi xatırlayıram... Səhv etmirəmsə Fuad İbrahimbəyov da, Mehdi Mehdizadə də hörmətli qonaqlar cərgəsində idilər...

Məmməd Rahim masabəyi idi... Məclis böyük təm-təraqla, şövqlə keçirdi... Bütün bu görkəmli şəxsiyyətlər, alimlər, elm xadimləri, tanınmış yazıçı və şairlər Əkbər müəllimin elmini, zəkasını, fərdiyyətini – şəxsiyyətini yüksək qiymətləndirirdilər...

İndi ki, söhbət 60-cı illərdən düşdü, Əkbər müəllimin həyatı ilə bağlı daha bir haşiyə çıxım...

Daha bir haşiyə:

Əkbər əmimin nişan-toy mərasimləri də, ulu şairimiz Məmmədhüseyn Şəhriyar baba demiş, sinema kimi gözümün qabağındadı; 1959-60-cı illər idi. Əkbər əmimin toyu, Ağdamda, Xaçın çayı boyu yerləşən Kolanı ellərində əsil hadisəyə çevrilmişdi... Atam, böyük qardaşları Fərman müəllimin evi o qardaşların ata ocağı hesabında idi... Bütün mərasim də bu ocaqda, bu kənddə olmalı idi!! Əkbər əmim evin sonbeşiyi olsa da, indi onun kiçik qardaşına çevrilmişdim. Orta məktəbin son siniflərində oxuyurdum, bu qardaşların böyük övladları mən idim. Hara gəldi məni buyururdular...

Evlənən çağlarında Əkbər əmim məşhur adam olmuşdu. Elmilər namizədi idi. İnstitutda dərs deyirdi... Elə oradaca, əslən Yuxarı Qarabağdan olan (Qubadlı-Şuşa), amma Yevlaxda yaşayan tələbəsi, bəy nəsilli-bəy əcdadlı, gözəl-göycək Vəsilə xanıma vurulmuşdu... Bir-birilərini bəyənmişdilər... Ağdamdan Yevlağa elçi kotejləri başlamışdı... Bir el məsəli var, deyəllər: “Bayramalısız toy olmaz!”,

mənsiz də, səfər, məclis olardı... Kəndimizdən 70-80 k.m məsafədə olan Yevlağı su yolu eləmişdim... Yadımdadı, toypayı deyilən barxananı da, Yevlağa, rəhmətlik Hümmət əmimlə birgə (atamın əmisi oğlu) yük maşınının üstündə mən aparmışdım. Orda, adət üzrə mənə xələt verməliykən yadlarından çıxıb, verməmişdilər... Mən də, küsmüşdüm, asıb-kəsirdim... Əkbər əmim kənddə məni bir tərəfə çəkib, sakitləşməmi istədi, dedi ki, əvəzində sənə kostuyum alacağam... Yazıq kişiylə dünyasını dəyişənə qədər, zarafat edərdim ki, bəs mənim kostuyumum harda qaldı?..

Haşiyənin davamı:

Bayaq dediyim kimi, repressiyaya uğramış Salman bəyin oğlu apellyasiyadan sonra, qırışıqları açılmış qardaşların sonbeşiyi, tanınmış alim, pedaqoq Əkbər müəllimin toyu olurdu... Qapıda – həyətdə iki-üç mağar qurulmuşdu... İkisi qadın-kişi yemək-içmək mağarı, ən böyüyü isə toy-mərəkə mağarı... Elin ağsaqqalları, ahılları üçün ayrıca ziyafət mağarı da öz qaydasında... Onların yanında araq-çaxır içilməzdi...

O vaxtlar indiki çadırlar yox idi... Mağarlar qədimi, türk qaydasında ağ-qara kecə örtüklə qurulmuş, kənarları xalı-xalça ilə bəzədilmişdi... Ortada oynamaq, rəqs etmək üçün geniş meydan... Başda toyu idarə edən şah, vəzir-vəkil, fərraş məqamları... Məktəbdən, kəndin klubundan gətirilən stol-stullar, skamyalar... Öndə kişilər üçün, bir az ara məsafəsi qadınlar uşun düzülmüşdü. Qarabağın- Ağdamın say-seçmə müğənniləri, Abdal-Gülablı aşıqları – zurna-nağara dəsti də ayrıca... Toy səhərdən kecə yarısına qədər üç gün, üç gecə çəkdi...

El axışıb gəldi... Kolanı atlılarının, süvarilərinin minikləri üçün yaxınlıqda olan sovxozun həyətində böyük axurlar qurulmuşdu. Axurkeşlər də, qohum-qonşulardan xidmətdə idi... Bizim kənd bəlkə də, o vaxta qədər, bir belə minik maşını görməmişdi... Şəhər həyətlərindəki indiki maşın sıxlığını göz önünə gətirin... Bu toyun bütün əlayaq, xidmət işlərində həmişəki kimi bütün el iştirak edirdi. Heyvanları kəsən, soyan, doğrayan, bişirən, paylayan – hamısı elimizin-obamızın adamları idi...

Bakıdan da xeyli qonaqlar var idi.. Gəldilər, bir-iki saat iştirak etdilər, getdilər... Belə deyildi... Üş gün, üç gecə onlar qalmalı idi... Qonaqlar çox idi... Salam Qədirzadə, Nurəddin Babayev, Hüseyn Arif, İslam Səfərli, Qulu Xəlilov, Qasım Qasımzadə – yadımda qalan bunlar idi. Onlar toyda çox şux iştirak edir, maraqlı söhbətləri, tostları, şeirləri ilə məclisə bəzək vurur, məxsusi ovqat yaradırdılar, camaata qaynayıb-qovuşub rəqs edir, səxavətlə nəmər paylayırdılar...

Bakılı qonaqlar üçün gözə dəyən qonum-qonşu evlərində xüsusi qonaq otaqları hazırlanmışdı. Hərəsinin xidmətində də, bir cavan... Bizim qonaq otağımız toxunulmaz idi – bəy otağ kimi bəzədilmişdi, heş kimin girməyə ixtiyarı yox idi...

Toydan bir çox maraqlı epizod söyləyə bilərəm, lakin ikisi daha maraqlıdır, el obanın xarakterinə, kolanıların etnoqrafik həyat tərzlərinə uyğundur...

O vaxtlar Kolanı toylarında qəribə bir adət var idi... Gecənin bir çağında, adətən toyun şıdırğı vaxtında bığıburma Kolanı igidləri dəstə bağlayıb, halay çəkib, aşığa pul tökub, qara zurnanın, çomaq-nağaranın gumburunda "Kəsmə" deyilən havaya oynayardılar, rəqs edərdilər. Bu havanı bilənlər-bilir, qəribə bir ritmi var və müəyyən registirlərdə, ritm qəfildən kəsilir, elə rəqsin adı da buradandır. Ritm kəsilən məqamda, həmin Kolanı igidləri, qəfildən bellərindən naqan deyilən tapançalarını çəkib, eynən ritmin davamı kimi, göyə üç dəfə atəş açardılar... Mağarın damına salınan qalın keçələr deşik-deşik olardı... Rəhmətlik Salam Qədirzadə bu hadisədən bərk qorxmuşdu, dirənmişdi ki, Bayram, məni yola sal gedirəm... Nəyisə, bir təhər dilə tutmuşdular... Atam da o igidləri hədələmişdi ki, qonaq-qara var, daha belə etməyin... Toyun ikinci gecəsi, uşaqlar özlərini yığışdırmışdı, amma Salam Qədirzadə, əmimdən soruşmuşdu ki, qədeş, bəs nə oldu? Daha o rəqs olmayacaq?! Amma, toyun sonuncu gecəsi, bəy tərifində bu atışma-rəqs səhnəsi mütləq olmalı idi və oldu da! Hələ Salam müəllim də, bu cavanlara qoşuldu da...

Bir də Yevlaxdan gəlin gətirəndə, yolda baş verən bir hadisə də, adət-ənənəyə görə maraqlıdır. O vaxtlar "Volqa" maşınlarının ən dəb çağları idi, özü də tək-tük adamlarda olardı... Yevlax qohumlarımızın birində, o mahalda xüsusi hörmət sahibi olan Xosrov Yusifovda belə bir, yağ içində "Volqa" maşını var idi, gəlin də, bu maşında gətirilirdi...

Təsəvvür edin, Yevlaxdan Ağdama, oradan da 37 k.m məsafədəki Əlimədədli kəndinə gəlin gətirilir... Bəlkə də 50-60 maşın ardardıya düzülüb, kortej yaradılıb, çal-çağır – qarmon, qara zurna, nağara dəsti də, yük maşınını üstündə məqamlaşıb... Dappa-durub, tappa-tarap, haray-həşirlə gəlin gətirirlər... Heç bir qadağa-filan burada yerimir... Yollarda da, tez-tez uşaqlar maşının qabağın kəsir, nəmər istəyirlər. Bunu da öz qaydasında qəpik-quruşla, manat-munatla yola verirlər...

Məxləs, kortej Ağdamın Qiyaslı kəndindən sonra gələn Şah bulağını ötüb, Beşik dağının Xaçın çayına yenən burnundakı körpüdən keçib, Kəngərli kəndinin dolayısından dönərək Kolanıya – Əlimədədliyə tərəf yol aldı... Buralarda da, nəmər istəyən uşaqları yola verdilər... Kəndə 2-3 k.m məsafədə dar bir dərə keçidi var, qədimdən bura Haramı keçidi deyərlərmiş. Çox qalın meşəlik, şah-şəvəllik, özü də el yolunun üstündə Dardanel boğazı kimi, bir yer olduğundan keçmişlərdə bu məkanda qaçaq-quldur pusquda durub soyğunçuluq edərmişlər. Buna görə də, el arasında buraya Haramı dərəsi deyərmişlər. İndi isə buraya bir maşın keçə bilən dar bir körpü salmlşdılar və bu körpüyə də Haramı körpüsü deyərdilər...

Bu körpüyə çatanda maşınlar burun-buruna dayandılar... Atışma, güllə səsləri eşidildi... Bir bölük Kolanı cəngaveri qonaqlara özlərini göstərmək üçün yapıncıda, saçaqlı papaqda, əllərində naqan, beşatılan tüfəng körpünü kəsib Fərman müəllimdən nəmər istəyirlər, özü də az-maz, müəllim puluna yiyə durmurlar... Fərman müəllim kimi qəzəbnak kişidən də çəkinmirlər. Nə isə, bu kortejdə o vaxtalar Dövlət Təhlükəsizlik orqanlarında işləyən, yüksək çinli – rütbəli, özü

də yaxın qohumumuz olan, boylu-buxunlu, qıvrım, sarışın telli, iri ala gözləri olan çox yaraşıqlı, lay divar Məhəbbət Həsənov əynində də, rəsmi geyimlə maşından düşür, məsələni ciddiyə alaraq əlində silah bu "yol kəsən" dəstənin üstünə yeriyir... Kolanı cəngavərləri bir qılıqla Məhəbbət müəllimə yaxınlaşıb onu tərksilah edirlər... Məsələnin ciddiləşdiyini, kritik məqama gəldiyini görən Fərman müəllim hayqırarq cavanlara təpinir, məsələnin adət və zarafat olduğunu bildirərək, deyir ki, Allah sizə insaf versin, gəlin həyətə, sizə bir toğlu verim, aparın Sarıbulağın üstündə məclis qurun... Həmin dəstə atın üstündə, irəliyə-geriyə çaparaq, havaya atəş aça-aça gəlini düz toy mağarına qədər müşaiyyət edirlər...

Davam:

Əkbər müəllim 1965-1969-cu illərdə əvəzçilik üzrə Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutunda baş elmi işçi işləmiş və həmin illərdə İnstitutun psixologiya laboratoriyasının digər əməkdaşları ilə birlikdə təlimdə şagirdlərin fəallaşdırılması və onlarda idrak proseslərinin inkişaf etdirilməsinin psixoloji problemləri ilə bağlı tədqiqat işləri aparmışdır. Ə.S.Bayramov, eyni zamanda, tədqiqat işlərinə kömək məqsədilə, əvəzçilik üzrə (1965-1983) orada işləmişdir.

Yeni bir *haşiyə:*

Əkbər Bayramov uzun illər, yenə də əvəzçilik üzrə, Yerevan Pedaqoji İnstitutunun Azərbaycan bölməsində peddaqoqika-psixologiya fənnlərindən dərs demiş, mühazirələr oxumuşdur. Həmin İnstitutun daimi müəllimləri, Azırbaycan bölməsinin rəhbərləri olmuş doktor-professor Knyaz Mirzəyev, yazıçı-şair Hidayət Orucov, doktor-professor Hüseyn İsmayılov danışardılar ki, Əkbər müəllimin İrəvana gəlib dərs deməsi, mühazirələr oxuması o dövrdə bizim üçün çox böyük hadisə, çox böyük kömək, güc və qüvvət idi... Ermənilər bu bölməni müxtəlif bəhanələrlə, xüsusən, kadr çatışmamazlığı ilə şantaj edib bağlamaq istəyirdilər. Əkbər müəllimin kənarda dərs deməyə elə bir ehtiyacı yox idi... Əkbər müəllim kimi Zaqafqaziyada nüfuz qazanmış böyük bir alimin məişətin, yolun, səhhətin əziyyətinə

qatlaşaraq 18 il mütamadi bu bölmədə pedaqoqika və psixologiyadan dərs deməsi həm onun vətəndaşlıq qeyrətindən, vətənpərvərlik əzmindən, həm də həmvətənləri qarşısında alimlik və kişilik borcundan irəli gəlirdi...

Davam:

Əkbər Bayramov 1970-1971-ci illərdə APİ-də psixologiya kafedrasında professor, 1971-1992-ci illərdə Azərbaycan Dövlət Universitetinində pedaqogika və psixologiya kafedrasının müdiri, 1992-ci ildə kafedralar ayrıldıqdan sonra Bakı Dövlət Universitetində psixologiya kafedrasının müdiri, 1999-cu ildən həmin kafedrada professor vəzifəsində işləmişdir.

Haşiyə:

Mən Əkbər müəllimin işlədiyi V.İ.Lenin adına Pedaqoji İnstitutda (indi Nəsrəddin Tusi adına Dövlət Pedaqoji Universiteti adlanır) tarix-filologiya fakültəsinin filologiya bölməsində təhsil alırdım. Cəfər İbrahimov fakültənin dekanı idi. Feyzulla Qasımzadə, Əzəl Dəmirçizadə, İsmayıl Şıxlı, Məmmədsəlim Tahirzadə (M.Ə.Sabirin oğlu), Mehdixan Vəkilov, Kamal Qəhrəmanov, Əhəd Hüseynov, Zeynal Tağızadə, Paşa Əfəndiyev, Əbdül Əlizadə, Azər Hüseynov, Sədi Əfəndiyev, Xeyrulla Məmmədov, Həsən Mirzəyev kimi müəllimlərimi olubdur...

Əkbər müəllim bizə dərs demirdi. Amma tələbə dostlarımdan eşitmişdim ki, olduqca maraqlı mühazirələr söyləyir və digər fakültələrdə oxuyan tələbələr Əkbər müəllimdən xüsusi icazə alıb onun mühazirələrini dinləyirdilər... Əmim olduğundan və zəhmi məni basdığından bu mühazirələrdə iştirak etməyə cürət etmirdim. Axır ki, buzu sındırdım, fikirləşdim ki, əşşı bir belə tələbənin içində məni hardan görəcək və lap arxa cərgələrdə yer tutb onun mühazirələrini dinləyirdim... Qururlanırdım... Evdə qaradinməz, bir kəlməni kəlbətinnən dilindən qoparmaq mümkün olmayan, az qala səsinə yadırğadığımız Əkbər əmim aiditoriyada bülbülə dönürdü, xoş simasına içıq gələrdi, mənalı və ironik atmacaları, müdrik kəlamları tələbələri sehirləyirdi... Yaxşı

xatırlayıram, gözümün önündə olduqca populyar, çox şirin, düzgün, rəvan, savadlı, elmi-ədəbi nitq mədəniyyətinə malik olan üzü nurlu, seçilən-sayılan, zabitəli müəllim-pedaqoq şəxsiyyəti canlanırdı...

Sonra evdə mənə bircə kəlmə dedi ki, çalış həmişə öndə ol, arxada olmaqdan bir şey çıxmaz! Bildim ki, məni görüb və sonralar onun dərs cədvəlini köçürdüm, imkan olduqca iştirak etdim... Və onun bu müdrik kəlamı həyat devizimə çevrildi...

Mən şəxsən onu özümə daim müəllim, yolgöstərən, ədəb-ərkan öyrədən hesab edirdim. Sözü bütöv, əxlaqi təmiz, gözütox, halal-hümmət adam idi. Söz verməyi xoşlamazdı, əgər "baxarıq" deməydi, deməli, hər şey həll olunacaqdı... Yüksək ziyalıya hər nə lazım idisə onda var idi... Geyimi, səliqəsi, ciddi rəftarı, ədəb-ərkanı əsl nümunə idi... Bütün varlığı, insanlığı, biliyi ilə klassik pedaqoqlara xas müəllim-pedaqoq idi... Həmişə öyrənərdi, oxuyardı, bütün boş vaxtını mütailəyə həsr edərdi, qeydlər götürərdi... Rus, ingilis, fars dillərini bilirdi... Yadımdadı ki, şərqşünaslıqda oxuyan baldlzı Qətibə ilə birgə fars dilini öyrəndi və bütün proqramı mənimsədi... Azərbaycan folklorunu, klassik ədəbiyyatı, dünya ədəbiyytını və mədəniyyətini, deyərdim ki, kamil bilirdi. Gözəl, kamil yaradıcılıq vərdişinə malik idi və bir dəfə də olsun bu vərdişini pozmadı, gününü, saatını fövtə vermədi, boş ziyafətlərdən uzaq durdu, vaxtın qədrini bildi...

Əkbər müəllim böyük yaradıcılıq enerjisinə, bacarıq və biliyə, qabaqcıl, mütərəqqi dünyagörüşə malik, deyərdim ki, ürəkləri oxuyan, gələcəyi görən alim-psixoloq idi... Olduqca zövqlü, fəhmikar, diqqətcil, həssas idi... Dostları, həmyaşları, həmkarları ilə şirin, əndazəli yumoru, incə zarafatı olardı... Özü də bu zarafatlar, yumor və eyhamlar haradasa həqiqətə, dürüstlüyə, ağıl, elm və müdrikliyə xidmət tonunda, ibrətamiz olardı...

Yada salım ki, cavanlara, gənclərə xüsusi hüsn-təvöccöhü vardı. Qardaşı uşaqlarını, haqqı-sayı keçən yaxın qohumları onu gec-gec görəndə, heç olmasa ara-sıra hal-əhval tutmayanda müdrik ağsaqqal

umacağı ilə, xeyirdə-şərdə görəndə, xüsusi ironiya ilə deyərdi: "Məni bu oğlanla tanış edin, deyəsən, məni tanımadı?"

Bütün bu mənəvi-əxlaqi, mötəbər və müdrik keyfiyyətlərə malik Əkbər müəllim özünü daima, ömrünün sonuna qədər Azərbaycan psixologiya elminin inkişafına həsr elədi, bu elmin problemləri ilə nəfəs aldı, həyatını bu elmdən kənar, aralı bircə an da təsəvvür etmədi və bununla da ali təbiətli bu alim-pedaqoq möhtərəm-mötəbər bir məqama yüksəldi...

İndiki söhbət tələbəlik illərindən düşdü, bir maraqlı haşiyə də çıxım.

Haşiyə – noxud əhvalatı:

Tələbəlik çağlarımın ilk illərində Əkbər əmimgildə yaşamışam. Həyat yoldaşı Vəsilə xanım ləziz yeməklər bişirərdi, daha doğrusu mətbəxkeş müəllimə idi... Əziyyətimizi çox çəkibdir. Yasamalda, Şərifzadə küçəsində dördüncü mərtəbədə 3 otaqlı mənzildə yaşayırdılar. O vaxtalar məşhur olan "Lalə" kafesi adlanan məkanın yaxınlığında. "Sovet kəndi" qəzetinin baş redaktoru, görkəmli jurnalist, pedaqoq Nəriman Zeynalovla blok-balkon qonşusu idilər. Həmin blokun 3-cü mərtəbəsində isə məşhur xanəndəmiz Yaqub Məmmədov yaşayırdı. Mehriban qonşulardılar... Onların balkonunun altını kəsdirərdik ki, nə vaxt oxuyacaqdır... Nadir hallarda evdə oxuyardı... Evdə orta məkdəbdə oxuyan qarayanız yetgin qızları vardı. Qonşular da şübhələnərdi ki, biz tələbələr o qızlara görə balkonun altını, blokun qənşərini marıtdamışıq... Amma belə deyildi...

Əkbər müəllimə, sadəcə "Əmi" deyə müraciət edərdik, ad-zad çəkməzidik... Bakının qorabişirən, isti yay günlərindən biri idi. Yadımda deyil, nədənsə ailə evdə yox idi. Əmimlə ikimiz idik... Həmin gün Əbdül müəllim (əmimin qardaş qədər bildiyi yaxın dostu, həmkarı, məşhur psixoloq, professor Əbdül Əlizadə) də bizdə idi... Nə isə yazı-pozü üzərində işləyirdilər. O vaxtlar kondiseoner nə gəzirdi... Qapı pəncərəni açsalar da çölün xəfəsi can yandırırdı... Bunlara çay ver, su ver – canımı boğaza yığmışdılar... Soyuducu da yetirmirdi...

Hərəsinin əlində bir məhrəba sel-suya dönən tərlərini silə-silə qələm yerə qoymadan işləyirdilər...

Nə isə günortaya qalmış, əmim dedi ki, Qurban, hazır yeməyi qızdır, salat-filan doğra, yaxşı bir süfrə hazırlığı gör, həm də, qazana bi az noxud tök qaynat, sonra da, düş aşağıdan bir balon pivə al gətir... Təəccübləndim! Təccübləndim ki, bunların heç birisi içgiyə meyilli deyillər, olsa-olsa məclisdə-filanda kisik bir rumkanı axıracan hərləyərlər-hərləməzlər... Bu pivə içmək, özü də bir balon, haradan çıxdı? Nəyisə, məndə eləmə tənbəllik, evdə olan bəlkə də, bir kilo noxudu tökdüm qazana, suyu əndərdim üstünə, qaza xod verdim... Elə ki, qazan qaynara gəldi, yadıma düşdü ki, pivə ilə yeyilən noxud duzlu olar, bəs qazana duz atmamışam. Götürdüm bir-neçə ovuc duzu əndərdim qazana, yaxşıca qarışdırıb, kəsdirdim böyrünü... Bir qazan su qaynayıb qurudu, noxud bişmədi, daş kimidi... İkinci dəfə qaynar su ilə qazanı yenə doldurdum qoydum qaynamağa... Düşdüm aşağa balon pivə də aldım gətirdim, süfrəni səliqə ilə hazırladım, yenə də noxud hazır olmadı, bişmədi ki, bişmədi, daş kimi olub bərkiyir, üzə dirənirdi...

Nə isə, bunlar süfrə arxasına əyləşdilər, mən də əl-əl üstündə xidmətlərində... Bakallara pivə töküb verirəm, noxud üçüncü dövrə qaynayıb-suyun qurudur, noxud bişmir... Nə isə noxuddan bir az ortaya qoydum, gördülər daş kimidi... Əmim soruşdu: – Ə, bu niyə belədir? Sakitcə çiynimi çəkdim... Əbdül müəllim əslən, dədə-baba Şuşalı olsalarda (Malıbəyli kəndindən) şəhər adamı idi, körpəlikdən Dağlı məhəlləsində böyümüşdü... Pivə-noxud nədi, bilirdi... Soruşdu ki, Qurban, noxudu bişirəndə qazana duz tökmüsən? Ürəklə dedim: - Hə, özü də bir-neçə ovuc, yaxşıca da qarışdımışam... Şaqqanaq çəkib güldü və əlavə etdi ki, deyirəm axı, səhərdən bəri bu noxud niyə daşa dönüb...

Sən demə, noxudu bişirəndən sonra duzlayarmışlar, paxlalı bitgiləri bişirəndə əvvəlcədən duz tökməzmişlər... Sonralar, rəhmətlik Əbdül müəllim, hər vaxt məni görəndə, görüşəndə, gülümsəyərək, zarafatla soruşardı: - Noxudla aran necədir?..

Daha bir haşiyə – hamı pedaqoq:

Əkbər müəllmin bir ziyalı keyfiyyətini də xatırlamadan ötmək istəmirəm. Əkbər müəllim Kolanı camaatının maariflənməsi işində qədirsiz-qiymətsiz işlər görüb, maarifçilik uğrunda konkret, əməli fəaliyyət göstəribdir. Əkbər müəllim istər V.İ.Lenin adına Dövlət Pedaqoji İnstitutunda, istərsə də Bakı Dövlət Universitetində işləyərkən istedadlı həmyerlilərinə, qohum-qardaş uşaqlarına təmənnasız yardım edib, böyük bir müəllimlər ordusunun yaranmasına xidmət göstəribdir. İndi onun təkcə Respublikanın orta məktəblərində, təhsil ocaqlarında deyil, həmçinin, Kolanı ellərinin hər evində, hər ocağında yetişdirdiyi, maarif işinə xidmət edən yüzlərlə tələbəsi var. Onun boynuna son 60 ildə Azərbaycanda maarif və mədəniyyətinin tərəqqisi işinə xidməti, hətta bu işin özülünü qoyması, camaata hərtərəfli kömək etməsi, yiyə çıxması, arxasında durması, istiqamətləndirməsi, büdrəyəndə qolundan tutması təkzibedilməz faktlardandır...

Əkbər müəllim xalqının, camaatının, simsarlarının elmilənməsinə, inkişafına, yüksəlişinə, cibi diplomlu olmasına, maariflənməsinə, bununla da, yerlərə ziya işığı aparmalarına səbəb olub. Maarifçilik və müəllim yetişdirmək işi bütün işlərin başıdır, münəvvərlikdir, bəxtiyarlıqdır, ən böyük vətənpərvərlikdir... Qədrşünaslar bu gün də, bu əhəmiyyətli işin əhəmiyyətini bilirlər, həmişə xoş məramla Əkbər müəllimin adını çəkir, ehtiramını saxlayır, onun bu siferadakı halal, təmənnasız, nəcib zəhmətini, işini xoşluqla xatırlayırlar...

Daha bir haşiyə – müqəddəs relikviya:

Bu məqamda əzəmətli yazıçı əmim Bayram Bayramovun müəllimlərinə ehtiramla həsr etdiyi "Qəlbimizdə yaşayan insanlar" (1985) xatirə-məqaləsindən bir hissəni təqdim edirəm: "...Bütün xalqımız arasında olduğu kimi, bizim ailəmizdə də, müəllimin hörməti əbədidir, deyərdim ki, getdikcə, zaman uzaqlaşdıqca bu baqi-hörmətin məsafəsi yaxınlaşır, daha böyük məna kəsb edir. Böyük qardaşımız Fərman müəllim 45 ildən ziyadə pedaqoji staja malik olsa da, orta məktəbə başçılıq eləsə də, bizə vaxtilə dərs demiş müəllimin hü-

zurunda ibtidai məktəb şagirdi kimi fağırlaşır, ən yüksək ehtiramı ona göstərir. Elmlər doktoru, professor qardaşım Əkbər, müəllimləri ilə görüşəndə, onların adı gələndə uşaqlaşıb, sadələşib özünü itirən çağı da olur. Həkim qardaşım, böyük bir rayonun baş loğmanı-həkimi Soltan da belə. Bu gün biz həyatda azdan-çoxdan nəyə nail olmuşuqsa, hamıdan əvvəl, müəllimlərimizin təlim-tərbiyyəsinə, qayğısına və zəhmətinə borcluyuq."

Beləliklə, müəllimlik peşəsi bizim ailənin, nəslin ən müqəddəs relikviyası olubdur... İndinin özündə bizim nəslin oğlanlı-qızlı, gəlinli, cocuqlu 30-dan çox üzvü bu şərəfli peşənin daşıyıcılarıdır və bunların hamısının üstündə Əkbər müəllimin bir pedaqoq kimi haqqısayı, əməyi vardır...

Həmçinin, Əkbər müəllim dostluqda möhkəm, əvəzsiz, dosta sadiq bir adam idi.

Daha bir haşiyə – yaylaq əhvalatı:

Bayram Bayramovun, Əkbər Bayramovun ailəsi hər yay mövsümündə kəndə gələr, burada barxana tutub istirahət üçün göy yaylaqlara qalxardılar. Ya Şuşaya, ya Kəlbəcərin Ağcakənd Turşsuyuna, ya da Kəlbəcər yaylaqlarından Gəlin Qayasına, Ceyran bulağı yaylağında binələnirdilər. Şuşada, adətən ev kiraləyib qalardılar, o biri yaylaqlarda isə dədə-baba qaydasında dəyələr – çadır evlər qurulardı... Mən də bir kənd uşağı kimi mütləq onlarla birgə gedərdim... Həm məni çox istədiklərindən özləri ilə aparardılar, həm də şəhərli əmimuşaqlarıma görə mən yaylaqda əl-ayaq işlərində daha çox lazım olurdum. Mən Əkbər əmimgilin tayına düşürdüm. Onların ailələri kiçik idi. Elə sonralar, Bakıda ali təhsil illərində də xeyli müddət onlarda qaldım... Bu yaylaqlara aran Qarabağın - Arazqırağı İmişlidən tumuş, Beyləqan, Ağcabədi, bu yanı Yevlax, Bərdə, Ağdam, Tərtər (Mirbəşir) camaatı köç edərdi, bir-iki ay göy yaylaqların ləzzətini çıxarardılar...

O vaxtlar "Tir" adlanan tüfənglər dəbdə idi. Məktəblərdə hərbi dərslərdə istifadə edildiyindən, imkanı-əlaqəsi olanlar yaylaqlara çı-

xanda özləri ilə ov tüfəngləri ilə yanaşı "Tir" də aparardılar. Axşam sağlarında dəstə bağlayıb əldən-ayaqdan kənarda nişangah düzəldib yarışardılar... Biz uşaqlar əlimizə keçən konserv qutularından, butulkalardan, çicək saplaqlarından, qarğı çöplərindən böyüklərin dediyi məsafədə nişangah qurardıq, onlar da "Tir"dən atəş açardılar. Əkbər əmim çox sərrast atardı, necə deyərlər, quşu gözündən vurar, heç bir nişangah onun nişanından yayınmazdı... Yarışmanın ən maraqlı yeri 25 metr məsafədə kibrit qutusunu, 15 metr məsafədə kibrit dənəsini vurmaq idi... Bu nişangahları ən çox vuran Əkbər əmim olardı, bir gülləsi də yayınmaz, o biriləri kimi güllə korlamazdı... Yadımdadı, İsti suy yaylasında, məşhur Ceyran bulağında Əkbər əmim uzun ayrılıqdan sonra tələbəlik illərinin dostu, əslən İmişlidən olan Qulam müəllimlə qarşılaşdılar, görüşdülər və Dəyə qonşusu kimi bir ay bir yerdə dincəldilər. Qulam müəllim o vaxtlar İmişli rayonunda hansısa məsul bir vəzifədə, deyəsən, rayon İcraiyyə Komitəsinin sədri vəzifəsində işləyirmiş və onu bu vəzifədən kənarlaşdırmışdılar. O da, bir az sınıq, boynuburuq gəzirdi... Əkbər əmim onu bu sınıqlıqdan xilas elədi, Bakıya – kafedraya dəvət oldu. Və həmin dövrdən sonra Qulam müəllim Əzimov elm yoluna qədəm qoyaraq məşhur psixoloqlar cərgəsində qərarlaşdı... Əkbər müəllimin onlarla şox istedadlı alim-psixoloq-yetirmələri olubdur...

Əkbər Bayramov öz elmi ixtisası üzrə olduqca tanınmış alimlərdən idi. 1960-2004-cü ilə kimi keçmiş sovetlər ölkəsi məkanında, xarici ölkələrdə, xüsusən də respublikada keçirilmiş bir çox elmi konfrans və simpoziumlarda, eləcə də beynəlxalq elmi konqreslərdə fəal iştirak etmiş, psixologiya elminin aktual problemlərinə dair maraqlı elmi məruzələrlə çıxış etmişdir.

Əkbər Bayramovu təkcə ölkəmizdə deyil, keçmiş İttifaq respublikalarının mütəxəssisləri görkəmli psixoloq kimi tanıyır, hörmət edir, hesablaşır və yüksək qiymətləndirirdilər. Buna o, öz qələmi, zəkası, insanlarla qarşı münasibəti, qayğıkeşliyi ilə nail olmuşdur. Adi məişətdə nə qədər qaradinməz olsa da, elmi məclislərdə onunla bir dəfə

görüşən adam ayrılmaq istəmir, onu dinləməkdən həzz alırdı. Ayrıldıqda isə bir daha, bir daha görüşmək istəyir, buna can atırdı. Ona görə də Əkbər müəllimi bütün elmi məclislərdə dinləmək istəyirdilər.

Əkbər müəllimin yetirdiyi, həmişə fəxarətlə qeyd etdyi tələbələrindən olan, Millət Vəkili, AMEA-nın psixologiya üzrə yeganə və ilk müxbir üzvü, psixologiya elmilər doktoru, professor Bəxtiyar Əliyev müəlliminin, ustadının şəxsiyyətini, elmi fəaliyyətini "Ömrü örnək olan alim" məqaləsində belə qiymətləndirir: ***"O, mənalı bir ömür yaşamışdı, cəmiyyətə, xalqına şərəflə xidmət etmişdi, güclü məntiqi təfəkkürə, dərin düşüncə tərzinə malik idi. Aydın elmi əsaslara söykənən fikirləri, yüksək insani keyfiyyətləri ilə həmişə fərqlənmişdi. Hamı onunla işləmək, nə barədə olursa-olsun söhbətləşmək, fikir mübadiləsi aparmaq istəyirdi. Hər şeydən öncə böyük bir ziyalı idi. Nurlu əməlləri, əsl vətəndaş mövqeyi hamıya örnək idi. Məramı xoş, niyyəti saf, fikirləri işıqlı idi. Söhbət Azərbaycanda psixologiya elminin inkişafında müstəsna xidmətləri olmuş, özünün elmi məktəbini yaratmış görkəmli alim, unudulmaz müəllim, xeyirxah insan – əməkdar elm xadimi, professor Əkbər Salman oğlu Bayramovdan gedir."***

Həmkarları isə Ə.S.Bayramovun 1955-ci ildən başlayan çoxsahəli elmi yaradıcılıq fəaliyyətinin əsas istiqamətlərini belə müəyyənləşdirmişlər:

1. Təfəkkür probleminin, xüsusən də təfəkkürün müstəqillik və tənqidliyinin inkişaf xüsusiyyətləri ilə bağlı araşdırmalar aparmışdır. Həmin tədqiqatlarla respublikada eksperimental psixologiyanın inkişafında yeni mərhələ başlanmışdır. O, kifayət qədər öyrənilməmiş mühüm bir problemin- ağlın keyfiyyətləri probleminin tədqiqinə xüsusi əhəmiyyət verirdi. Təfəkkür probleminin ayrı-ayrı cəhətləri başqa mütəxəssislər tərəfindən də tədqiq edilmişdi, lakin həmin tədqiqatlarda təfəkkür proses kimi öyrənilirdi, onu şəxsiyyətlə bağlayan cəhətlərə isə diqqət yetirilmirdi. Ə.S.Bayramov bu baxımdan təfəkkür psixologiyasında mahiyyətcə yeni eksperimental istiqamət müəy-

yən etdi. O, təfəkkürün müstəqillik və tənqidliyinin inkişaf xüsusiyyətlərini öyrənmək üçün adekvat tədqiqat metodikası işləyib hazırlamışdır. Təsadüfi deyildir ki, o dövrdə xüsusən də Moskvanın, Leninqradın görkəmli psixoloqları istedadlı tədqiqatçının müasirlik hissini, ən başlıcası isə orijinal yaradıcılıq səylərini yüksək qiymətləndirirdilər. Professor Ə.Ə.Əlizadə haqlı olaraq qeyd edir ki, ***Ə.S.Bayramov özünün sonrakı tədqiqatlarında bu «səmərəli toxumu» necə deyərlər, gərgin zəhmətin sehrində boya-başa çatdırdı. Geniş nəzəri ümumiləşdirmələr apardı, «persepiv» inikasdan tənqidi təfəkkürün müxtəlif səviyyələrinə keçidin qanunauyğunluqlarını müəyyən etdi, müstəqil və tənqidi təfəkkürün funksiyalarını, strukturunu və mənşəyini aydınlaşdırdı.*** Bu sahədəki tədqiqatlarının nəticələri müəllifin 3 monoqrafiyasında və 58 elmi məqalə və məruzə tezislərində öz əksini tapmışdır.

2. Respublikanın ali məktəbləri üçün psixologiya elminin müxtəlif sahələri üzrə dərslik və dərs vəsaitlərinin yazılıb nəşr edilməsi. Onlardan: «Psixologiya» (1989), «Sosial psixologiya» (1986), «Məhkəmə psixologiyası» (1985), «Məhkəmə psixologiyası və psixoloji ekspertiza məsələləri» (1987), «Etnik psixologiya» (2001) və s. Bununla bərabər, müəllif həmin vacib dərsliklərdən «Psixologiya» (2002) və «Sosial psixologiya» (2003) dərsliklərini professor Ə.Ə.Əlizadə ilə birlikdə yeni proqramlar əsasında yenidən işləmiş və nəşr etdirmişdir. Həmin dərsliklər psixologiya elminin müasir inkişaf səviyyəsini tam dolğunluğu ilə əks etdirir və bununla bərabər həmin dərsliklər Milli zəmində zəngin ədəbi-bədii irsimizdən yetərincə bəhrələnmək əsasında yazılmışdır.

3. Xalqımızın ədəbi-bədii irsində, «Kitabi-Dədə Qorqud» dastanlarında, xüsusən də klassik sənətkarların (Nizami Gəncəvi, İ.Nəsimi, M.Füzuli, A.Bakıxanov, M.F.Axundov, C.Məmmədquluzadə, M.Ə.Sabir) ədəbi irsində psixoloji ideyaların inkişafı tədqiq edilmişdir. Həmin tədqiqatlarla əlaqədar olaraq proessor Ə.Ə.Əlizadə yazır ki: «Son illər Ə.S.Bayramovun yaradıcılığında yeni bir istiqamət for-

malaşır: Milli psixoloji fikir tariximizin araşdırılması. Azərbaycanda psixoloji fikrin tarixi qədimdir. Təəssüf ki, biz də bu tarixi əsaslı surətdə öyrənməmiş, onun köklərini və qaynaqlarını kifayət qədər tədqiq etməmişik. Halbuki bu məsələlərin öyrənilməsi Azərbaycanda təkcə psixoloji fikrin deyil, bəlkə də ilk növbədə ictimai fikrin inkişaf xüsusiyytlərini yeni materiallar əsasında aydınlaşdırmaq son dərəcə vacibdir. Ə.S.Bayramovun Azərbaycan ədəbiyyatı korifeylərinin – Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimi, M.F.Axundov, A.A. Bakıxanov və M.Ə.Sabirin psixoloji görüşlərinə həsr olunmuş məqalələri bu baxımdan diqqəti cəlb edir. Nizaminin ölməz əsərlərində rənglərin simvolikası, hürufizmin psixoloji kökləri, Məcnunun autizasiyası – bu mürəkkəb elmi məsələlərin hər biri həmin məqalələrdə sərrast nəzəri ümumiləşdirmələr, dünya psixoloji fikrinin müqayisəli təhlili yolu ilə aydınlaşdırılır. Məsələn, müəllif Nəsiminin özünəməxsus psixoloji konsepsiyasını nəinki qədim hindu və zenbuddizm təlimləri ilə müqayisə edir, həm də onları müasir psixoloji cərəyan və nəzəriyyələr- freydizm və ekzistensial psixologiya istiqamətində araşdırır. Onu da qeyd edək ki, bu məqalələr SSRİ Pedaqoji Elmlər Akademiyasının «Voprosı Psixoloqii» jurnalında, eləcə də, SSRİ EA-nın «Psixoloqiçeskiy jurnal»ında dərc olunmuş və psixologiya tarixçiləri onları yüksək qiymətləndirmişdir». Bununla bərabər, həmin tədqiqatların nəticələri müəllifin 3 kitabında və respublikanın elmi jurnal və toplumlarında nəşr edilən onlarca elmi məqalə və məruzə tezislərində öz əksini tapmışdır.

4. Şəxsiyyətin təşəkkülü, onun özünüdərki və özünüqiymətləndirməsinin psixoloji problemləri ilə bağlı tədqiqatlar. Həmin araşdırmaların nəticələri müəllifin 3 monoqrafiyasında, nəinki respublikada, eləcə də başqa ölkələrdə dərc edilən onlarla elmi məqalələrində öz əksini tapmışdır.

5. Etnik xüsusiyyətlər və etnoslararası qarşılıqlı münasibətlərin psixoloji problemləri ilə bağlı tədqiqatlar. Belə araşdırmalar xüsusən də müəllifin: «Psixoloji düşüncələr» (1994), «Etnik psixologiya məsə-

lələri» (1996), «Kitabi-Dədə Qorqud» dastanlarında etnik psixoloji xüsusiyyətlərin inikası» (2000) və s. monoqrafiyalarında , «Etnik psixologiya»(2001) dərsliyində və onlarla elmi məqalələrində öz əksini tapmışdır. Professor Ə.Əlizadə yazır: «Ayıl, xalqım, ayıl!» nidası müəllifin «Psixoloji düşüncələr» və «Etnik psixologiya məsələləri» adlı kitablarının əslində leytmotivini təşkil edir və müəllif bu yanğı ilə tez-tez Sabirə, böyük lakin cəfakeş xalqınının taleyüklü problemlərini hələ XX əsrin əvvələrində mütəfəkkir dünyaduyumu ilə görmüş və bənzərsiz psixoloji kontekstdə əks etdirmiş böyük şairə özünün həmdərdli müasiri kimi müraciət edir və hər bir azərbaycanlının qəlbinə hopmuş hikmətli misraların psixoloji qatlarını məharətlə oxuyur. Müəllif yazır: … belə olmasaydı bəs bir əsr ərzində millətimizin, xalqımızın başına gətirilən və dəfələrlə, demək olar ki, eyni ssenari üzrə təkrar edilən fəlakətdən düzgün nəticə çıxarılardı. Başımıza gətirilən faciələr bu etnosun qan yaddaşında vaxtında və dəqiq surətdə həkk olunardı. Kitabda erməni vəhşiliklərinin psixoloji kökləri araşdırılır, nekrofiliya (E.Fromm) anlayışı axarında ermənilərin etnik xüsusiyyətləri psixoloji ədəbiyyatda ilk dəfə olaraq açıqlanır, erməni faşizminin iç üzünü bütün təfərrüatı ilə səciyyələndirmək imkanı verən zəngin materiallar, başqa sözlə inkar edilməz dəlillər əsasında aydınlaşdırılır».

Bir cəhət də qeyd edilməlidir ki, Ə.S.Bayramov xalqımızın ədəbi-bədii irsində etnik psixoloji xüsusiyyətlərin inikası probleminə gənc tədqiqatçıları cəlb etməklə (onun elmi rəhbərliyi ilə həmin problemlə bağlı 10-a qədər namizədlik dissertasiyası müdafiə edilmişdir) yeni bir psixoloji məktəb yaratmışdır. Heç şübhəsiz, bu da elmimizin inkişafı ilə yanaşı, xalqımızın özünüdərkinə, Milli şüurunun formalaşmasına yaxından kömək etmiş olar...

Təsadüfi deyildir ki, professor Ə.S.Bayramov bu məsələyə xüsusi diqqət yetirir. O haqlı olaraq göstərir ki, «hər bir xalq və ya etnos özünü düzgün dərk edib qiymətləndirmək və mənəvi tərəqqiyə nail olmaq üçün yalnız özünün sosial-iqtisadi tarixi keşmişinə deyil, həm də öz psixoloji keçmişinə dərindən bələd olmalıdır. Yəni etnos

və ya xalq kim olduğunu, özünü nə zaman və necə dərk etdiyini, hansı mənəvi psixoloji keyfiyyətlərə malik olduğunu, necə tərəqqi etdiyini, tarix boyu nə kimi psixoloji dəyişikliklərə məruz qaldığını da yaxşı bilməlidir. Bu isə xalqın etnik - psixoloji xüsusiyyətlərini tarixi planda araşdırmadan, onu ətraflı öyrənmədən mümkün deyildir».

Bu cəhətdən Ə.S.Bayramovun fəaliyyətində söz və əməlin vəhdəti insanı heyran edir, yəni, o, yalnız kiməsə məsləhət görmür ki, öz xalqının psixoloji keçmişinin araşdırılması ilə məşğul olsun, ilk növbədə məhz özü bu sahədə əməli addım atır. Bu cəhətdən Ə.S.Bayramovun belə bir ideyası diqqəti xüsusi olaraq cəlb edir ki, «xalqa məxsus etnik xüsusiyyətlər xalqın folklor və bədii ədəbiyyat materiallarında maddiləşir». O, öz tədqiqatları ilə bu ideyanı əyani surətdə həyata keçirmişdir.

6. Psixologiya elminin aktual problemləri ilə bağlı geniş oxucu kütləsi üçün nəzərdə tutulan elmi-kütləvi əsərlərin yazılması və nəşri də, Əkbər müəllimin yaradıcılıq siferasında əhəmiyyətli yer tuturdu. Bu istiqamətdə aparılan işlər müəllifin 6 elmi-kütləvi kitabında, eləcə də müxtəlif jurnallarda dərc olunan onlarla məqalələrdə öz əksini tapmışdır.

Bununla bərabər, Ə.S.Bayramov 10 cildlik Azərbaycan Sovet Ensiklopediyası, Kitabi Dədə-Qorqud Ensiklopediyası üçün psixologiya elminin müxtləif problemlərinə aid 58-dən artıq məqalə yazmışdır. Eyni zamanda o, 10 cildlik Azərbaycan Sovet Ensiklopediyasının və 3 cildlik Uşaq Ensiklopediyasının redaksiya nəşriyyat şurasının üzvü olmuşdur. O, nəinki respublikada, eləcə də digər (Tacikistan, Qırğızıstan, İran İslam Respublikası və b.) ölkələr üçün psixologiya üzrə yüksək ixtisaslı elmi kadrlar hazırlanmasında yaxından iştirak etmişdir. Onun elmi rəhbərliyi ilə psixologiya elmi üzrə 35-dən artıq elmilər namizədi və elmlər doktoru dissertasiyası yazılmış, 15-dən artıq magistr dissertasiyasının elmi rəhbəri olmuşdur. Bununla bərabər o, keçmiş sovetlər məkanında 10-dan artıq namizədlik və doktorluq dissertasiyalarının rəsmi opponenti olmuşdur.

Professor Ə.S.Bayramov 1993-cü ildən 2000-ci ilə kimi M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universitetinin nəzdindəki (n.054.03.04) psixologiya elmləri üzrə ixtisaslaşdırılmış müdafiə şurasının sədri, 2000-ci ildən həyatının sonuna kimi Respublika Prezidenti yanında Ali Attestasiya komissiyasının ekspert şurasının üzvü, həmçinin, SSRİ Psixoloqlar cəmiyyəti Azərbaycan şöbəsinin, Azərbaycan Təhsil Nazirliyi Elmi-Metodik Şurasının pedaqogika və psixologiya bölməsinin sədri, Respublika ictimai rəyi öyrənən sosioloji mərkəzin üzvü olmuşdür.

Ə.S.Bayramovun elmi, ictimai fəaliyyəti həmişə yüksək qiymətləndirilmiş, o, «Fədakar əməyə görə» yubiley medalı (1970), «Şərəf nişanı» ordeni (1976), «SSRİ maarif əlaçısı» (1977) və Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə elm və təhsil sahələrində xidmətlərinə görə «Şöhrət ordeni» (2000), eləcə də bir neçə dəfə Azərbaycan Təhsil Nazirliyinin fəxri fərmanları ilə təltif edilmişdir. 1981-ci ildə ona Əməkdar elm xadimi fəxri adı verilmişdir.Əkbər müəllim BDU-nun tarixində ikinci və hələlik sonuncu alimdir ki, BDU-nun fəxri professoru adını dşımışdır...

Professor Ə.S.Bayramov zəngin elmi-pedaqoji fəaliyyətinin 35-ildən artıq bir dövrü bilavasitə Bakı Dövlət Universiteti ilə bağlı olmuşdur.

Bəli, Əkbər Bayramov hər zaman xatırlanan, parlaq simalardan biridir. O, heç bir zaman kimsənin qəlbinə dəyməz, könül qırmazdı. Paxıllıq hissi ona yad idi. O, hər bir kəsə hörmətlə yanaşar, imkanları daxilində ona köməklik göstərərdi. O, sözün əsl mənasında Azərbaycan psixologiya elminin vurğunu idi. Azərbaycanda pedaqoqika-psixologiya elminin inkişafı sahəsində əsl fədai idi. O, öz vətənini, elini, obasını, dövlətini, dövlətçiliyi sevirdi, ona qəlbən bağlı idi. Bütöv, müstəqil, çiçəklənən Azərbaycan onun həyat amalı idi. “Azərbaycançılıq” məfkurəsi onun üçün qəlb çırpıntısı idi. Azərbaycana olan böyük məhəbbətin təzahürü idi ki, o, oğluna “Azər” adını vermişdi. Azərin azərbaycançılıq ruhunda, vətənə sevgi, dövlətə, dövlətçiliyə

sədaqət ruhunda tərbiyə olunmasına bütün ömrünü həsr etmişdi... Qızı Pərvin xanım bütün ləyaqəti ilə Azrbaycan qadınlığına nümunədir... Nəvəsi Nigar psixologiya elmi sahəsində onun ləyaqətli davamçısıdır, BDU-nun müəllimidir, dosentdir.

Əkbər müəllimin xislətindəki elm-mədəniyyət, maarif təəssübkeşliyinin əsasında, şübhəsiz, xalq təəssübkeşliyi dayanırdı. Bu detal Əkbər müəllimin xisləti barədə, onun cəsarəti, ötkəmliyi, məğrurluğu, eyni zamanda, xeyirxahlığı, həssaslığı barədə, elə bilirəm ki, az şey demir. Əlbəttə, həmişə belə olmalıdır, milli psixologiyanı tədqiq edən hər bir qələm sahibi, aydın məsələdir ki, millətin təəssübkeşidir, millətin təəssübü isə xalq təəssübünün fövqündə deyil, çünki həmin milli psixologiya dediyimiz elm sahəsi mücərrəd bir varlığın yox, xalqın özünü ifadəsi, xalqın mənəvi sərvətidir. Əkbər müəllimin elmə, ictimai fikrə, xalq maarifinə xalq təəssübkeşliyi səviyyəsində yanaşması, xalqın milli-mənəvi sərvətinin təbliği naminə gənclik ehtirası ilə bu sahədə ömrünün sonuna qədər fəaliyyət göstərməsi, elə bilirəm ki, bu gün də gənclərimiz üçün bir örnəkdir.

Əkbər müəllimin, yuxarıda qeyd etdiyimiz kimi, elm aləmində bir sıra fəxrediləcək fəxarətli rəsmi adları, təltifləri var. Əlbəttə, bu adlar, vəzifələr, təltiflər əlahiddə bir tərzdə hörmətli idi və Əkbər müəllim onları istedadı və zəhməti ilə qazanmışdı və elə buna görə də mənim üçün Əkbər müəllimin şəxsiyyəti ilə «zəhmətkeş» sözü arasında çox üzvi bir bağlılıq var. Əkbər müəllim zəhmətkeş idi, milli psixologiya elmimizin, Azərbaycan psixologiyasının təşəbbüskar, yorulmaq bilməyən fədakar fəhləsi və fədaisi idi… Fədakar alim adı əsl ona yaraşırdı…

Əkbər əmimin həyatdan getməsi təbii və gözlənilən idi… Yaş öz hökmünü verirdi... Və o amansız, acılı-ağrılı xəbəri eşidəndə birdən-birə qoca Aşıq Alının haçansa yaddaşımda ilişib qalmış sadə və tamam əlacsız misraları yadıma düşdü: “Bu fani dünyadan bir köç eylərəm, Aran qəmgin olub, dağ inciməsin...”; “Bir gün eşidərsiz Alı da köçdü, Sındı telli sazım, təzanə qaldı…” Əkbər müəllimdən elimi-

zə-elmimizə, xalqımıza çox-çox mətləblər, çox dəyərli əsərlər, ən ümdəsi, dərs almalı dərsliklər qaldı...

Əkbər müəllimi dəfn etdikdən sonra, qəbiristanlıqdan qayıdanda Əkbər əmimin Bayram əmim rəhmətə gedəndə, elə bu məqamda, yana-yana dediyi sözü xatırladım: - Bayramla birlikdə çox şeyimiz getdi...

İndi bu sətirləri yazanda tanınmış yazıçımız-publisistimiz, Millət Vəkili Aqil Abbasın yazdığı "Əkbər Bayramov da çıxdı getdi Ağdama, qaldıq biz..." yanıqlı vida sözündən bu cümlələri xtırladım: ***"Əkbər müəllim ağır oturub batman gələn kişilərdəniydi. Və bu gün Azərbaycanda bəlkə minlərlə tələbənin üstündə (o tələbələr ki artıq çox yüksək dövlət vəzifələrində çalışırlar və ya Əkbər müəllimin ənənələrini davam etdirirlər) Əkbər müəllimin haqqı var. Mən həmin tələbələrdən tanıdıqlarımın siyahısını da dərc edə bilərəm.***

Əkbər müəllim, öz tələbələrinə haqqını halal elə və mənə də haqqını halal elə!

Universiteti bitirəndən sonra heç vaxt sənə «Əkbər müəllim» demədim, «Əkbər əmi» dedim. Əmi, Ağdama yolun açıq olsun!"

Bir də, böyük şairimiz Qabilin oğlu, yazıçı-publisist Mahir Qabiloğlunun qəmlə dolu yazdığı "Professor Əkbər Bayramova vida sözü"nün sonluğunu xatırlatnaq istərdim: ***"Hə… Yazımı bitirdim. Əvvəldə yarımçıq bir fikrim qalmışdı. Onu tamamlamaq istəyirəm. İndi bu yazını oxuyub mənə zəng etsəniz və xoş sözlər söyləsəniz "Borcumdur" cavabı verməyim çox bəsit görsənər. Çünki mənim yazdıqlarımın çoxu ödəmək istədiyim mənəvi borclardır. Düzdür. Bir cızmaqarayla bu mümkün deyil. Bəlkə də buna qədirbilənlik kimi qiymət verəcəksiniz. Bəlkə də mən bunları yazıb, borcumu qaytarmış kimi təsəlli tapdığımı zənn edirəm. Çünki "Professor Əkbər Bayramova vida sözü" yazısını yazmaq mənim onqat borcumdur.***

Borcumdur ona görə ki, Əkbər Bayaramov mənim qonşum Bayram əminin qardaşıdır.

Borcumdur ona görə ki, Əkbər Bayramov mənim müəllimim olub.

Borcumdur ona görə ki, Əkbər müəllimin atam Qabilə böyük ehtiramı olub.

Borcumdur ona görə ki, Əkbər Bayramov "91-lər"-in siyahısında öndə gedənlərdən olub.

Borcumdur ona görə ki, Əkbər Bayramov xalqımın böyük alim övladlarındandır. O alimlərdəndir ki, onun "mürəkkəbi şəhid qanından ağırdır".

Borcumdur ona görə ki…

SON

Yasamal qəbiristanlığındayıq. Əkbər müəllimi torpağa tapşırdıq. Molla dua oxudu. Sonda isə orda olanlara üzünü tutub "Halal edin" söylədi. Hamı da dəfələrlə "halal" söylədi. Mən də qeyri iradi söylədim – hamı kimi. Sonra isə dodağımı dişlədim. Gör e… halallığı mən almaqdan… Amma gecikmişdim. Gec də olsa dilləndim: "Əkbər müəllim, 1985-ci ildə verdiyiniz, layiq olmadığım "4" qiymətini halal edin. Allah rəhmət eləsin!"

Əkbər müəllim haqq dünyasına köçdü və bizim bu fani dünyamızda öz missiyasını alın açıqlığı ilə yerinə yetirib getdi, insanlıq borcunu, vətəndaş borcunu, maarifçi-alim borcunu, əmi-dayılıq borcunu ödədi, getdi. Bizim isə ona ödəməli borcumuz çox-çoxdur…

Ruhun şad olsun, ey təkcə mənim yox, hamımızın əmisi, hamımızın müəllimi, doğması və əzizi, Əkbər Salman bəy oğlu Bayramov!!

Qurban Bayramov,
tənqidçi-ədəbiyyatşünas, doktor-professor;
"Fədakar alim" və "Elm fədaisi" diplomantı,
"Səməd Vurğun mükafatı" laureatı,
1984-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü.
27. 05.2018.

Böyük alim, sədaqətli dost haqqında

Dünyada alim adından şərəfli, cəmiyyətə və millətə başucalığı gətirən ikinci ad yoxdur. Alimi və ziyalısı olmayan millətin və dövlətin gələcəyi də yoxdur.

Əkbər müəllim böyük insani keyfiyyətlərə malik istedadlı bir alim idi.O həm ciddi, həm də incə yumor hissinə malik bir insan idi. Odur ki, onunla bir yerdə olmaq, yoldaşlarına rahatlıq və sevinc gətirirdi.

Əkbər müəllim çox sadə insan idi, sadə insanlar isə, cəmiyyətdə həmişə birmənalı qəbul olunur.

Elmi konfranslar, simpoziumlar, səfərlər, təəssüratlar, mühazirələr, mükafatlar, işgüzar görüşlər...

Bunlar bir alim ömrünün qayğılı, keşmə-keşli yaşantılarıdır, sadə desək, bir ömrün xatirəsidir.

Bəli, əsl insan ömrünün də xatirəsi olur. Bu xatirə önündə dayanıb, saatlarla danışmaq olar.

Əkbər müəllimlə bağlı çox xatirələrim var, onlardan bir-ikisini söyləmək istəyirəm:

Mən onun kitablarının ilk oxucularından idim və bu onun çox xoşuna gələrdi. Bir gün soruşdum ki, Əkbər müəllim, məni psixologiya üzrə aspiranturaya götürərsiniz? Cavabında dedi ki, sənin bu

elmə olan böyük marağını nəzərə alaraq birbaşa diktorant götürərəm, özü də böyük məmnuniyyətlə.

Yenə bir xatirəmi yada salmaq istəyirəm: Həyətimizdə müəllim yoldaşlarla dincəlirdik. Əkbər müəllim bizə yaxınlaşıb belə bir qəribə sual verdi: «Sizin heç olmazsa birinizdə mujskoye dostoinstvo varmı?» Biz hamımız donduq qaldır ki, bu nə deməkdir? Sonradan sonraya başa düşdük ki, o zaman yenicə bu adda rus içkisi satışa buraxılıbmış «Мужское достоинство», Əkbər müəllim də onu nəzərdə tuturmuş.

Əkbər müəllim məclislərin bəzəyi idi. Çox zarafatlar edərdi. Darıxanda mənə deyərdi: «qardaş,tək elmlə məşğul olmaq olmaz, sən nə vaxta qədər poassivlikmüddətini uzadacaqsan?» Mən də dərhal tədbir görürdüm.

Əkbər müəllim dostlara qarşı həmişə həssas və diqqətli olub, ona görə də həmkarları və dostları onu çox sevirdilər. İnsanlara etibar və sədaqət nümayiş etdirməyi özünün sanki bir vəzifə borcuhesab edirdi.

Əkbər müəllim elm aləmində varlığı ilə çalışıb, şanlı bir iz qoymuşdur. Neçə-neçə tələbə, aspirant, elmlər namizədi, doktorlar yetişdirmişdir.

O, gözəl pedaqoq və elmi rəhbər idi. Ölkəmizdən kənarda öz əsərləri ilə tanınmış çoxlu alimlər yetişdirib. Əkbər müəllim çoxlu elmi əsərlərin və dərsliklərin müəllifidir.

Əminəm ki, Əkbər müəllim aramızdan cismani getməsinə baxmayaraq, o, dostlarının, həmkarlarının və onu tanıyanların qəlbində daim yaşayacaqdır.

Eldar Məsimov,
Rusiya Təbiştşünaslıq Akademiyasının həqiqi üzvü,
Bakı Dövlət Universitetinin "Maddə quruluşu"
kafedrasının müdiri,
fizika-riyaziyyat elmləri doktoru, professor

O mənim qəlbimdə həmişə yaşayacaq

Əsl insan, görkəmli alim professor Əkbər Bayramov haqqında nəsə danışmaq, yazmaq, xatirələrimi oxucularla bölüşmək mənim üçün çox çətin, məsuliyyətli, eyni zamanda qürur verici bir hissdir. Bu anı yaşamaq çox ağırdır. Sanki hər şey donur, zaman dayanır, qaranlıq bir orbitə düşürsən. Ancaq özün-özünlə tək qalırsan. Görəsən ürəyimdən keçən hissləri ifadə edə biləcəyəmmi?

Hər yerdə hər an dəyərli məsləhətləri, elmi tövsiyyələri qulaqlarımda səslənən, yaşam tərzimin həyat kredosuna çevrilən bir insanın, əsl elm fədaisinin itkisilə barışmaq, onun yoxluğuna inanmaq çətindir. Deyirəm nə olaydı kaş idrakın dərk edə bilmədiyi bir möcüzə baş verəydi fələk hökmünü geri oxuyaydı.

İnsan həyatı dərk etdiyi gündən arzuların qanadında zirvələrə qalxmaq eşqilə yaşayır. O insanlar zirvələrə ucalır ki, vətənini, xalqını, torpağını ürəkdən sevir, onun dərdlərinə yanır, xoş günlərinə könül dolusu sevinir. Professor Əkbər Bayramov məhz belə insanlardan idi. O həyatda öz sözünü dedi, xeyirxah əməlləri ilə izini qoydu. Əkbər Bayramov elmi praktiki fəaliyyəti və xeyirxah əməlləri ilə insanlıq zirvəsinin ən uca məqamına yüksələ bildi. Mən onun yetirməsi olan bir alim kimi professor Əkbər Bayramovun fəaliyyətinə ancaq bu müstəvidən yanaşa bilərəm. Onun haqqindakı bu yazımda Bayramov-psixoloq, Bayramov-insan, Bayramov-vətəndaş, Bayramov-şəx-

siyyət məqamlarına qısaca şərh verməyə çalışacağam. Psixoloq Əkbər Bayramov bu peşənin ibtidaisindən alisinə qədər şərəfli bir yol keçmişdir. Bir anlığa zamanın məkan müstəvisində Əkbər müəllimin psixologiya üzrə elmi fəaliyyətini təfəkkürümüzün süzgəcindən keçirək. Psixologiya mətbəxinin bütün çalarlarına bələd olan, onu yüksək əxlaqi ehtiyyatlılıq və ziyalılıqla qiymətləndirməyi bacaran Əkbər Bayramov özünün psixoloq fəaliyyətində onlara əməl etməklə həmkarları və tələbələri arasında özünə böyük hörmət və ehtiram formalaşdırmışdı. O bu yolda yaranmış boşluqları doldurur, öz peşə istiqamətinə halal və dürüst baxır, tədqiqat obyekti olaraq hamının gördüyü predmet və hadisələri deyil, həyatın inkişafının zidiyyətli hadisə və predmetlərini seçir, görünənlər içərisində görünməyənlər barədə yazırdı. Əkbər Bayramovun Bakı Dövlət Universitetinin adi müəllim vəzifəsindən kafedra müdiri vəzifəsinə yüksəlişi söylədiyim fikrə sübutdur. Paralel olaraq dövlətimiz tərəfindən Əkbər Bayramovun əməyinə verilən qiymət Azərbaycan Respublikasının Şöhrət ordeni söylədiklərimi bir daha təsdiq edir.

Əkbər Bayramovun yüksək insani keyfiyyətlərə malik olmasını göstərən bir amili önə çəkməklə kifayətlənmək istərdim. Həyatın keşməkeşli, acılı-şirinli yolları ilə çətinliklə irəliləyən Əkbər Bayramov ünsiyyətdə olduğu adamların heç birinə biganə qalmırdı. Rast gəldiyi insanların qayğıya və köməyə ehtiyacı olduğunu duyduqda Əkbər müəllim bütün imkanlarından istifadə edərək onlara yardımçı olmağa, mənəvi dayaq durmağa çalışırdı.

Vətəndaş kimi Əkbər Bayramov doğma vətəni Azərbaycana layiqli övlad olmuş, Azərbaycana edilən hərbi, siyasi və mənəvi təcavüzlərə qarşı çıxmış, həmişə Qarabağ camaatının yanında olmuş, onların dərdini öz dərdi bilmiş, əlindən gələn heç bir köməyi əsirgəməmişdir.

Nəhayət bir şəxsiyyət kimi Əkbər Bayramov bütöv bir şəxsiyyət idi. Onun şüurunda, iradəsində, zəkasında heç vaxt haçalanma baş verməmiş, ictimai mühitin cəlbedici amillərindən uzaq durmuş, ictimai rolu, sosial mövqeyi, mənəvi keyfiyyətləri, şəxsi davranışları

ilə həmişə nümunə olmağa çalışmışdır. Onunla dostluq, əməkdaşlıq edən, unsiyyətdə olan, elmi yaradıcılığı ilə az-çox tanış olan hər bir kəs güman edirəm ki, mənimlə razılaşar. Artıq neçə illərdir ki, Əkbər Bayramov Bakı Dövlət Universitetində psixologiyanın müxtəlif istiqamətləri üzrə tələbələrlə dərslər aparmış, oxuduğu mühazirələrin, apardığı elmi araşdırmaların sambalına görə gənc mütəxəssislər üçün örnək ola biləcək bir məktəb yaratmışdır. Bu həyat məktəbindən bəhrələnərək onun yolunu davam etdirən mən və mənim kimi yüzlərlə yetirmələri professor Əkbər Bayramovun əziz xatirəsini həmişə uca tutur, hörmət və ehtiramla yad edir. Yəqin ki, yaxın uzaq şəhər və kəndlərdən müxtəlif peşə adamlarının: yazıçıların, jurnalistlərin, müəllimlərin, alimlərin, tələbələrin, dostlar və doğmaların professor Əkbər Bayramov haqqında ürək hərarətilə, səmimiyyətlə, minnətdarlıqla yazılmış, forma və məzmunca bir-birindən seçilən rəngarəng yazılar çox olacaq. Bu yazıları birləşdirən ümumi cəhət, ruh – tanınmış alimin elmi fəaliyyətinə, insanlığına, şəxsiyyətinə dərin hörmət hissidir. Sevincli keçirdiyim qürur hissini heç cürgizlədə bilmirəm. Axı bu yazılar içərisində kiçicik də olsa mənim də payım var.

Ürəkdə deyiləsi, yazılası süzlər çoxdur, sadəcə olaraq Əkbər müəllim haqqında nə qədər söz açsam, yazsam da ürəyimdən keçənlərin hamısını ifadə edə bilməyəcəm. Ona görə də deyirəm: Əkbər müəllim ölməz insandır, o mənim qəlbimdə həmişə yaşayacaq.

Təranə Babayeva,
BDU-nun dosenti

Məndə özümə qarşı sonsuz inam, güvənc hissi aşılayırdı

Çox tərəddüd etdim bu yazını yazmağa... Sanki müqəddəs hesab etdiyim, uzun illər hər kəsdən gizli saxladığım qiymətsiz və əvəzolunmaz bir dünyamı əlimdən alacaqdılar...

...28 ilin dərin bir xatirəsi var bu dünyamda... həzin və kövrək...

1990-cı il... Siyasi, iqtisadi və hər mənada çətin, gərgin dönüş eyni zamanda, Qarabağ müharibəsinin qığılcımlarının alovlandığı dövr idi.

Bakı Dövlət Universitetinin (o vaxtlar M.Ə.Rəsulzadə adına BDU adlanırdı) auditoriyası... Tələbəliyimizin ilk günündə bizləri kimin salamlayacağını səbirsizliklə gözləyirdik. Zəng çalındı. İçəriyə nur üzlü, təmkinli, müdrik, bir baxışı ilə tələbənin iç dünyasına bələd olan müəllim daxil oldu. Bu an kimi gözümün önündə canlanır həmin ilk gün... Həlim, təmkinli, qayğıkeş səsi ilə jurnal üzrə tələbələrlə tanış olduqdan sonra müdrik notlarla mühazirəyə başladı... Və elə həmin andan sanki auditoriyanı ovsunladı...

Bir neçə aydan sonra növbəti mühazirə saatında heç bir səs olmadan (illər sonra isə onun nə qədər əsaslı olduğunu anlayanda bu Şəxsiyyətin ilahi qabiliyyətinə heyran oldum) məndən auditoriyanı tərk etməyi tələb etdi. Özümdən asılı olmadan ayağa qalxıb üzr istəyib yenidən əyləşdim yerimdə. Əslində bu an nə baş verdiyini anlamırdım. Çünki digər tələbələr kimi mən də bütün diqqətimlə sonralar insanlığı-

na pərəstiş etdiyim professorun, ən sevimli müəllimimin dərsini sanki "nəfəs almadan" qulaq asırdım, bir kəlməsini belə itirməkdən ehtiyat edirdim. Birinci partada əyləşmişdim. Təkrarən məndən auditoriyanı tərk etməyi daha sərt formada tələb etdi. Bu hadisənin 3-cü dəfə təkrarında əlacsız qalıb auditoriyanı tərk etdim. Bu hadisədən sonra hələ də bunun mahiyyətinə varmadan əziz müəllimimə uzun uzadı "məktub" yazıb universiteti tərk etdim və 18 gün dərsə gəlmədim. Artıq qərar vermişdim – bir daha universitetə qayıtmamaq qərarını ... çox çətinliklə, zəhmətlə tələbə adını qazandığıma baxmayaraq...

... illər keçdi və yalnız onda anladım ki, mənim həyat müəllimim, əziz İnsanım öz sevimli tələbəsi üzərində psixoloji eksperiment aparıb. Bəli məhz psixoloji eksperiment... hansı ki, Onun gördüyü, mənim isə dərk etmədiyim gizli qabiliyyətləri üzə çıxaran eksperiment... Və bu eksperimentin nəticəsində professor, əsl ziyalı və əsl alim öz sevimli tələbəsinin bəlkə də həyatda müəyyən edə bilməyəcəyi uğurlu bir yolu nurlandırdı, bir mayak oldu!!!

...Olduqca ağırdır xatirələri vərəqə köçürmək ... axı bunlar mənimçün çox müqəddəsdir...

Mənim həyat müəllimim, ömür yoluma məşəl tutan əsl ziyalı və gözəl alim, ruhum qədər mənə doğma və əziz olan bir insanın xatirəsini kimsə ilə bölüşmək istəməzdim... amma məcburam...

1997-ci il idi. Sağlamlığında ciddi problemlər yaranmışdı. əzizləri ilə birlikdə xəstəxana palatasında idik. Əməliyyata hazırlıq gedirdi. Qurani_Kərimin altından keçirdik... Hətta o gərgin anda belə gözəl, incə yumor hissinə malik professor gərginliyi aradan qaldırmaq üçün zarafatından qalmırdı.

Bir gün öncə məndən ağ kağız və qələm istəmişdi. Namizədlik dissertasiyamın rəyini yazıb imzalamaq qərarına gəlmişdi... əməliyyatdan sağ çıxmamaqdan ehtiyatlanaraq ... dizləri üstündə rəyi yazıb imzasını atdı... və dərindən nəfəs alaraq "bircə sənin müdafiəni görsəydim rahat gedərdim" dedi ... hər ikimiz susduq... Yazmaq çox ağırdır mənə..

Mənim təmənnasız, qayğıkeş, əsl ziyalı və insanlığın nümunəsi olan müəllimim...

Bu hadisədən 20 il keçdi. Bir igidin ömrünə bərabər bu illərin xatirələrini üç-beş cümlə ilə ucuzlaşdırmaq istəməzdim. Bu xatirələr bir əsərə sığmayan xatirələr idi. Yalnız onu deyərdim ki, bu illərdə olan bütün uğurlarımda və hər hansısa başlanğıcında xeyir-dua üçün üz tutduğum yeganə və ilk ünvanım idi mənim müəllimim!!!

Bütün xatirələr bu an kimi canlıdır göz önümdə...

Ənənəvi olaraq universitetdən çıxıb piyada evlərinə gəlirdik. Bütün yol boyu namizədlik dissertasiyasını müzakirə etdik. Məndə özümə qarşı sonsuz inam, güvənc hissi aşılayırdı. Qəflətən ayaq saxlayıb "Məhparə xanım (hamıdan fərqli olaraq adımı daha şirin və fərqli səsləndirirdi və yaşından asılı olmayaraq uşaqlı-böyüklü hamıya "xanım" deyə müraciət edirdi) siz mənim davamçım olmalısız" dedi və qətiyyətlə gözümə baxdı... sanki məndən əminlik üçün söz eşitmək istəyirdi. Susdum... deyə bilmədim ki, Siz mənim üçün əlçatmaz bir zirvədə olan İlahi kimisiz, Sizə özümü bərabər tutacaq qədər cəsarətli deyiləm... yolumuzu davam etdik. Qarabağımızdan söhbət etdik. Həzin, titrək səsin altında nə qədər ağrı, vətən həsrəti,daxili iztirab açıqca hiss olunurdu...

BDU-dan işdən azad olunub orqanda işə qəbul edilməyim haqda əmri götürüb yanına gəldim. Həyatımı büsbütün dəyişən bu bir parça kağızı sonsuz fəxrlə öpüb gözünün üstünə qoydu... Bunu yalnız insanın valideyni edərdi... mən isə bunu mənəvi Atamdan gördüm... Mənim peyğəmbər ruhlu mənəvi Atam...

Onunla ünsiyyətim zamanı içimdə dərin bir qorxu var idi daima. Həqiqətən insan müqəddəs bildiyi varlıqdan sevgisi ilə bərabər eyni zamanda çox qorxur... bunun nə hiss olduğunu sonralar dərk etməyə başladım. Sən demə ayrılıq zamanının olacağının qaçılmazlığından doğan qorxu hissi imiş ... nə zamansa bu əbədi ayrılıq baş verməlidir... Görüşümüzdən düz 20 illik tanışlığımızdan isə 27 il sonra bu ayrılıq anı gəlib çatdı... O qorxunc hiss məni əziz, doğma,

əvəzolunmaz müəllimimdən ayırdı. Çox aciz idim.. yazıqlaşmışdım. Bir görünməyən küncdə gizlənmək istəyirdim. Son ayını yaşayırdı mənim insanlıq mücəsiməsi olan müəllimim... Son günədək Onu olduğu vəziyyətdə görməkdən qaçdım, gizləndim... Nə qədər qaçsam da ruhumla bağlı olduğum insanın son günü olduğunu duyan qəlbim sanki bədənimdən qopub onunla görüşə tələsirdi... çox ağrılı, dəhşətli, əbədi ayrılığı gətirən son görüşə... sonra çox gec olacaqdı, getmək məqamı idi... Son gün... Bu anı qələmə almaq mümkünsüzdür... Dizlərim titrədi, ruhum tələtümdən çapalayırdı... Həyatımda ən acı günlərimdən birini yaşayırdım... valideynlərimi və yeganə əziz qardaşımı itirdiyim günlər qədər acı və dözülməz idi... Elə bil məni gözləyirdi... Bütün əzizləri ilə vidalaşmışdı, təkcə sevimli tələbəsi onunla görüşə gəlməmişdi.. bunun son vida olacağından qorxduğu səbəbindən... Vaxtı uzatmaq istəyirdim... istəyirdim quru da olsa nəfəsi gəlib getsin... xatirimdə həmişə olduğu kimi qalsın... amma əfsuslar... Getmək məqamı idi...

Arıq, heysiz əllərini ovucuma alıb daxili fəryadımla onları dəfələrlə öpdüm, buraxmaq istəmirdim o əlləri... Birdən o heysiz əllərə ilahi güc gəldi... əllərimi möhkəm sıxdı... başımı qaldırıb üzünə baxdım... gözlərini gözlərimə dikərək başını sağa sola çevirdi... bununla ağlamağımı istəmədiyini işarə etdi... və bu onun son baxışı oldu...

Ruhum sənə bağlıdır mənim canım qədər əziz olan mənəvi Atam!!! Səndən hallalıq istəməkdən belə qorxdum... çox qorxdum. Tanrıya olan sevgimlə bərabər olan qorxu hissinə bənzəyirdi bu hiss ...Sanki bunları mən haqq etməmişəm... Qoy Uca Allahım məni bağışlasın - axı Sən də mənim üçün ilahi kimi idin... Haqqa qovuşan sevimli müəllimim rahat uyu məzarında!!! Kimsənin Sənə halallıq verməyinə əsas yox idi... hamıya Sənin halallığın gərək idi, çünki haqqınız çoxlarının üzərində sonsuz idi!!!

Rahat uyu cənnət məkanında gözəl, təmənnasız, əsl İnsan olan əziz müəllimim!!! İçində Vətən həsrəti,Vətən dərdi kimi ağır, acı bir

dərdi apardın... Yoxluğun mənə çox acıdır... Elə bil vaxtilə arxamda bir zirvə olduğu halda indi bir qorxunc uçurum var...

Ruhun şad olsun, məkanın cənnət olsun!!! Sən bunları təkcə psixologiya elminə verdiyin töhfələrlə deyil, etdiyin sonsuz və təmənnasız yaxşılıqlarla haqq etdin!!!

P.S. Bu yazını yazmaq istəmirdim... heç nəyi parçalamaq istəmirdim... amma dözülməz bir iztirabla yazsam da elə bil əziz, sevimli, əvəzolunmaz mənim həyat müəllimim və mənəvi Atamla söhbət etdim... Onun nə adını çəkə bildim, nə də Siz deyə muraciət edə bildim... Biz Tanrıya da "Sən" deyə müraciət edirik...

Mehparə Sadıqova,
psixologiya elmləri üzrə fəlsəfə doktoru

Əkbər Bayramov: Etnik psixologiyanın babası

1988-ci ildən başlayaraq rus imperiyasının dağılmağa başlaması, SSRİ-nin ləğvi xalqımızın özünə, öz soy kökünə qayıtmasına şərait yaratdı. Azərbaycan psixoloqları da bu ictimai-siyasi, tarixi prosesi əliboş qarşılamadı. “Psixoloji etüdlər” (Ə.S.Bayramov, 1989), “Psixolojidüşüncələr” (Ə.S.Bayramov, 1994) adlı kitablar və onlarca başqa məqalələr həmin prosesin təsiri ilə yarandı.

Professor Əkbər Bayramov etnik psixologiya məsələləri ilə müntəzəm məşğul olan alimlərimizdəndir. O, ictimai-pedaqoji fikir tariximizdə sistemli pedaqoji təhsil görmüş, dövrünün qabaqcıl pedaqoji fikrini mənimsəmiş, müəllimlik fəaliyyəti dövründə elmi yeniliklərin yaradıcısı kimi tanınmış bir mütəfəkkir - alimdir.

Mən öz pedaqoji təcrübəmdə ali məktəbdə tarixdən tədris etdiyim mövzuları yeri gəldikcə folklorumuzla - "Dədə Qorqud"la bağlı tədrisə cəlb edir və mili-mənəvi dəyərlər səviyyəsinə yüksələn epos-dastan nümunələrinin etnopedaqoji mahiyyətini aydınlaşdırmağa çalışıram. Bu məsələlərin tədrisində Ə.Bayramovun əsərlərinin etnopedaqoji mahiyyətinə və onun şəxsiyyətyönümlülük xüsusiyyətlərinin təhlilinə də üstünlük verirəm.

Psixologiya elminin yaranma tarixinə nəzər saldıqda məlum olur ki, bu iki mərhələyə ayrılır ki, elməqədərki və elm yarandıqdan

sonrakı mərhələ. Birinci mərhələ zamanı psixoloji fikir və idealar, təsəvvürlər formasında, daha doğrusu şifahi xalq yaradıcılığında "Kitabi-Dədə Qorqud" dastanlarında rast gəlinən psixoloji idealar toplusu, parakəndə formada səciyyələnir. İkinci mərhələ XIX əsrin II yarısına təsadüf edir ki, artıq bu dövrdən müstəqil psixologiya elmi yaranır və labarotoriyalarda, elmi mərkəzlərdə psixoloji ədqiqatlar aparılır. Elmi tədqiqatlar elmi prinsip və elmi metodların tətbiqi ilə həyata keçirilir. Müasir psixologiya elminin inkişafında hər iki mərhələdən olan elmi nailiyyətlərdən yetərincə istifadə olunur. Azərbaycan adət və ənənələrinə uyğun elm və mədəniyyət tarixini öyrənmək, ədəbi qaynaqlarındakı psixoloji fikir və ideyalar üzə çıxarmağın əhəmiyyəti böyükdür. Problemin müasir elmi kontekstində yanaşma tərzində öyrənilməsi aktualdır, olduqca zəruridir.

"Şəxsiyyətin inkişafının etnopsixoloji məsələləri" Bakı-1985 professor Ə.Bayramovun redaktorluğu ilə, "Etnopsixologiya və etnopedalogika; mənbələr və müasir problemlər" Bakı ADPU 1992-ci il - adlı Respublika elmi konfransının materiallarını, əməkdar elm xadimi, professor Ə.S.Bayramovun "Psixoloji düşüncələr" Bakı 1994 – adlı kitabını bu baxımdan qeyd etmək lazımdır. Etnopsixologiya və etnopedalogika elminə həsr edilmiş həmin konfransa diqqəti cəlb edən yeni-yeni problemlər təqdim olunmuşdur.

Onun düşüncələrindən aydın olur ki, erməni millətçilərinin Azərbaycan xalqına qarşı yeritdikləri düşmənçilik siyasətinin kökü min illərlə formalaşan əxlaqi adət-ənənənin, inam və əqidələrin, tipik tərbiyə üsullarının nəticəsidir. "Azərbaycan etnosunda böyüyə hörmət, qonaqpərvərlik, ədalət hissi, ocağa bağlılıq, rıhmdillik, tez bağışlamaq, kin və məkrdən uzaqlıq və s. kimi müsbət sterotiplər, tarixən formalaşmışdır" - Ə.C.Bayramov. Bu əxlaqi keyfiyyətlərdən isə məkr niyyətli ermənilər həmişə istifadə etmişlər. Etnoslararası münasibətlər o zaman kəskinləşir ki, bu və ya digər etnosda başqalarına qarşı nifrət, qəzəb, kin, qan düşmənçiliyinə rəvac verilsin.

Bunu isə bu gün biz erməni etnosunda aydın görürük. Öz torpaqlarının, dədə-baba yurdunun müdafiəsinə qalxan hər bir azərbaycanlı bunları dərk etməli, gələcək nəsildə ermənilərə qarşı nifrət, düşmənçilik, barışmazlıq tərbiyə etməlidir.

Etnik münaqişələrin müxtəlif regionlarda kəskinləşdiyi indiki dövrdə onların səbəbini, onlara təsir göstərən xarici və daxili amilləri başa düşmək və aradan qaldırmaq yollarını müəyyən etmək üçün yalnız nəticəni öyrənməyə deyil, həm də belə bir nəticəyə gətirən səbəb və proseslərin psixoloji təhlilinə, yəni ayrı-ayrı etnosların sosial və ya etnik stereotip və yönümlərinin də xarakterinə diqqət yetirmək vacibdir.

Sosial stereotip bəzən müsbət, bir sıra hallarda isə mənfi rol oynaya bilər. Yəni sosial stereotip bir sıra hallarda subyekt tərəfindən sosial gerçəkliyi dərk etməyə, onu qiymətləndirməyə köməklik göstərir, çünki dəyişən şəraiti ətraflı dərk etmək, ona dəqiq reaksiya göstərmək mümkün olmadığı halda, mövcud fikir və mülahizələrə istinad etmək «idraka qənaət prinsipi» nöqteyi-nəzərdən əhəmiyyətlidir. Düzdür, bir sıra hallarda sosial stereotiplər subyektin qavrayışının düzgünlüyünə və dəqiqliyinə xələl gətirə bilir, yəni «hazır mülahizələrə, təsəvvürlərə» əsasən gerçəkliyi əks etdirmək və qiymətləndirmək qeyri-adekvatlığı ilə də diqqəti cəlb edir. Başqa sözlə, sosial stereotiplə qavranılan, dərk edilən obyekt haqqında məhdud informasiyaların olması şəraitində, xalq ifadəsi ilə deyilsə, başqalarını yaxşı tanımadan onun haqqında fikir yürütmək, onu bu və ya digər nöqteyi-nəzərdən qiymətləndirmək səhv nəticələrə də gətirib çıxara bilər, hətta mühafizəkar, bəzən də mürtəce səciyyə daşıya bilər. Odur ki, sosial stereotipin həqiqi və yanlış olması konkret şəraitin və faktların təhlili əsasında təyin edilə bilər. Bir cəhət də nəzərə alınmalıdır ki, istənilən sosial stereotip bir halda həqiqi olarsa, başqa halda tamamilə yanlış, hətta yalan ola bilər. Yəni o, şəxsiyyətin ətraf mühitdə öz mövqe və istiqamətini təyin etmək üçün səmərəsiz və ya əlverişsiz yol seçə bilər. Deməli, burada stereotipləşdirmə adekvat şəkildə baş verməmişdir.

Professorlar Ə.S.Bayramov və Ə.Ə.Əlizadə elməqədərki psixologiyanı eyni zamanda «güzəran psixologiyası» adlandırırlar. Ona, yazırlar: «Güzəran psixologiyasına aid biliklərin mənbəyini ictimai və şəxsi təcrübə təşkil edir. Hələ qədim zamanlardan başlayaraq bu biliklər nəsildən-nəslə verilmiş müxtəlif obrazlı ifadələrdə, atalar sözlərində, bayatılarda, nağıllarda, dastanlarda və s.-də özünün əksini tapmışdır. Bizim hər birimiz bu bilikləri ətraf adamlardan, eləcə də şifahit xalq ədəbiyyatı vasitəsilə mənimsəyirik. İnsanın şəxsi təcrübəsində həmin biliklər daha da dəqiqləşir, yeni məna çalarları kəsb edir». İnsanlar lap qədimlərdən qarşılıqlı münasibətlərdə olduqları, ünsiyyətə girdikləri insanları öyrənməyə, anlamağa, dərk etməyə çalışmış, bunun üçün müşahidələr aparmışlar. Tədricən toplanan biliklər ümumiləşdirilmiş, dildən-dilə, ağızdan-ağıza keçərək ümuminin, hamının qəbul etdiyi fikirləri olmuşdur. Bunlar bayatılar, nağıllar, atalar sözləri, nəğmələr, laylalar, miflər, əfsanələr və s. şəklində, lakonik dillə çatdırılmışdır. Demək olar ki, elmi psixologiyanın tədqiq etdiyi sahələr içərisində elə bir problem yoxdur ki, xalq yaradıcılığında da ondan bəhs olunmasın, münasibət bildirilməsin. Xalq yaradıcılığında xalqın düşüncə və davranış tərzi, ayrı-ayrı dövrlərdə baş verən hadisələrə münasibəti öz əksini bariz şəkildə tapır. Yəni hadisələrə münasibət, onun təhlili, ümid və istəklər bu yaradıcılığın əsasını təşkil edir. Psixoloji fikrin yaranması və inkişafının digər bir istiqaməti isə yazılı ədəbiyyat, filosof və yazıçıların, şairlərin yaradıcılığıdır. Bu mənada «Kitabi-Dədə Qrqud» dastanları, Nizami, N.Tusi, Nəsimi, Füzuli, M.F.Axundov, Sabir, C.Məmmədquluzadə və digər mütəfəkkirlərin yaradıcılığı Azərbaycan psixoloji fikrinin yaranması, inkişafı və formalaşmasında əhəmiyyətli rol oynamışdır. Onların yaradıcılığı bir tərəfdən xalqın təfəkkür tərzinin inkişafına təkan vermiş, digər tərəfdən bu əsərlərin özündə həyat reallıqları əksini tapmışdır. Yəni Azərbaycan xalqının keçdiyi inkişaf yolunun mərhələlərini müəyyənləşdirməkdə bu əsərlər gözəl bir mənbədir.

Professor Ə.S.Bayramov yazır: «Hər bir xalq və ya etnos özünü düzgün dərk edib qiymətləndirmək və tərəqqiyə nail olmaq üçün yalnız özünün sosial-iqtisadi tarixi keçmişinə deyil, həm də öz psixoloji keçmişinə dərindən bələd olmalıdır». Azərbaycan xalqının islam dininin Azərbaycana gəlişinə qədərki həyat, məişət və təfəkkür tərzi şifahi xalq ədəbiyyatında və «Kitabi-Dədə Qrqud» dastanlarında çox bariz şəkildə öz əksini tapmışdır. Dastanda totemizmin, şamanizmin, çoxallahlığın xeyli açıq və gizli əlamətləri vardır. Əsərdə Basatı aslan bəsləyir və eyni zamanda Basat deyir: «Anam adın sorar olsan Qaba Ağac, atam adın deyirsən Qocan Aslan, mənim adım sorarsan Arzu oğlu Basat». Dastan belə başlayır: «Xanım hey!» Belə bir başlanğıc, «hey» nidadır, niskildir, çağrışdır. Əl çatmayan, tüb keçmiş, yanğı yaradan bir hissdir. Daxilin, genin, idrakın uyğunlaşdığı bir mühitə düşərək xiffəti, fəryadıdır. Tarixçi Gizo yazırdı: «Elə ki, xalqların arxasında uzun və şərəfli tarix durdu, onlar nə qədər çalışsalar da, bu keçmişdən ayrıla bilməyəcəklər. Onlar hətta bu keçmişi məhv etməyə çalıdıqları zaman belə onun təsiri altında olacaqlar». Qədim turklər islamdan qabaq çoxallahlı idilər. Onlar öz qılınclarına and içir, suyla xəbərləşir, qurd üzü mübarəkdir deyirdilər. Deməli xalqın etnogeni ilə mühiti arasında uyğunluq olduqda xalq inkişaf edir. Onların arasında ziddiyyət olduqda isə mənəviyyatda, əxlaqda deformasiya baş verir. Bəzən xalqın etnogeninə, düşüncə tərzinə yad, yabançı olanı ona doğru, düzgün kimi təqdim edir, inandırmağa çalışırlar. Psixoloji fikrin inkişaf mərhələlərinin müəyyənləşdirilməsində şifahi xalq ədəbiyyatının, klassiklərimizin yaratdıqları əvəzsiz xəzinədir. «Kitabi-Dədə Qorqud»da başlıca ideyalardan biri əsarətdən, mütilikdən, kökünə, soyuna dönük çıxmaqdan ölümün üstün tutulmasıdır. Etibar, inam, sədaqət, ləyaqət aparıcı xəbərlərdən birini təşkil edir. Beyrəyin nişanlısı yalnız onun dirisinə yox, ölüsünə də sadiq qalacağını bildirir: «Erkək sinəyi (milçəyi) üzərimə qondurmam»,-deyir. Dastanda ən çox diqqəti cəlb edən azadlıq, azad fikir, qadın və kişi bərabərliyi, qadının uca, yüksək tutulmasıdır. Qanlı Qoca oğlu Qan-

turalı evləndirmək istəyir və ondan nə sayaq qız istədiyini soruşur. Qantural deyir: «Baba, mən yerimdən durmadan ol durmuş ola, mən qanlı kəfər əlinə varmadan ol varmış, mənə baş gətirmiş ola». Mərdlik, məğrurluq, qeyrət enilə qıza, qadına da xas olub. Ərləriylə, sevgiləriyilə bu meydanda döyüşən qadınlar eyni zamanda onların qururunu sındırmamağa, kişilərin yanında qürrələnməməyə çalışıblar: «Öyünərsə ər öyünsün-aslandı. Öyünməklik övrətlərə böhtandır. Öyünməklə övrət ər olmaz»,-deyiblər. Dədə Qorqud dünyasının əxlaq qaydaları, mərdlik, ləyaqət, şərəf, nəciblik anlayışları azərbaycanlı psixologiyasının, xarakterinin təməlidir. Zaman-zaman dəyişən, zənginləşən, bəziləri itib-batan, bir çox keyfiyyətləri deformasiyaya uğrayan azərbaycanlı psixologiyasının etnogeni, nüvəsi Dədə Qorqud dövründə təşəkkül tapmış, formalaşmışdır. Dədə Qorqud fəlsəfəsi bəşəridir, ölməzdir, insanı saflaşdırandır. «Hanı dediyim bəy ərənlər? Dünya mənim deyənlər? Əcəl aldı, yer gizlədi, fani dünya kimə qaldı? Gəlimli, gedimli dünya. Son ucu ölümlü dünya» Azərbaycanda psixoloji fikrin birinci mərhələsi eramızdan əvvəl başlayıb, islam dininin Azərbaycana gəlişiylə başa çatır. Neçə əsrlər boyu paralel yaşadı. Elə bugünkü günümüzdə də bu paralelliyin bir çox cəhətləri davam edir, yaşayır: adət-ənənələrimizdə, andımızda, xarakterimizdə. «İslamiyyətdə milli mənsubiyyət yoxdur» şüarı ilə Azərbaycan dünyasına daxil olan islam dini millətlərin, xalqların müxtəlifliyini, özünəməxsusluğunu, milli simasını dini biliklərlə əvəz etməyə çalışdı. Bu isə təfəkkürdə, düşüncədə inam və əqidədə yeniləşmə demək idi. İslam dini təkcə qılıncla yox, siyasətlə, ideologiya ilə, şüurlara təsirlə, inandırma yolu ilə yayıldı. Bu yayılma müəyyən müddət türk dilinin sıxışdırılması, fars və ərəb dilinin yayılması idi. Yalnız XV-XVI əsrlərdən başlayaraq yenidən türk dili ədəbiyyata, mədəniyyətə qayıtmağa başladı. Xətai, Füzuli kimi böyük şairlər yetişdi. Aşıq şeiri inkişaf etdi. Bu, xalqın təfəkkürünün, oyanışının, şüurunun yeni dövrü idi. Xalq fars, ərəb təsirindən qurtulub, kökünə qayıtmaq istəyirdi. Bu, yeni qayıdış idi. Artıq bu dövrdə qədim türklərdəki adət-ənənə-

lər, qadın sərbəstliyi, inamlar dəyişmişdi. Əgər islam dini ərəblərə inkişaf, qadın hüququ, cəhalətdən qurtarmaq imkanı vermişdisə, qədim türklərin bir çox sərbəstliyi, azadlığı buxovlanmışdır. İslam dininin Azərbaycana gəlişi ilə burada ərəb, fars, türk və digər etnos və xalqların dünyagörüşü, mədəniyyəti, adət-ənənələrinin sintezindən yeni mədəniyyət, yeni təfəkkür yaranmağa başladı. Farsların ədəbiyyatı, ərəblərin fəlsəfəsi, türklərin ictimai-siyasi, sosial-iqtisadi təfəkküründən, adət-ənənələrindən yeni dünyagörüşü yarandı. Şəxsiyyətin formalaşmasında orta əsrlərdən başlayaraq tərbiyə ön plana keçdi. Şair, filosof, mütəfəkkirlərin əsərlərində nəsihətçilik əsas yer tutdu. Mənəviyyat məsələləri önə keçdi. Yalnız mənəviyyat, maddidən imtina çağrışları öz təsirini göstərdi. Maddiliyin ikinci olması maddiyə maraq və tələbatı artırdı. Lakin bu, aşkar deyil, gizli mahiyyət daşıdı. Ona görə də deyilirdi: «Vaiz özü lüm-lüm udur batində, ancaq zahirdə dediyi mənaya bir bax». Bu mənada məşhur hind filosofu Vivekananda gözəl deyib: «Şərqin heyratamiz ruhi nailiyyətlərini Qərbin eyni dərəcədə heyratamiz maddi nailiyyətləri ilə bölüşdürmək lazımdır». Müxtəlif dövrləri, ictimai-tarixi şəraiti öyrənən əksər tədqiqatçılar konkret tarixi tarixi şəraitdə yaşayan insanların dünyagörüşü, şəxsiyyəti və mənaviyyatını tədqiq edərkən həmin dövrün insanlarının psixologiyasının öyrənilməsini vacib şərt kimi irəli sürmüşlər. Belə yanaşmanın səmərəliliyi bir də ondadır ki, hər bir konkret həyat tərzi, mənəvi dəyərlər baxımından bənzərsiz, tərkolunmazdır. Bütün bunlar isə insana özünün təsirini göstərir, ictimai-tarixi şəraitə uyğun şəxsiyyətlər formalaşdırır.

Məlumdur ki, qədim dövrün insanlarının daxili dünyası, xarakteri, maraqları, tələbatı orta əsrlərin və müasir dövrün adamlarından fərqli olmuşdur. Əlbəttə, biz bu fərqləri heç də bütləşdirmək istəmirik. Bu fikri qəbul edirik ki, adət-ənənə, tarixi və mədəni nailiyyətlər nəsildən-nəslə keçərək eyni millətə, xalqa, coğrafi məkana məxsus insanlarda əsrlər boyu davam edən oxşar xarakterli, dünyagörüşlü, uyğun psixoloji tipli şəxsiyyətlər də formalaşdırır. Nizami, Xəqani,

Füzuli və digər mütəfəkkirlərin yaradıcılığında həm qədim türk, həm də islam dəyərləri bir tərəfdən qovuşmuş, vəhdətdə götürülmüş, digər tərəfdən ziddiyət təşkil etmişdir. Nizami şeyxdir, islamın təbliğattçısıdır. Əsərlərini fars dilində yazıb. Amma mənşəcə, xaraktercə türkdür. O, əsərlərində 350-dən artıq türk adı işlədib. Türkə xas olan keyfiyyətləri onun kimi dəqiq heç kim göstərə bilməyib. O, türkçülüyün əsl təbliğatçısı olub, bütün yaxşı keyfiyyətləri onun adı ilə bağlayıb. Lakin onun özü də etiraf edir ki, bir çox hallarda nə qədər axtarsa da, müəyyən qənaətə gəlməkdə çətinlik çəkib: Nə qədər oraya at çapsam da mən, bir xəbər gətirmək gəlmir əlimdən - deyir. Professor Ə.S.Bayramov yazır: «Nəsiminin təbliğ etdiyi fikir və mülahizələr, görüşlər və dövrün hakim islam dini ideyalarının tamailə əksinə olmuşdur. Buna görə də onun şeirlərini oxuyanlar belə ölüm təhlükəsinə məruz qalmışlar». Orta əsrlərdə, o cümlədən 1613-cü ildə I Şah Abbasın (1587-1629) Osmanlılara qalib gəlməsindən sonra Qafqazdan İrana xeyli əhali köçürüldü. Təbrizdən xeyli əhali İsfahana gətirildi. Belə yerdəyişmələr, təbii ki, o dövrün adamlarının dünyagörüşünə təsir edir, adət-ənənələri dəyişdirdi. Orta əsrləri Şərqin intibah dövrü də adlandırırlar. Bu dövrdə Bağdada, Dəməşqdə, Qahirədə və digər şəhərlərdə yeni-yeni elm ocaqları yaradıldı. Elmin müxtəlif sahələrində nailiyyətlər qazanıldı, görkəmli şəxsiyyətlər yetişdi. Bu dövrdə ərəb və fars dili, adət-ənənəsi yuxarı dairələrdə, ədəbiyyatda geniş yayılsa da, sadə xalq arasında türk dili, türk ənənəsi qorunub saxlanılırdı. Azərbaycan xalqının psixologiyası da məhz bu zəmində formalaşırdı.

XVIII əsrin sonları-XIX əsrin əvvələrində belə mürəkkəblik, ziddiyət, dolaşıqlıq azmış kimi, dini, düşüncəsi, həyat tərzi tamamilə fərqli olan ruslar Azərbaycana daxil olur. psixoloji fikrin ikinci mərhələsi başa çatır, üçüncü mərhələbaşlayır. Formalaşmış bir çox keyfiyyətlər, xüsusiyyətlər dəyişir. Yeni tip məktəblər açılır. Bir çox mütəfəkkirlər yeni mühitin yaratdığı adamlar oldu. Formalaşmış xüsusiyyətlərlə yeni arasındakı ziddiyyət tədricən yeninin yayılması, güc-

lənməsi ilə nəticələndi. XIX əsrin sonlarına doğru Azərbaycanda maarif, mədəniyyət inkişaf edir, ziyalılar nəsli yetişirdi. Çar Rusiyasından Azərbaycana sürgünlər edilir, vəzifə borcu ilə bağlı çinovniklər gəlir, digər tərəfdən Rusiyada təhsil alanlar, qulluq edənlərin sayı artırdı. A.Bakıxanov, M.F.Axundov, N.Vəzirov, H.Zərdabi və başqaları elmə, mədəniyyətə, dövrə, zamana uyğun, əvvəlkilərdən fərqli, həm də köhnəliyi, fanatizmi tənqid edən əsərlər yaratmaqla bərabər milli, bəşəri hisslərin formalaşması üçün əllərindən gələni edirdilər. M.F.Axundovun 1850-1855-ci illər arasında yazdığı pyeslər nəinki Azərbaycanda, bütövlükdə Şərqdə yeni bir hadisə idi. Orta əsrlərdə qəzəl janrı neçə məşhur idisə, geniş yayılmışdırsa, Axundovdan sonra dram janrları da XIX əsrin ikinci yarısında eləcə geniş yayılmışdı, xalqın maariflənməsində əvəzsiz rol oynamışdı.

XIX əsrin ikinci yarısında-1875-ci ildə «Əkinçi» qəzetinin nəşrinə başlanması böyük, əhəmiyyətli hadisə idi. Bu qəzet Azərbaycanda maarifin, mədəniyyətin, elmin inkişafında önəmli yer tutur. Qəzetin yaradıcısı Həsən bəy Zərdabi nəinki həmin dövrün, eləcə də sonrakı dövrlərin, bundan sonrakı zamanın ən böyük maarifçisi, ziyalısı olaraq qalacaq. Bu dövrdə diqqəti cəlb edən digər bir məsələ isə teatr tamaşalarının göstərilməsi ilə bağlıdır. Oxumağı, yazmağı baxarmayan xalq məhz bu tamaşalar vasitəsilə öz hüquq və azadlıqlarını başa düşür, tədricən onun uğrunda mübarizəyə hazırlaşırdılar. Azərbaycanda neft sənayesinin sürətli inkişafı da psixoloji fikrin inkişafına öz təsirini göstərirdi. Bakı Şərqlə Qərbin, şərq mədəniyyəti ilə qərb mədəniyyətinin qovuşduğu mərkəzə çevrilirdi. Bura həm Şərqdən, həm Rusiyadan, həm də Avropadan insanlar gəlir, iş qurur, işləyir, yaşayır, şəhəri zənginləşdirirdilər. Bir tərəfdən sənayenin tələbatını ödəyən işçilərin hazırlanması üçün məktəblər açılır, təhsil almaq üçün başqa ölkələrə tələbələr göndərilir, mətbuat yaranır, digər tərəfdən qadın hüquqları, şəxsiyyət azadlıqları tapdanırdı. Ona görə də Azərbaycanda maarifçilik hərəkatı genişlənməyə başladı. Bir tərəfdən xalqın inkişafını həyat tərzinin kəskin şəkildə dəyişməsində görənlər,

cəhaləti, avamlığı tənqid edənlər, digər tərəfdə isə təkamülü, tədrisi inkişafı, maariflənməni çıxış yolu kimi görənlər, bu yolda çalışanlar meydana gəldi.

XX əsrin əvvələrini Azərbaycanın yeni bir intibah dövrü hesab edilir. Məhz bu dövrdə çoxsaylı mətbuat orqanı, Şərqdə ilk teatr, opera sənəti yarandı. Xalqın həyat tərzi, düşüncə və təfəkküründə, adət-ənənələrində böyük dəyişiklik baş verdi. XIX əsrin sonuna yaxın köhnəlik tədricən özünün süqutuna yaxınlaşdı. Məişətdən tutmuş həyat və fəaliyyətin bütün sahələrində əvvəlki davranış formaları nadanlıq hesab edilməyə, tifaqlar dağılmağa, münasibətlər başqa şəkil almağa başladı, adət-ənənələr dəyişdi. Hacı həsən ağalar, şeyx nəsrullahlar, xudayar bəylər, məşədi ibadlar sırasından fəxrəddinlər, kefli isgəndərlər, şamxallar ayrılmağa başladılar. İsmayıl Şıxlının «Dəli kür» əsərində bu dövrün bütün çalarları, ziddiyyətləri əks olunub. Məhz bu dövrdən başlayaraq özündə qədim türklərin qanını, mərdliyini, kişiliyini daşıyan cahandar ağaların da məhvi başladı. Böyük Oktyabrın qələbəsindən sonra SSRİ adlanan məkanda bir sistem yarandı. «Öyünərsə, ər öyünsün, aslandı, öyünmək qadınlara böhtandı» qədim türk qadınlarını sevillər, almazlar, həyatlar əvəz etdi. Bu Azərbaycanda psixoloji fikrin dördüncü mərhələsi idi. Doğrudur, beyrəklər, qaraca çobanlar da balaşlarla, məmmədəlilərlə əvəz olunmuşdu. Elə buradaca qeyd etmək istərdik ki, görkəmli dramaturq Cəfər Cabbarlı bu dəyişikliyi dahiyanə bir şəkildə təsvir etmişdi. Baş verən dəyişiklikdə nəyin yaxşı, nəyin pis olduğunu söyləmək də çətindir. Baniçiçək də, Burla xatun da, Selcan xatun da azaddır, sərbəstdir. Almaz da, Həyat da, Şəhrabanı da azaddır, sərbəstdir. Lakin bu, tamamilə bir-birinə yad, fərqli azadlıqlardır. Beləliklə, yeni insanlar, yeni həyat, yeni düşüncə tərzi yarandı.

Qeyd edək ki, etnik xarakter etnik psixologiyanın və pedaqogikanın mühüm tərkib hissəsidir. O, etnik simanı müəyyənləşdirən başlıca ünsürlərdən biridir. «Kitabi-Dədə Qorqud» da davranış psixologiyası etnik psixologiyanın ayrılmaz hissəsi kimi etnik xarakteri

müəyyən edir. Azərbaycanın görkəmli psixoloqu Əkbər Bayramovun bu sahədə qiymətli fikirləri vardır.

«Kitabi-Dədə Qorqud» dastanlarında etnik xarakter məsələləri şərh edilərkən qeyd edilir ki, etnik xarakter etnik psixologiyanın mühüm tərkib hissəsidir, çünki o, etnik simanı müəyyən edən başlıca ünsürlərdən biridir. Etnik xarakter dedikdə ayrıca bir fərddən asılı olmayan, ümumiləşmiş psixoloji keyfiyyət, etnosun hər bir üzvünün davranış və rəftarında, münasibətlər sistemində bu və ya digər dərəcədə təcəssüm edən psixi xüsusiyyət başa düşülür. Təsədüfü deyildir ki, «etnik xarakter» və ya «milli xarakter», «psixi sima» anlayışı ilə sinonim kimi işlədilir. «Psixi sima» anlayışı etnosa, yaxud bu və ya digər xalqa məxsus sabit psixi xüsusiyyətlərin məcmuyu, yəni sabit etnik-psixioloji hadisə olub, adamların psixi həyatının dəyişkən müxtəlifliyində nisbi dəyişməzliyi ifadə edir. Elə etnik xarakterin də başlıca cəhəti həmin nisbi dəyişməzliyi, nisbətən ümumi və sabit ünsürləri əks etdirməsindədir. Xüsusən də bu anlayışlar güzəran psixologiyası səviyyəsində daha da yaxınlaşdırılır və çox zaman məhz sinonim kimi işlədilir.

Dastanda düşmənlə davranma etnik psixologiyanın möhkəm və sağlam idraka söykəndiyini üzə çıxarır. Heç bir Oğuz bəyi və xanı onların övladları, xanımları kafir və düşmənlərdən qorxmur, onlara münasibətdə ayıq-sayıqlıq göstərir və öz milli xarakterinin təmsilçisi kimi dönməz, mətin və namuslu hərəkətlərilə seçilirlər. Davranışlarında düşmənə mənəvi daxili güclə qələbə çalırlar.

Ə.Bayramova görə, «Dədə Qorqud» dastanlarında da öz əksini tapan etnik xarakter əlamətləri ümumən oğuz etnosunun «psixi siması»nın aynası kimi çıxış edir. Çünki etnik (milli) xarakter hər hansı etnik ümumiliyin ayrı-ayrı nümayəndələrinə nisbətən, sosial qrupda və ya etnik birlikdə daha güclü şəkildə təzahür edir. Yəni etnik xarakter hər bir şəxsiyyət üçün tipik davranış tərzini şərtləndirən, fəaliyyət və ünsiyyətdə təşəkkül və təzahür edən davamlı fərdi xüsusiyyətlərin məcmuyuna çevrilən etnik-psixoloji xassə olur. Buna görə də

xalqa məxsus zəngin folklor materiallarında, xüsusən də dastanlarda etnik xarakter daha çox etnik xüsusiyyətləri öz davranış və rəftarında büruzə verən «modal şəxsiyyətlərin» simasında əks etdirilir. Bu da təsadüfü deyildir. çünki bədii ədəbiyyatın obrazları milli-tipik əlamətləri daha dərindən və hərtərəfli əhatə edir və həmin obrazları onların dinamikasında və sosial tarixi kontekstdə araşdırmaq çox şeyi verir. Bədii ədəbiyyat, xüsusən də tarixi eposlar etnik və milli tiplərin müxtəlifliyini, onların tarixi tipoloji təbiətini, tarixi inkişaf xüsusiyyətlərini açıb göstərir.

Etnik (milli) xarakter əlamətləri müəyyən etnik ümumilik üzvlərinin davranış və rəftarında, hərəkətlərində üzə çıxır və bu etnik ümumiliyin həyat tərzinin ictimai-iqtisadi, siyasi inkişafının xüsusiyyətlərini əks etdirir. Sonra görəcəyimiz kimi «Kitabi-Dədə Qorqud»-dakı oğuzların timsalında bütün bunlar aşkar surətdə nəzərə çarpır.

Oğuzların etnik-psixoloji xüsusiyyətləri etnik xarakterin xüsusi təzahürü kimi qonaqpərvərlikdə, əliaçıqlıqda, sədaqətdə, igidlikdə, dözümdə və s. daha dolğun şəkildə üzə çıxır. Oğuz elinin başçısı «xanlar xanı» Bayandır xan ildə bir dəfə böyük şadlıq məclisi qurur, «atdan ayğır, dəvədən buğra, qoyundan qoç qırdırır», qonaqlıq edirdi. Əksi zamanlardan oğuzlarda belə bir inam vardır ki, əliaçıqlıq, səxavət yüksək mədəniyyətdir. Övlad arzusunda olan Dirsə xan da böyük bir qonaqlıq təşkil edir, ehsan verir, ac gördükdə doyurur, çılpaq gördükdə geyindirir, borclunu borcundan qurtarır. Bu, oğuzlar üçün səciyyəvi haldır, əliaçıqlıqda, səxavətdə təzahür edən etnik xarakter əlamətidir.

Oğuzların qonaqpərvərliyinin əsasında mənəvi tələabatlar, müvafiq sosial, psixoloji motivlər, sərvətlər durur. Bu meyllər oğuzların yüksək mənəvi keyfiyyətlərini müvafiq şəkildə üzə çıxarır. Oğuzlar üçün tipik olan bu əlamət-qonaqpərvərlik, səxavət onların mənəvi simasının güzgüsüdür. Sanki həyat düsturuna çevrilmiş bu psixoloji xarakteristikanı Dədə Qorqud belə ifadə edir: «Qonağı gəlməyən böyük evlər yıxılsa yaxşıdır».

Oğuzların zəngin, rəngarəng mənəvi-psixoloji xüsusiyyətləri ümumi xarakter əlamətlərində daha parlaq şəkildə təzahür edir. Oğuzlar cəsur, igid, qorxmaz, çalışqan, qarşıya qoyduqları məqsədə çatmaqda inadkar və qətiyyətlidirlər.

Soruşula bilər: Azərbaycan xalqının əcdadları olan oğuzlarda belə müsbət xarakter əlamətlərinin olması özünü aydın surətdə göstərdiyi halda, nə üçün bizim dövrümüzdə, eləcə də ümumən XX əsrdə xalqımızda bəzi mənfi xüsusiyyətlər özünü aydın surətdə büruzə verir? Millət, xalq köklü surətdə dəyişmişdir, yoxsa bunun başqa səbəbləri vardır? Nə üçün oğuzlara bu və ya digər qonşu etnos hücum etdikdə onların hamısı asanlıqla birləşir, qadınları da silaha sarılır, öz ərləri ilə birlikdə düşmənə qarşı amansız mübarizə aparırlar, amma bizim günlərdə bütün xalq bunu .zünə müqəddəs borc bilmir, hətta ayrı-ayrı gənclərimiz döyüş meydanında öz silahlarını belə, düşmənə qoyub qaçırlar? Əgər qədim oğuzlarda yetim doyuzdurmaq, ac-çılpaq adamları, xüsusən də uşaqları geyindirmək böyük şərəf, insanlıq borcu, vacib xarakter əlaməti sayılırdısa, bəs nə üçün bizim günlərdə yetimlərin, qaçqın və didərginlərin payını əlindən alıb iştahla yeyən, ona xüsusi göz dikən vəzifəli şəxslərimiz, getdikcə artır?!

Hansı şəraitdə bu cəhət formalaşmışdır və nə üçün XX əsrin əvvəllərindən başlayaraq C.Məmmədquluzadə, M.Ə.Sabir və digər görkəmli sənətkarlar xalqımızın etnik, psixoloji xüsusiyyətlərində, o cümlədən etnik milli xarakterimizdə özünü aydın surətdə biruzə verən və bir sıra adamlarda ifrat həddə varan fərdiyyətçilik, şəxsi mənafeyi hər şeydən üstün tutmaq, tez təsirə qapılmaq, yaltaqlıq, mütilik, öz mənliyini, ləyaqətini qoruya bilməmək, məsuliyyətsizlik, vətənin, millətin taleyinə biganəlik kimi naqisliklərə qarşı kəskin mübarizə aparmışlar?

Həmin suallarla əlaqədar olaraq, iki cəhət xüsusi qeyd edilməlidir. Əvvəla, tarixi şəraitin, sözün geniş mənasında, sosial mühitin dəyişməsi ilə etnik milli xarakterlər də müəyyən təbəddülata uğraya

bilir. Yəni orada bir sıra dəyişikliklər baş verir. Bunu hər bir etnosun, xalqın və ya millətin tarixi təcrübəsi aydın göstərir.

İkinci tərəfdən, belə bir dəyişikliyin məzmun və istiqaməti müəyyən dərəcədə etnosun özünün öz taleyinə, o cümlədən öz xarakter əlamətlərini münasibətindən asılıdır. Yəni xalq, millət hansı (müsbətmi, mənfimi) cəhətlərə rəvac verir, onu inkişaf etdirir məsələsi etnik milli xarakter əlamətlərinin formalaşmasında mühüm rol oynayır.

Fikrimizi cəmləyib bu nəticəyə gəlirik ki, professor Əkbər Bayramov Dədə Qorqud timsallı bir ağsaqqal, yol göstərən, müdrik bir insan idi. ALLAH RƏHMƏT ELƏSİN!

Bəhram Məmmədli,
SDU-nun dosenti, tarix üzrə fəlsəfə doktoru,
respublikanın əməkdar müəllim

Mənim tanıdığım Əkbər Bayramov

Mənim tanıdığım Əkbər Bayramov hələ orta məktəbdə oxuduğu illərdə öz çalışqanlığı və zəhmətsevərliyi ilə yoldaşlarından fərqlənir, tarix elmlərinə xüsusi maraq göstərirdi. Ali məktəbə daxil olmaq, biliklərə dərindən yiyələnmək, elmi və pedaqoji fəaliyyətlə məşğul olmaq arzusunda idi.

Onun elmi fəaliyyətinin əsas məqamarından biri olan etnik psixologiyadan çıxış edərək, ailə-məişət məsələləri, etnik tarix, etnik-mədəni münasibətlər, etnodemoqrafik proseslər, inanclar sistemi,türk xalqları arasında etnogenetik əlaqələri həll etmək mümkündür.

Onun "İslam psixologiyası" kimi maraqlı araşdırmalarında bədii obrazlı və dini obrazlı təfəkkür, elmi və dini uzaqgörənlik, müasir islam və onun xarakterik cəhətləri və digər məsələlər ətraflı tədqiq olunur. Bu məsələləri tədqiq edərkən Əkbər müəllim islam dininə xüsusi diqqət verərək, göstərir ki, bəşər tarixi və mədəniyyətin yüksəlişinə xüsusi mərhələ təşkil edən islam dininin milli-mənəvi dəyərlər sistemində dərindən öyrənilib mənimsənilməsi çox mühüm əhəmiyyətə malikdir. Çünki islam təkcə inam, etiqad və dünyagörüşü deyildir. O, hər şeydən əvvəl insan həyatı və fəaliyyətinin, onun mənəviyyatının bütün sahələri ilə bilavasitə bağlı olan çox mürəkkəb, ziddiyyətli, maddi və mənəvi hadisələr kompleksini əhatə edən sosial-psixoloji, bədii emosional hadisə kimi çıxış edir.

Psixologiyanın problem məsələlərini daha dərindən mənimsənilməsi və elmi fikrin son nailiyyətlərinin onunla əlaqələndirilməsi üçün ənənəvi tədris formalarından fərqli olaraq mühazirə və seminarlara yaradıcı yanaşır, tələbələri elmi işə həvəsləndirir, psixologiya elmlərinə dair müasir mövzular seçib onlara verir, tələbələrin hazırladıqları məqalə və referatlar seminar dərslərində ətraflı müzakirə edilir, məsləhətlər verilir və bu əsasda onların biliyi qiymətləndirdi.

Əkbər müəllim belə hesab edirdi ki, ali təhsil müəssələrinin proqram və tədris planlarında həyatımızın müasir tələbləri ilə səsləşən islamın dini-etik məsələləri ilə bağlı müəyyən mövzular seçilərək daxil edilməli və hər bir ali məktəbin konkret yönümü, məqsəd və vəzifələri nəzərə alınmalıdır. Əkbər müəllim öz mühazirələrində məhz bu məsələlərə xüsusi diqqət yetirir, köhnə tədris formalarından uzaqlaşmağın artıq vaxtı çatdığını bildirir. Ancaq bir məsələni də unutmaq olmaz ki, bu məsələlərdə ehtiyatlı olmalı, islamın tədqiqinə və öyrənilməsinə birtərəfli deyil, obyektiv, olduğu kimi yanaşmaq lazımdır. Çünki bu, olduqca həssas məsələdir, hər hansı bir yanlışlıq müəyyən xoşagəlməz nəticələrə aparıb çıxara bilər.

Zəhmətsevər səmimi bir insan olan Əkbər Bayramov ən müdrik və məhsuldar çağlarında dünyadan köçdü. O, yorulmaq bilmədən elmi-pedaqoji fəaliyyətini davam etdirirdi.

Qarabağda və onun ətrafında baş vermiş faciəvi hadisələrə bir ziyalı, vətənpərvər və alim kimi etinasız qalmamış və ölkəmizin bu gözəl bölgəsinin tarixinin dərindən araşdırılmasını özü üçün vətəndaş borc və aktual vəzifə hesab etmişdir. Onun Qarabağla bağlı tədqiqatları və əsərləri, psixologiya elmindəki bəzi çatışmazlıqların aradan qaldırılmasına yaxından kömək etmiş, eyni zamanda, Qarabağ faciəsilə ağır mənəvi sarsıntı keçirən hər bir azərbaycanlı üçün azda olsa bir təsəlli qaynağı olmuşdur. Bu sahədə bir çox halda novator-alim kimi çıxış edən Əkbər müəllimin son illərdəki elmi fəaliyyəti və tariximizə, o cümlədən Qarabağ tarixinə, dair araşdırmaları və əsərləri Azərbaycan xalqına unutdurulan keçmişini xatırlamağa, milli kimliyi və mənsubiy-

yətini dərk etməyə, milli ruhun oyanması və yüksəlməsinə xidmət etmişdir. Onun əsərləri hər birimizə Qarabağın Azərbaycan milli məfkurəsinin qaynaqlandığı məkanlardan biri olduğunu və tariximizdə nə qədər mühüm yer tutduğunu göstərmiş, eyni zamanda, tariximizə, dilimizə, mədəniyyətimizə sahib çıxmağa, milli-mənəvi dəyərlərimizi qoruyub saxlamağa, xalqımızı ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi naminə milli birliyə və həmrəyliyə səsləndirmişdir.

Əkbər müəllim heç bir zaman Azərbaycan, o cümlədən Qarabağ, tarixini saxtalaşdıranlara qarşı mübarizədə seyrçi qalmamış və erməni müəlliflərinin və ermənipərəst müəlliflərin Azərbaycana qarşı ideoloji təxribatlarını, böhtanlarını, saxtakarlıqlarını, onların Dağlıq Qarabağ haqqında iddialarını və yalanlar uydurub həmin yalanları tarixi həqiqət kimi təqdim etmək cəhdlərini qətiyyətlə ifşa edərək, məqalələri və əsərləri ilə onlara tutarlı cavablar vermişdir. Əkbər müəllim öz əsərlərində bu kimi iddiaların əsassız, qərəzli və uydurma xarakter daşıdığını tarixi sənəd və dəlillərlə açıq-aşkar sübuta yetirmişdir.

Əkbər Bayramovun yaradıcılığının bir qolu da doğma etnik psixologiyadaı. Əkbər müəllim elmi əsərləri və məqalələrində ermənilərin hiyləgərliyi və ikiüzlülüyünü ifşa etməklə yanaşı, bir çox halda, Ermənistan və Rusiya mətbuatında Azərbaycana qarşı yönəlmiş və tariximizi saxtalaşdıran, təhrif edən, erməni millətçilərinin Azərbaycanın əzəli torpaqları olan Qarabağ, İrəvan və digər bölgələrinə ərazi iddialarına haqq qazandıran bir çox erməni və ermənipərəst rus, gürcü müəlliflərinə tarixi sənəd, dəlil və faktlarla mətbuatda operativ olaraq kəskin cavablar vermişdir.

Zəngin həyat təcrübəsi olan Əkbər müəllimin layiqli və şərəfli ömür yolu gənclərimiz üçün tükənməz və gözəl bir nümunədir.

Mahal Qacarlı,
BSU-nun dosenti, tarix üzrə fəlsəfə doktoru

İstedad və zəhmətin vəhdəti

Hər bir insan həyatı boyu neçə-neçə insanlarla ünsiyyətdə və təmasda olur. Onların böyük bir qismi həyatımızın məhz müəyyən dövrlərində fəaliyyətimizin xüsusiyyətlərindən, əhatə dairəmizdən asılı olaraq bizim üçün "əhəmiyyətli" insanlara (qonşu, yoldaş, tanış, dost, müdir, müəllim və s.) çevrilir, illər keçdikcə isə yerini hiss etdirmədən digərlərinə verib asanlıqla, xatirələrimizdə elə də böyük izlər buraxmadan başqaları ilə əvəz olunurlar. Çox az-az insanlar olur ki, onlar bizim həyatımızın istiqamətinin, həyat yolumuzun müyyənləşməsində, düşüncələrimizin, ideyalarımızın formalaşmasında xüsusi rol oynayaraq "əhəmiyyətini" heç zaman itirmir, əvəzedilməz insana çevrilirlər. Mənim həyatımda bu cür əhəmiyyətli rol oynayan, əvəzedilməz izlər buraxan, sözün əsl mənasında dəyərli müəllimim, pedaqoq, psixologiya elmləri doktoru, əməkdar elm xadimi, professor Əkbər Bayramov haqqında xatirələrimi bölüşmək mənim üçün çətin olduğu qədər də, şərəflidi.

Əkbər Bayramov ömrünü psixologiya elminə, onun inkişafına həsr etmiş bir alim olmaqla yanaşı, peşəsini dərindən sevən, onun əhəmiyyətini, dəyərini anlayaraq başqalarını da bu sevgiyə yoluxdurmağı bacaran insan idi. Görünür, məhz bu keyfiyyəti onu istənilən mövzuda "psixoloji tərəflər" axtarmağa, hər bir situasiyaya "psixoloq gözü" ilə baxmağa sövq edirdi. Qeyd olunan cəhət onun bir müəllim, alim, elmi rəhbər kimi psixologiya elminə yenicə qədəm qoymuş

tələbələrində görmək istədiyi, aşıladığı vacib keyfiyyətlərdən idi. Demək olar ki, hər konsultasiyada, görüşdə ortaya hansısa bir fakt, hadisə (müasir elmi dildə desək "case") gətirilir və onun psixoloji yorumunun verilməsi tələbi qoyulurdu.Bu cür psixoloji yanaşmalar, yorumlar sayəsində o tələbələrini özünü bir peşəkar psixoloq kimi hiss etməsinə, psixoloq kimi düşünməsinə, hadisələrə münasibətini bildirməsinə nail olurdu. Onun yanında, ətrafında olduqda həmişəözünün peşəkar, elmi bir mühitə düşdüyünü hiss edirdin. Hansı ki, bu cür mühiti indi də, bəzən tapmaq çox cətin məsələdi.

Elmi rəhbər kimi çox tələbkar olmaqla bərabər, tələbələrində elmə ciddilik, məsuliyyət, yaradıcılıq, inkişafa həvəs yaradan bir pedaqoq idi. Onun rəhbərliyi altında işləmək etiraf edim ki, bir o qədər də asan olmasa da, məhsuldar və maraqlı idi. Yazdığım hər bir cümlə, hər bir sətirə onun tərəfindən olan diqqət, bəlkə də, çoxlarının, bəzən hətta özümün də əhəmiyyətsiz hesab etdiyim xırdalıqlara onun tərəfindən edilən iradlar məni səbirsizləşdirsə də, sonradan məhz həmin münasibətin sayəsində bir peşəkar kimi vacib vərdişlərə müəyyən dərəcədə yiyələndiyimi hiss edirdim.

Əkbər Bayramov uzun illərdən sonra 1990-cı ildə indiki BDU-da respublikamızda psixoloq kadrlarının hazırlanması üçün psixologiya fakültəsinin açılmasında müstəsna rol oynamış və həmin fakültənin ilk dekanı olmuşdur. 1992-ci ildə yeni yaradılan həmin fakültəyə qəbul olunanlardan biri də mən olmuşam. Psixologiya elminin dərinliyinə, zənginliyinə bir o qədər bələd olmayan tələbələrdən biri kimi, məhz universitet həyatının ilk günü və ilk dərsiniixtisasının vurğunu, peşəkarı olan Əkbər müəllim kimialimlə "İxtisasa giriş" etmək mənim kimi neçə-neçə tələbələrin həyatında unudulmaz izlər buraxmışdı. Zahiri görünüş baxımından bir o qədər də canlı-cüssəli, nəhəng olmasa da, asta səslə, sakit danışsa da, mühazirələrdə onu dinləyərkən çox nəhəng, xarizmatik insan təəssüratı yaradırdı. Onun mühazirələrində auditoriyada qəribə bir sakitlik hökm sürürdü və dərsin necə gəlib-getdiyini hiss etmək olmurdu. Sakit səslə (maksi-

mum səviyyədə diqqətlə dinləyirdik ki, deyilənlərdən nəyisə nəzərdən qaçırmayaq), aramla deyilən elmi müddəalar maraqlı misallar, faktlar, yerində deyilmiş duzlu-məzəli məsəllər, zarafatlar fonunda çox maraqlı və yaddaqalan idi.

Onun tərtib etdiyi və müəllifi olduğu, ali məktəb, universitet tələbələrinin bu gün də əsas dərs vəsaiti kimi istifadə etdiyi "Psixologiya", "Sosial psixologiya", "Etnik psixologiya" və s. kimi psixologiya elminin müxtəlif sahələrini əhatə edən 30-a yaxın dərslik, dərs vəsaitləri respublikamızda psixologiya elminin inkişafına, bu sahədə kadrların hazırlığına verdiyi töhvələrdəndir. Respublikamızda Azərbaycan dilində nəşr olunmuş dərslik və dərs vəsaitlərinə olan tələbatı, bu sahədə qıtlığı, bu gün də mövcud olan boşluqları və peşəkar səviyyədə hazırlanmış bu kimi kitabların yazılmasının ağırlığını nəzərə alsaq bu nəşrlərin elmimiz üçün dəyərini anlaya bilərik.

Əkbər müəllimin Azərbaycan ədəbiyyatına, folkloruna mükəmməl səviyyədə bələdliyi və sevgisi bir çox elmi- psixoloji faktların bu nümunələrlə bağlamasına, xalqımızın uzun illərdən bəri güzəran təcrübəsində qazandıqları ilə əlaqələndirməsinə zəmin yaratmışdı. O, haradasa aparılmış hansısa bir tədqiqiqatı kor-koranə oxumaq, öyrənmək yox, onu xalqımızın düşüncə, adət-ənənə, yaşayış tərzi ilə əlaqələndirərək, etnik xüsusiyyətlər aspektindən təhlil etməyə, araşdırmağa çalışırdı. Baxmayaraq ki, Azərbaycan bölməsində təhsil almışdım, azərbaycandilli ailədə, mühitdə böyümüşdüm, onunla hər görüşdə özümün nə qədər çox şeylərdən məlumatsız olduğumun acizliyini yaşayırdım. Gündəlik danışığımızda işlənilməyən, artıq çoxdan unudulub gedən sözlər, kəlimələr, misallar onun tərəfindən o qədər mənalı və maraqlı bir şəkildə ifadə olunurdu ki, onunla elmi rəhbər kimi ilk görüşdən sonra Azərbaycan dilinin izahlı lüğətini alıb stolüstü kitabıma çevirmişdim. İlk dəfə kurs işi ilə bağlı yazılarımı yanına aparanda işimə göz gəzdirib gözlənilmədən məndən "sacayağın" nə olduğunu, nə məna ifadə etdiyini soruşmuşdu. Açığı o zaman bu mənə birbaşa işimə aidiyyatı olmaması səbəbindən qəribə gəlsə də,

bununla bağlı kiçik araşdırma aparmışdım. Elmi işin mövzusu, başlıqlarla bağlı müzakirələr aparanda hər dəfə məndən ən azı 10 variantda, müxtəlif formalarda ifadə olunmuş nümunələr tələb edirdi. Hansısa psixoloji fenomeni təhlil edəndə mütləq Azərbaycan ədəbiyyatına, folkloruna, güzəran təcrübəsinə müraciət etməmi, təhlillər aparmamı tövsiyə edirdi. Bütün bunların onun bir mükəmməl pedaqoq kimi tələbələrində araşdırma bacarığı, kreativlik, öz dilinə, xalqına, kökünə sevgi və hörmət hissini aşılamaq istəyindən irəli gəldiyini bir pedaqoq kimi bu gün yaxşı anlayıram və bu təcrübədən istifadə etməyə çalışıram. Onun mühazirələrini, dəyərli məsləhətlərini dinləmək, onun rəhbərliyi altında işləmək fürsətini qazandığım üçün həyatda özümü çox şanslı hesab edirəm.

Əkbər MÜƏLLİM alim, peşəkar mütəxəssis, vətənini, xalqını sevən, özünün yüksək insani keyfiyyətləri ilə nümunə olmağı bacaran bir insan kimi mənim kimi neçə-neçə tələbələrinin yaddaşlarında qoyub getdiyi gözəl xatirələri ilə yaşayacaqdı.

Lalə Cabbarova,
Psixologiya üzrə fəlsəfə doktoru, dosent

Bayramov Əkbər Salman oğlu – psixologiya elminin fədaisi

Əkbər Salman oğlu 30 dekabr 1930-cu ildə Ağdam rayonunun Əlimədətli kəndində anadan olmuşdur. O, Əlimədətli kənd 7-illik məktəbini (1945), Ağdam Pedaqoji Texnikumunu (1945-1949) və Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin məntiq-psixologiya şöbəsini (1949-1954) əla qiymətlərlə bitirmiş, Universitetin Böyük Elmi Şurasının qərarı ilə psixologiya ixtisası üzrə aspiranturaya tövsiyə edilmiş və Azərbaycan Pedaqoji İnstitutunda psixologiya ixtisası üzrə aspiranturada təhsil almışdır (1954-1957). Ə.S.Bayramov APİ-də aspirantura şöbəsinin müdiri (1957-1958), elmi işlər üzrə prorektorun köməkçisi işləmişdir (1958-1960).

Elmi yaradıcılığı

1959-cu ildə «Təfəkkürün müstəqillik və tənqidiliyinə görə III - IV sinif şagirdlərinin fərdi xüsusiyyətləri» mövzusunda namizədlik və 1969-cu ildə «Kiçik məktəb yaşlı şagirdlərdə təfəkkürün müstəqillik və tənqidiliyinin inkişaf dinamikası» mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1960-1970-ci illərdə APİ-nin psixologiya kafedrasında baş müəllim, dosent, professor vəzifələrində işləmişdir.

1965-1969-cu illərdə əvəzçilik üzrə Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutunda baş elmi işçi işləmiş və həmin illərdə İstitutun psixologiya laboratoriyasının digər əməkdaşları ilə birlikdə təlimdə şagirdlərin fəallaşdırılması və onlarda idrak proseslərinin inkişaf etdirilməsinin psixoloji problemləri ilə bağlı tədqiqat işləri aparmışdır. Ə.S.Bayramov eyni zamanda Yerevan Pedaqoji

İnstitutunun Azərbaycan bölməsinə kömək məqsədilə əvəzçilik üzrə (1965-1983) orada işləmişdir.

1970-1971-ci illərdə APİ-də psixologiya kafedrasında professor, 1971-1992-ci illərdə ADU-da pedaqogika və psixologiya kafedrasının müdiri, 1992-ci ildə kafedralar ayrıldıqdan sonra BDU-də psixologiya kafedrasının müdiri, 1999-cu ildən həmin kafedrada professor vəzifəsində işləmişdir.

1960-2004-cü ilə kimi keçmiş sovetlər ölkəsi məkanında, xarici ölkələrdə, xüsusən də respublikada keçirilmiş bir çox elmi konfrans və simpoziumlarda, eləcə də beynəlxalq elmi konqreslərdə fəal iştirak etmiş, psixologiya elminin aktual problemlərinə dair maraqlı elmi məruzələrlə çıxış etmişdir.

1955-2004-cü illərdə Ə.S.Bayramovun 46-ya qədər monoqrafiya, dərslik, dərs vəsaiti, elmi-kütləvi kitablar və 250-dan artıq elmi məqalə və məruzə tezisləri nəşr edilmişdir. Eyni zamanda o, psixologiya elminin, təlim-tərbiyənin aktual məsələlrinə dair 270-dən artıq qəzet məqaləsinin müəllifidir. Psixologiya, pedaqogika, məntiq və s. elmlər üzrə o, 35-dən artıq dərslik, dərs vəsaiti və monoqrafiyanın elmi redaktoru olmuşdur.

Psixologiya elmləri doktoru, professor Əbdül Əlizadə haqlı olaraq yazır ki, «Elmin zirvəsinə yol fədakarlıqdan və istedaddan keçir. Ancaq ağır zəhmətə qatlaşanlar, bütün həyatının mənasını elmə həsr etməkdə görən istedadlı şəxslər bu zirfəyə yüksələ bilərlər. Bu gün həmin zirvədə duranlardan biri ömrünün müdriklik çağını yaşayan görkəmli psixoloq, əməkdar elm xadimi, professor Əkbər Salman oğlu Bayramovdur. Respublikada psixologiya elminin inkişafında, yeni psixoloqlar nəslinin yetişməsində Əkbər müəllimin xidməti əvəzsizdir».

Ə.S.Bayramovun 1955-ci ildən başlayan çoxsahəli elmi yaradıcılıq fəaliyyətində bir neçə mühüm istiqamət diqqəti cəlb edir.

1. Təfəkkür probleminin, xüsusən də təfəkkürün müstəqillik və tənqidliyinin inkişaf xüsusiyyətləri ilə bağlı araşdırmalar. Həmin təd-

qiqatlarla respublikada eksperimental psixologiyanın inkişafında yeni mərhələ başlanmışdır. O, kifayət qədər öyrənilməmiş mühüm bir problemin - ağlın keyfiyyətləri probleminin tədqiqinə başlamış. Təfəkkür probleminin ayrı-ayrı cəhətləri başqa mütəxəssislər tərəfindən də tədqiq edilmişdir. Lakin həmin tədqiqatlarda təfəkkür proses kimi öyrənilirdi, onu şəxsiyyətlə bağlayan cəhətlərə isə diqqət yetirilmirdi. Ə.S.Bayramov bu baxımdan təfəkkür psixologiyasında mahiyyətcə yeni eksperimental istiqamət müəyyən etdi. O, təfəkkürün müstəqillik və tənqidliyinin inkişaf xüsusiyyətlərini öyrənmək üçün adekvat tədqiqat metodikası işləyib hazırlamışdır. Təsadüfi deyildir ki, o dövrdə xüsusən də Moskvanın, Leninqradın görkəmli psixoloqları istedadlı tədqiqatçının müasirlik hissini, ən başlıcası isə orijinal yaradıcılıq səylərini yüksək qiymətləndirirdilər. Professor Ə.Ə.Əlizadə haqlı olaraq qeyd edir ki, Ə.S.Bayramov özünün sonrakı tədqiqatlarında bu «səmərəli toxumu» necə deyərlər, gərgin zəhmətin sehrində boya-başa çatdırdı. Geniş nəzəri ümumiləşdirmələr apardı, «persepiv» inikasdan tənqidi təfəkkürün müxtəlif səviyyələrinə keçidin qanunauyğunluqlarını müəyyən etdi, müstəqil və tənqidi təfəkkürün funksiyalarını, strukturunu və mənşəyini aydınlaşdırdı. Bu sahədəki tədqiqatlarının nəticələri müəllifin 3 monoqrafiyasında və 58 elmi məqalə və məruzə tezislərində öz əksini tapmışdır.

2. Respublikanın ali məktəbləri üçün psixologiya elminin müxtəlif sahələri üzrə dərslik və dərs vəsaitlərinin yazılıb nəşr edilməsi. Onlardan: «Psixologiya» (1989), «Sosial psixologiya» (1986), «Məhkəmə psixologiyası» (1985), «Məhkəmə psixologiyası və psixoloji ekspertiza məsələləri» (1987), «Etnik psixologiya» (2001) və s. Bununla bərabər, müəllif həmin vacib dərsliklərdən «Psixologiya» (2002) və «Sosial psixologiya» (2003) dərsliklərini professor Ə.Ə.Əlizadə ilə birlikdə yeni proqramlar əsasında yenidən işləmiş və nəşr etdirmişdir. Həmin dərsliklər psixologiya elminin müasir inkişaf səviyyəsini tam dolğunluğu ilə əks etdirir və bununla bərabər həmin dərsliklər Milli

zəmində zəngin ədəbi-bədii irsimizdən yetərincə bəhrələnmək əsasında yazılmışdır.

3. Xalqımızın ədəbi-bədii irsində, «Kitabi-Dədə Qorqud» dastanlarında, xüsusən də klassik sənətkarların (Nizami Gəncəvi, İ.Nəsimi, M.Füzuli, A.Bakıxanov, M.F.Axundov, C.Məmmədquluzadə, M.Ə.Sabir) ədəbi irsində psixoloji ideyaların inkişafı tədqiq edilmiş. Həmin tədqiqatlarla əlaqədar olaraq proessor Ə.Ə.Əlizadə yazır ki: «Son illər Ə.S.Bayramovun yaradıcılığında yeni bir istiqamət formalaşır: Milli psixoloji fikir tariximizin araşdırılması. Azərbaycanda psixoloji fikrin tarixi qədimdir. Təəssüf ki, biz də bu tarixi əsaslı surətdə öyrənməmiş, onun köklərini və qaynaqlarını kifayət qədər tədqiq etməmişik. Halbuki bu məsələlərin öyrənilməsi Azərbaycanda təkcə psixoloji fikrin deyil, bəlkə də ilk növbədə ictimai fikrin inkişaf xüsusiyytlərini yeni materiallar əsasında aydınlaşdırmaq son dərəcə vacibdir. Ə.S.Bayramovun Azərbaycan ədəbiyyatı korifeylərinin-Nizami, Füzuli, Nəsimi, M.F.Axundov, A.A.Bakıxanov və M.Ə.Sabirin psixoloji görüşlərinə həsr olunmuş məqalələri bu baxımdan diqqəti cəlb edir. Nizaminin ölməz əsərlərində rənglərin simvolikası, hürufizmin psixoloji kökləri, Məcnunun autizasiyası – bu mürəkkəb elmi məsələlərin hər biri həmin məqalələrdə sərrast nəzəri ümumiləşdirmələr, dünya psixoloji fikrinin müqayisəli təhlili yolu ilə aydınlaşdırılır. Məsələn, müəllif Nəsiminin özünəməxsus psixoloji konsepsiyasını nəinki qədim hindu və zenbuddizm təlimləri ilə müqayisə edir, həm də onları müasir psixoloji cərəyan və nəzəriyyələr- freydizm və ekzistensial psixologiya istiqamətində araşdırır. Onu da qeyd edək ki, bu məqalələr SSRİ Pedaqoji Elmlər Akademiyasının «Voprosı Psixoloqii» jurnalında, eləcə də, SSRİ EA-nın «Psixoloqiçeskiy jurnal»ında dərc olunmuş və psixologiya tarixçiləri onları yüksək qiymətləndirmişdir». Bununla bərabər, həmin tədqiqatların nəticələri müəllifin 3 kitabında və respublikanın elmi jurnal və toplumlarında nəşr edilən onlarca elmi məqalə və məruzə tezislərində öz əksini tapmışdır.

4. Şəxsiyyətin təşəkkülü, onun özünüdərki və özünüqiymətləndirməsinin psixoloji problemləri ilə bağlı tədqiqatlar. Həmin araşdırmaların nəticələri müəllifin 3 monoqrafiyasında, nəinki respublikada, eləcə də başqa ölkələrdə dərc edilən onlarla elmi məqalələrində öz əksini tapmışdır.

5. Etnik xüsusiyyətlər və etnoslararası qarşılıqlı münasibətlərin psixoloji problemləri ilə bağlı tədqiqatlar. Belə araşdırmalar xüsusən də müəllifin: «Psixoloji düşüncələr» (1994), «Etnik psixologiya məsələləri» (1996), «Kitabi-Dədə Qorqud» dastanlarında etnik psixoloji xüsusiyyətlərin inikası» (2000) və s. monoqrafiyalarında , «Etnik psixologiya» (2001) dərsliyində və onlarla elmi məqalələrində öz əksini tapmışdır. Professor Ə.Əlizadə yazır: «Ayıl xalqım ayıl!» nidası müəllifin «Psixoloji düşüncələr» və «Etnik psixologiya məsələləri» adlı kitablarının əslində leytmotivini təşkil edir və müəllif bu yanğı ilə tez-tez Sabirə, böyük lakin cəfakeş xalqınının taleyüklü problemlərini hələ XX əsrin əvvələrində mütəfəkkir dünyaduyumu ilə görmüş və bənzərsiz psixoloji kontekstdə əks etdirmiş böyük şairə özünün həmdərdli müasiri kimi müraciət edir və hər bir azərbaycanlının qəlbinə hopmuş hikmətli misraların psixoloji qatlarını məharətlə oxuyur. Müəllif yazır: … belə olmasaydı bəs bir əsr ərzində millətimizin, xalqımızın başına gətirilən və dəfələrlə, demək olar ki, eyni ssenari üzrə təkrar edilən fəlakətdən düzgün nəticə çıxarılardı. Başımıza gətirilən faciələr bu etnosun qan yaddaşında vaxtında və dəqiq surətdə həkk olunardı. Kitabda erməni vəhşiliklərinin psixoloji kökləri araşdırılır, nekrofiliya (E.Fromm) anlayışı axarında ermənilərin etnik xüsusiyyətləri psixoloji ədəbiyyatda ilk dəfə olaraq açıqlanır, erməni faşizminin iç üzünü bütün təfərrüatı ilə səciyyələndirmək imkanı verən zəngin materiallar, başqa sözlə inkar edilməz dəlillər əsasında aydınlaşdırılır».

Bir cəhət də qeyd edilməlidir ki, Ə.S.Bayramov xalqımızın ədəbi-bədii irsində etnik psixoloji xüsusiyyətlərin inikası probleminə gənc tədqiqatçıları cəlb etməklə (onun elmi rəhbərliyi ilə həmin

problemlə bağlı 10-a qədər namizədlik dissertasiyası müdafiə edilmişdir) yəni bir psixoloji məktəb yaratmışdır. Heç şübhəsiz, bu da elmimizin inkişafı ilə yanaşı, xalqımızın özünüdərkinə, Milli şüurunun formalaşmasına yaxından kömək etmiş olar. Təsadüfi deyildir ki, professor Ə.S.Bayramov bu məsələyə xüsusi diqqət yetirir.

O haqlı olaraq göstərir ki, «hər bir xalq və ya etnos özünü düzgün dərk edib qiymətləndirmək və mənəvi tərəqqiyə nail olmaq üçün yalnız özünün sosial-iqtisadi tarixi keşmişinə deyil, həm d öz psixoloji keçmişinə dərindən bələd olmalıdır. Yəni etnos və ya xalq kimi olduğunu, özünü nə zaman və necə dərk etdiyini, hansı mənəvi psixoloji keyfiyyətlərə malik olduğunu, necə tərəqqi etdiyini, tarix boyu nə kimi psixoloji dəyişikliklərə məruz qaldığını da yaxşı bilməlidir. Bu isə xalqın etnik - psixoloji xüsusiyyətlərini tarixi planda araşdırmadan, onu ətraflı öyrənmədən mümkün deyildir».

Bu cəhətdən Ə.S.Bayramovun fəaliyyətində söz və əməlin vəhdəti insanı heyran edir. yəni, o, yalnız kiməsə məsləhət görmür ki, öz xalqının psixoloji keçmişinin araşdırılması ilə məşğul olsun, ilk növbədə məhz özü bu sahədə əməli addım atır. Bu cəhətdən Ə.S.Bayramovun belə bir ideyası diqqəti xüsusi olaraq cəlb edir ki, «xalqa məxsus etnik xüsusiyyətlər xalqın folklor və bədii ədəbiyyat materiallarında maddiləşir». O, öz tədqiqatları ilə bu ideyanı əyani surətdə həyata keçirmişdir.

6. Psixologiya elminin aktual problemləri ilə bağlı geniş oxucu kütləsi üçün nəzərdə tutulan elmi-kütləvi əsərlərin yazılması və nəşri. Bu istiqamətdə aparılan işlər müəllifin 6 elmi-kütləvi kitabında, eləcə də müxtəlif jurnallarda dərc olunan onlarla məqalələrdə öz əksini tapmışdır. Bununla bərabər, Ə.S.Bayramov 10 cildlik Azərbaycan Sovet Ensiklopediyası, Kitabi Dədə-Qorqud Ensiklopediyası üçün psixologiya elminin müxtləif problemlərinə aid 58-dən artıq məqalə yazmışdır. Eyni zamanda o, 10 cildlik Azərbaycan Sovet Ensiklopediyasının və 3 cildlik Uşaq Ensiklopediyasının redaksiya nəşriyyat şurasının üzvü olmuşdur. O, nəinki respublikada, eləcə də digər (Ta-

cikistan, Qırğızıstan, İran İslam Respublikası və b.) ölkələr üçün psixologiya üzrə yüksək ixtisaslı elmi kadrlar hazırlanmasında yaxından iştirak etmişdir. Onun elmi rəhbərliyi ilə psixologiya elmi üzrə 35-dən artıq elmilər namizədi və elmlər doktoru dissertasiyası yazılmış, 15-dən artıq magistr dissertasiyasının elmi rəhbəri olmuşdur. bununla bərabər o, keçmiş sovetlər məkanında 10-dan artıq namizədlik və doktorluq dissertasiyalarının rəsmi opponenti olmuşdur. Professor Ə.S.Bayramov 1993-cü ildən 2000-ci ilə kimi M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universitetinin nəzdindəki (n.054.03.04) psixologiya elmləri üzrə ixtisaslaşdırılmış müdafiə şurasının sədri olmuşdur. 2000-ci ildən indiyə kimi Respublika Prezidenti yanında Ali Attestasiya komissiyasının ekspert şurasının üzvüdür.

SSRİ Psixoloqlar cəmiyyəti Azərbaycan şöbəsinin, Azərbaycan Təhsil Nazirliyi Elmi-Metodik Şurasının pedaqogika və psixologiya bölməsinin sədri, Respublika ictimai rəyi öyrənən sosioloji mərkəzin üzvü, onun təşəbbüsü və yaxından köməyi ilə psixologiya elmləri üzrə BDU nəzdində təşkil olunmuş ixtisaslaşdırılmış müdafiə şurasının (1994-2000) sədri, Respublika Ali Attestasiya Komissiyasının ekspert şurasının üzvü olmuşdur (2000-2004).

Ə.S.Bayramov «Fədakar əməyə görə» yubiley medalı (1970), «Şərəf nişanı» ordeni(1976), «SSRİ maarif əlaçısı» (1977) və Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə elm və təhsil sahələrində xidmətlərinə görə «Şöhrət ordeni» (2000), eləcə də bir neçə dəfə Azərbaycan Təhsil Nazirliyinin fəxri fərmanları ilə təltif edilmişdir. 1981-ci ildə ona Əməkdar elm xadimi fəxri adı verilmişdir.

Professor Ə.S.Bayramov zəngin elmi-pedaqoji fəaliyyətinin 35-ildən artıq bir dövrü bilavasitə Bakı Dövlət Universiteti ilə bağlı olmuşdur.

Təhsili, elmi dərəcəsi və elmi adları

~1945-1949-cu illərdə ADU-nun Filologiya fakültəsinin məntiq-psixologiya şöbəsini əla qiymətlərlə bitirmişdir.

~1954-cü ildə Universitetin Böyük Elmi Şurasının qərarı ilə Psixologiya ixtisası ilə aspiranturaya tövsiyə edilmiş və Azərbaycan Pedaqoji İnstitutunda psixologiya ixtisası üzrə aspirantura təhsil almışdır.

~(1954-1957) 1959-cu ildə «Təfəkkürün müstəqillik və tənqidiliyinə görə III - IV sinif şagirdlərinin fərdi xüsusiyyətləri» mövzusunda namizədlik dissertasiyasını müdafiə etmiş və psixologiya elmləri namizədi elmi dərəcəsini almışdır.

~1969-cu ildə «Kiçik məktəb yaşlı şagirdlərdə təfəkkürün müstəqillik və tənqidiliyinin inkişaf dinamikası» mövzusunda doktorluq dissertasiyasını müdafiə etmiş və psixologiya elmləri doktoru elmi dərəcəsini almışdır.

Əmək fəaliyyəti

~2000 – hazırki dövrə kimi – Respublika Prezidenti yanında Ali Attestasiya komissiyasının ekspert şurasının üzvü

~1997 – hazırkı dövrə kimi - BDU-nun psixologiya kafedrasında professor

~1993-2000 – M.Ə.Rəsulzadə adına BDU-nun nəzdindəki (N.054.03.04) psixologyia elmləri üzrə ixtisaslaşdırılmış müdafiə Şurasının sədri

~1992-1997 – BDU-nun Psixologiya kafedrasının müdiri

~1971-1992 – ADU-nun pedaqogika və psixologiya kafedrasının müdiri

~1970-1971 – APİ-də Psixologiya kafedrasında professor

1965-1969 – əvəzçilik üzrə Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnsitutunda baş elmi işçi

1960-1970 – APİ-nin psixologiya kafedrasında baş müəllim, dosent, professor

«Etnik psixologiya», «İnkişaf və istedad», «Milli psixologiyanın aktual problemləri», «İdarəetmənin sosial-psixoloji problemləri», fənləri üzrə mühazirə və seminar dərsləri aparır. 40-a qədər monoqrafiya, dərslik, dərs vəsaiti, 250-dən artıq elmi məqalə və tezisin müəllifidir.

Tədqiqat sahəsi

~Sosial psixologiya

~Beynəlxalq seminar, simpozium və konfranslarda iştirakı [redaktə]

~1960-1995-ci illərdə Rusiyada, həmçinin Pribaltika və Zaqafqaziya ölkələridə keçirilən elmi konfranslarda iştirak etmişdir.

Kitabları

~Psixologiya (Ensiklopediya üçün). Bakı, 2007

~Pedaqoji psixologiya. 19.00.07 - Pedaqoji psixologiya ixtisası üzrə namizədlik minimumunun proqramı. Bakı, 2005

~Azərbaycan Milli Ensiklopediyası: psixologiya elmində işlənilən anlayışların şərhi. Bakı, 2006

~Psixologiya haqqında adı həqiqətlər. Anfas» elmi- kütləvi, ədəbi – bədii jurnal, Bakı, 2008, № 3, s. 16-18-24-26

~Psixologiya. Ali məktəblər üçün dərslik. Bakı, 2002

~İnsan və cəmiyyət. I hissə, Bakı, Təhsil Nəşriyyatı, 2003.

~Sosial psixologiya. Bakı, 2003 (dərslik).

~Hüquq psixologiyası. Dərslik. Bakı, 2009

Fəridə Qasımova,
AMEA Genetik Ehtiyatlar Institutunun doktorantı,
kiçik elmi işçi

III BÖLMƏ

ÖLÜM SEVİNMƏSİN QOY...

Aqil Abbas:
Əkbər Bayramov da çıxdı getdi Ağdama, qaldıq biz

Nə böyük şərəfdi Bakı Dövlət Universitetini bitirmək. Əslində bu universitet deyil ey, Akademiyadı. Elə yarandığı gündən. Bu gün də o missiyanı yerinə yetirir, özü də ləyaqətlə.

Biz bu universitetdə oxuyanda forslanardıq, qoltuğumuzda gəzdirdiyimiz və ya kəmərimizə taxdığımız dəftərlərə iri hərflərlə ADU (o vaxt Azərbaycan Dövlət Universiteti adlanırdı) yazardıq, görsünlər biz harda oxuyuruq ey. Hətta o vaxt belə bir bayatı da vardı:

Əziziyəm, dilən gəz,
Əlini aç, dilən, gəz.
APİ-də xan olunca,
Universitetdə dilən-gəz.

Çox qeyri-adi müəllimlərimiz vardı. Hərdən həmin müəllimlərin haqqında yazıram. Və dünən belə qərara gəldim ki, ümuiyyətlə, universitetdə mənə dərs deyən və dərs deməyən müəllimlərim haqqında xatirələrimi yazım və kitab halında çap etdirim. Niyə dünən? Bizi adam eləyən professor Əkbər Bayramovun ölüm xəbərini eşitdim. Çox duyğulandım, hətta ağladım. Axı niyə yazmayaq ki, Azərbaycanda belə kişilər, belə alimlər, belə pedaqoqlar olub. Biz yazmasaq kim yazacaq?

Əkbər Bayramov! Azərbaycanda psixologiya elminin əsaslarını qoyan bir kişi,qeyri-adi bir müəllim. Eləcə də 91-lərdən biri. 91-lər bilirsiniz də kimlərdi? Mənə dərs deyib. Və heç də sevdiyi tələbə olmamışam. Hərçənd ki, mən də kolanılıydım, o da.

Mən həmişə kolanılarla fəxr eləmişəm: Ziyəddin Göyüşovla, Rəşid Göyüşovla, Bayram Bayramovla, Əkbər Bayramovla, Bəxtiyar Əliyevlə, Rövşən müəllimlə (heyf ki familiyasını unutmuşam), Həmidovlarla, Rəfiyevlərlə, Yusif və İlham İsmayılovlarla, təbii ki, daha çox babam Qaçaq Abbasla.

Sizinlə Əkbər Bayramovla bağlı xatirələrimi bölüşmək istəyirəm.

Əkbər müəllim əvvəllər APİ-də kafedra müdiriydi, sonra gəldi Universitetə. Və bizə psixologiya dərsi deməyə başladı. Qəribəliyi ondaydı ki, bir müəllim kimi çox fərqlənirdi. Əvvəla, adama yovuşmazıydı, hələ heç mən onun gülən sifətini görmədim. Amma çox güclü sarkazmı vardı. Bəzən dediyi sözü bir batman balla yemək olmazdı. Tələbələri sevən idi, tələbələr də onu sevirdi. Ona görə yox ki, Azərbaycanın görkəmli yazıçısı rəhmətlik Mir Cəlal kimi heç kimi kəsməz, heç kəsə aşağı qiymət yazmazdı. Ona görə ki, yuxarıda qeyd etdiyim kimi, tələbələrini sevərdi. Bəlkə də universitetdə dərs dediyi ən zəhləsi gedən tələbələrindən biri mən idim, həm də ən çox sevdiyi tələbələrindən biri mən idim.

Üç-dörd xatirəmi sizinlə bölüşmək istəyirəm.

Seminardı. Məni qaldırdı. Dedim ki, müəllim, hazır deyiləm. Səbəbini soruşdu. Dedim ki, bu gün Bəxtiyar Vahabzadədən kurs

işim var, bütün günü yazdığım qaralamanı ağlamaya köçürmüşəm, ona görə seminara hazırlaşmamışam. Xətrinə dəyən baxışlarla məni süzdü və dedi:

- Oğul, mənim çox gözəl xəttim var, indən belə qaralamanı ağlamaya köçürəndə gətir ver mən köçürüm, əziyyət çəkmə.

Və Əkbər müəllim bilmirdi ki, mən də elə-belə oğlan deyiləm.

Aradan bir iyirmi gün keçdi. Pir olan Firudin Hüseynovun fənnindən bir kurs işim vardı, qaralamanı yazmışdım, səhər dərsə gələndə iyirmi səhifəlik kurs işini apardım qoydum Əkbər müəllimin önünə:

- Müəllim, demişdiniz ki, gözəl xəttiniz var, qaralamanı gətirmişəm köçürün verin.

Altdan yuxarı mənə baxdı və bir söz demədi. Səhərisi günü qaralamanı gözəl xətlə ağlamaya köçürüb Cəmilə Təhmasib gətirdi verdi mənə. Cəmilə xanım həmin kafedranın müəllimi idi, həm imtahanlarda assisenti idi Əkbər müəllimin. Və onu da öyrəndim ki, qaralamanı ağlamaya köçürən Cəmilə xanım olub.

Bəzən onun mühazirələrini çox təəssüf ki, adını yadımdan çıxartdığım APİ-nin müəllimi olan bir alim gəlib deyərdi. Amma bəzən o qədər üzr istəyirdi ki…

… - Balalarım, mənim əzizlərim, mənim sevgili tələbələrim sizdən çox üzr istəyirəm, dəfələrlə üzr istəyirəm, bağışlayın, siz bir qızı sevəndə, ya bir oğlanı sevəndə…

Allah, sən saxla…

… - Balalarım, əzizlərim, mənim sevimli tələbələrim, çox üzr istəyirəm, məni bağışlayın, bu ifadəyə görə, siz ailə quranda…

Bax, belə mənasız üzr istəmələri vardı. Bir gün yenə başladı belə mənasız üzr istəməyə və üzr istəmənin sonunda da məlum oldu ki, biz evlənəndən sonra bizim övladımız olacaq.

Mən də qalxdım dedim ki:

- Müəllim, o qədər üzr istədiniz ki, elə bildim var-yox söyüşü edəcəksiniz.

O müəllim auditoriyadan çıxıb getdi və bir də gördüm ki, dünyada dekanlar dekanı, tələbələrin atası Ağamusa Axundov girdi auditoriyaya və dedi ki:

- Ə, avara, dur auditoriyadan çıx, bir də bu müəllimin dərslərinə girmə.

Və sonra heç o müəllim bir daha bizə mühazirə oxumadı. Sadəcə olaraq növbəti dərsdə Əkbər müəllim məni qaldırıb hansısa böyük şəxsiyyətlərin dediyi bir-iki misal çəkdi, mənası da beləydi ki, bir də belə qələt eləmə.

Əkbər müəllimin qəribə imtahan götürməsi vardı. Bir psixoloq kimi hər tələbənin qiymətini çox gözəl bilirdi. Bir də görürdün imtahandan əvvəl çıxdı bayıra və dedi ki, cəmi yeddi «beş»im var, kim istəyir gəlsin. Təbii ki, dərhal beş alanlar birinci girirdi. Sonra çıxıb deyirdi ki, on iki «dörd»üm var, kim istəyir gəlsin, dördə oxuyanlar girirdi. Sonra çıxıb deyirdi ki, iyirmi dənə «üç»üm var, üç alanlar gəlsin. Onlar gedirdi. Sonra çıxırdı ki, cəmi yeddi dənə «iki» var, gəlsinlər və bizlər girərdik.

Ya da bütün əlli tələbəni yığırdı auditoriyaya. Kimsə sualın cavabını bilməyəndə tələbənin birini qaldırırdı ki, bu suala cavab ver, həmin tələbə suala cavab verirdi, çağırıb onun kitabçasına «beş»ini yazırdı ki,«gedə bilərsən».

Bir dəfə qəribə bir hadisə oldu. Yenə həmişəki kimi dedi yeddi «beş»im var, birinci beş alanlar oturdu onun önündə. Və hamısı da «beş»ini alıb getdi.

Bizdə bir Müslüm vardı şəmkirli balası, indi fəlsəfə elmləri doktorudu, deyəsən Tibb Universitetində çalışır, universiteti qırmızı diplomla bitirmişdi. İmtahana gecikmişdi. Dörd alanları dəvət edəndə o, gəlib çıxdı. Bu «beş»ə cavab verib, amma Əkbər müəllim deyir ki, yox, yeddi «beş»im vardı, hamısını vermişəm, qurtarıb. Bu da yalvarır. Əkbər müəllim dedi ki, onda çıx beş alanlardan birinə de qaytarsın «beş»i, sənə «beş» yazım. Müslüm çıxdı bayıra, o beş alanlardan xahiş edir ki, mənə kömək edin. Kim «beş»ini qaytarar.

Gürcüstanlı balası Tahir Mənsimov vardı (indi deyəsən Bakı şəhər İcra Hakimiyyətində çalışır), girdi içəri, dedi mən «beş»imi qaytarıram, onu yazın Müslümə. Əkbər müəllim güldü və Müslümə də «beş» yazdı. Əslində Əkbər müəllim bir psixoloq kimi eksperimentlər aparırdı.

Elədiyim müəyyən dəcəlliklərə görə qorxurdum ki, məni də kəsə. Bayram Bayramova zəng elədim, dedim ki, Bayram müəllim, səhər Əkbər müəllimdən imtahanım var. Gəldim oturdum «üç»dən sonra çağırılanların siyahısında. Təbii ki, day özünüz başa düşdünüz də…

Əkbər müəllim yavaşca mənə tərəf əyilib qulağıma pıçıldadı:

- Oğul, mən sənə «beş» yazsam həm bu tələbələrin qarşısında hörmətimi itirərəm, həm də özümün. Sənə «iki» yazıram, amma xahiş edirəm çıx Bayrama zəng elə de ki, «beş» almısan. Get hazırlaş, on gündən sonra gələrsən.

Mən də çıxıb Bayram müəllimə zəng etdim ki, «beş» aldım. Amma bu söz mənə necə təsir elədisə, getdim on gün oturdum kitabxanada və psixologiyanı necə öyrəndimsə və bu gün də həmin elm yazıçılıqda mənə kömək edir. Və gəldim kafedrada bir neçə müəllimin önündə imtahan verdim. Əkbər müəllim özü kənardan izləyirdi, dedi:

- Ə, Kolanı balası, sənin gül kimi başın var, niyə işlətmirsən?

Və mənə «beş» yazdı.

Əkbər müəllim 87 yaşında çıxdı getdi Ağdama, Kolanıya, daha dəqiq desək, Kolanının Əlimədətli kəndinə, orda doğulmuşdu. İndi baxıram ki, Əkbər müəllim bizə dərs deyəndə heç demə 40-41 yaşı varmış. Amma biz elə bilirdik ki, qoca kişidi. Firudin Hüseynov bizə dərs deyəndə onu da qoca kişi bilirdik, heç demə 35-36 yaşı varmış. Ya Tofiq Hacıyev, ya Ağamusa Axundov, ya Təhsin Mütəllibov, ya Əkbər Hacıyev, ya Aydın Əbilov (gör bizə kimlər dərs deyib ey), ya Fərhad Zeynalov, ya Həsən Şirəliyev, ya Şülən Şirəliyev, ya Vəkil Hacıyev, ya Ağa Laçın və elə Bəxtiyar Vahabzadənin özü. Onlar hamısı cavan adamlarıymış, amma bizim gözümüzdə qoca sayılırdılar. Bilirsiniz niyə? Ağır oturub batman gələn kişiləriydilər. Bir tələ-

bə deyə bilməz ki, hansınasa bircə stəkan çay alıb. Və ən çox ona sevinirəm ki, bu gün də Bakı Dövlət Universiteti o ənənəni qoruyub saxlayır.

Bax, Əkbər müəllim ağır oturub batman gələn kişilərdəniydi. Və bu gün Azərbaycanda bəlkə minlərlə tələbənin üstündə (o tələbələr ki artıq çox yüksək dövlət vəzifələrində çalışırlar və ya Əkbər müəllimin ənənələrini davam etdirirlər) Əkbər müəllimin haqqı var. Mən həmin tələbələrdən tanıdıqlarımın siyahısını da dərc edə bilərəm.

Əkbər müəllim, öz tələbələrinə haqqını halal elə və mənə də haqqını halal elə!

Universiteti bitirəndən sonra heç vaxt sənə «Əkbər müəllim» demədim, «Əkbər əmi» dedim.

Əmi, Ağdama yolun açıq olsun!

P.S. Ürəyimdəkilərin hamısını yaza bilmədim, ona görə ki, oxucunu yormaq istəmədim.

Professor Əkbər Bayramova vida sözü

Hər hansı yazı-pozu adamı masa arxasına oturub qələmi əlinə alanda, beynində çapdan sonrakı proseslər çiçək açmağa başlayır. Hərə bir şey fikirləşir. Əksəriyyət təmənnalıdır – nəsə umur, bəzisi quru "sağ ol"a möhtacdır. Kimsələri alacağı qonorar maraqlandırır, bəzilərini isə reket ruzusu. Kimisi qorxur – qorxur ki, məhkəməyə verərlər. Ciblərini sapla bərk-bərk tikənlər də tapılır. Xülasə, yazı-pozu aləmi çox böyük bir dünyadır – cılızları da var, dahiləri də. Acından ölüb dahi olanlar da var, bəy kimi yaşayıb cılızlaşanlar da.

Bu yazımın başlığını qoyanda mən də bir anlıq fikrə getdim. Özümlə, cinayət törətməyə getməmişdən qabaq cinayət məcəlləsini varaqlayaraq, ilişəcəyi təqdirdə nə qədər iş alacağını göz önünə gətirən cinayətkarlar arasında paralellər aparmağa başladım. Yerli, yaxud yersiz olsa da... Sadəcə, son nöqtəsinə hələ çox qalan bu yazımı bitirib ictimailəşdirəndən sonra mənə olunacaq zəng və bildiriləcək fikirlərə verəcəyim cavabı dəqiqləşdirdim: "Borcumdur" ifadəsini. Amma deyəsən bu cavabım səhv idi. Daha doğrusu çox...

İyulun 9-u Təzə Pir məscidində böyük alim, professor Əkbər Bayramovla vidalaşdıq. Sonra isə son mənzilə yola saldıq. Onun ölüm xəbərini saytdan oxuyan kimi uşaqlıq illərim gəldi keçdi göz önümdən. Bir şirin xatirə yadıma düşdü. Daha doğrusu, "sandıq"da qalan bir-iki əhvalatı üzə çıxarmağa qərar verdim.

Əkbər Bayaramov qapıbir qonşumuz, Xalq yazıçısı Bayram Bayramovun kiçik qardaşı idi. Üzdən çox oxşayırdılar. Hərdən onlara gələrdi. Pilləkanlarda və ya həyətdə görəndə çaşıb qalırdım ki, görəsən Bayram əmiyə nə oldu ki, bu gün belə arıqlayıb?! Uşaq idim də...

Bilirdim ki, alimdir, ali məktəb müəllimidir. Onu da atam demişdi. Çox ciddi adam idi. Salam verirdim. Amma "salam"dan başqa bir kəlmə də başqa söz eşitmirdim. Yəni ki, "Ay oğul, necəsən? Atan necədir? Neçədə oxuyursan? Neçə qiymət alırsan? Atanı çox istəyirsən, yoxsa ananı?.."

Vaxt keçdi. 1983-cü ildə Azərbaycan Dövlət Universitetinə (indiki BDU) qəbul oldum. İkinci kursda isə Psixologiya fənnini tədris etməyə başladılar. Dərsliyimiz isə Əkbər Bayramovun "Psixologiya" kitabı. Qardaşı oğlu, professor Qurban Bayramovun təbirincə desək – neçə nəslə bu elmi öyrədən "Psixologiya" dərsliyi. Boynuma alım ki, qorxurdum Əkbər müəllimdən. Mühazirələrində cınqırımı da çıxartmırdım. Yox, bu hörmət əlaməti deyildi. Dar məqamda qonşum Bayram əmiyə, atam Qabilə arxalanacağım da ikinci plana keçmişdi. Sadəcə, qorxurdum. Çünki yuxarı kurslarda oxuyanlar bizi xəbərdar etmişdilər ki, bəs Əkbər müəllim mühazirə zamanı müxtəlif psixoloji testlər də həyata keçirir. Bilmirdim ki, doğrudur, ya yox. Mən də bu testlərdən hansınasa tuş gələcəyimə və ağzımdan hansısa sözün çıxacağına qorxurdum. Ona görə də hər ehtimala qarşı özümü maksimum ehtiyatlı aparırdım. Sonda bir qulağımın atamın, o biri qulağımın isə Bayram əminin əlində qalmaması üçün.

Haşiyə: Ay uşaqlar, Əkbər müəllim imtahanda bilirsiniz neyləyir? Bax girirsən imtahana. Bilet çəkirsən. Hazırlaşırsan. Sonra çıxıb cavab verirsən. Suallarında hamısına cavab verirsən. Özü də ki, əla cavab verirsən. O da "beş" yazmaq əvəzinə tələbəyə dönüb deyir ki, "Çıx bayıra, "qeyri-kafi" alırsan. Sabah gələrsən kafedraya". Səhəri gün gəlirsən kafedraya. Soruşur ki, "ay bala, niyə gəlmisən?" Sən də qorxa-qorxa cavab verirsən ki, bəs dünən "iki" almışam – təkrar

imtahana. O da cavab verir ki, bəs sən "iki" yox, "beş" almısan, zaçot kitabçan da assisentdə.

Demə, Əkbər müəllim tələbəni yoxlayırmış ki, görüm bu halda o cavab qaytaracaq və ya reaksiyası necə olacaq? **(SON)**

O vaxt Psixologiya bir elm sahəsi kimi çox da dəbdə deyildi. (Elə indi də... Psixiatrlar psixoloqları yavaş-yavaş üstələyirlər.) İndi anlayıram ki, bu kitabı açıb, oxuyub və dərindən başa düşmədən qapatmağımla nə qədər uduzmuşam. Bir müddətdən sonra həm də kafedra müdiri olan Əkbər müəllimi mühazirələrdə Rövşən müəllim – Rövşən Cavadov əvəz elədi. Amma bilirdik ki, sonda imtahanı özü götürəcək. Amma...

1985-ci ilin mayında 2-ci kursdan əsgəri xidmətə getməliydim. Qanunla da sessiya imtahanlarını vaxtından əvvəl verməyə ixtiyarım var idi. Bununla bağlı tədris işləri üzrə prorektora ərizəylə müraciət etdim. O da razılıq dərkənarı qoydu. Ərizəni dekanlığa təqdim etdim. Müəllimlərin yazığı gəlsin deyə tez başımı keçəl qırxdırdım. Axı onlar da valideyndirlər. Əsgər atası, anası olublar, ya da ki, nəvaxtsa olacaqdılar. Psixologiyanın bu sahəsini bir köhnə azərbaycanlı kimi yaxşı bilirdim. Beləcə, boynuma düşən beş zaçotu və dörd imtahandan üçünü şıppıltıyla verdim. İki dənə "beş", bir dənə "dörd" aldım. Çünki iki ildən sonra əsgərlikdən qayıdanda zərbəçi kimi 45 rubl stipendiya almağımı indidən təmin etməliydim. Qaldı bircə Psixologiyadan imtahan. Kafedraya girməyə cürət etmədim...

Haşiyə: Əsgərliyə gedən tələbələrdən vaxtından əvvəl imtahan götürən müəllimlərdən daşürəkliləri də tapılırdı. Əlbəttə ki, başqa fakültələrdə. Yazığı gəlib, hətta quruca "üç" yazmağın əvəzinə, "iki il boş vaxtın olacaq. Əsgərlikdə öyrənib, qayıdanda imtahan verərsən" deyirdilər. Biz nə biləydik ki, universitetdə evlənməyən kişilər və ya "staraya deva"lar da işləyirmiş. **(SON)**

...Axı, Əkbər müəllimdən qorxurdum. Bayram Bayramov, Qabil kimi "dayday"larım olduğu halda. Vaxt isə gedirdi. Beləcəri toplanış məntəqəsinə yollanmağıma az qalırdı. Qərara aldım ki, Bayram

əmiyə yaxınlaşım. Səhər-səhər qapılarını döydüm. Zümrüd xala açdı qapını. Bayram əmini səslədi. O da demə evdən çıxırmış. Biryerdə pilləkənləri düşdük. Elə düşə-düşə də sözümü dedim. O da "gedərsən Əkbərə deyərsən ki, sən mənim qonşumsan" dedi. Başqa heç nə demədi. Mən də gözləyirdim ki, telefonla zəng edər və ya xırda bir "zapiska" yazar. Heç nə demədim. Yol boyu ürəyimdə deyinə-deyinə gəldim universitetə. Başladım fikirləşməyə ki, bəs tutaq ki, girdin kafedraya, yaxınlaşdın Əkbər müəllimə. O biri müəllimlərin yanında da dedin ki, bəs "mən Bayram əminin qonşusuyam". Guya Əkbər müəllim bilmir ki, mən Bayram Bayramovun qonşusuyam? Həm də çox hörmət bəslədiyi Qabilin oğluyam? Birdən ağır cavab versə... Məsəlçün, desə ki, "gözüm aydın" və ya "slujba slujba, drujba drujba".

Xülasə, özümdə güc tapıb, girdim kafedraya. Bəxtimdən ikisi idi kafedrada – Əkbər Bayramov və Rövşən Cavadov. Əlimdəki göndərişi Əkbər müəllimə uzatdım. "Əsgərliyə gedirəm" deyə izahını verdim. Sonra da "Bayram əmi dedi ki..." "Tapşırığ"ı astaca söylədim. Üzündə ani təbəssüm yarandı. Sonra yenə ciddi görkəm aldı. Göndərişi Rövşən müəllimə uzatdı. Heç nə demədi. "Monoloq"umu Rövşən müəllim də eşitmişdi. O da kağızı imzalayıb özümə qaytardı. Sağollaşıb çıxdım. "Psixologiya – "yaxşı"" sözlərini oxuyanda həm sevindim, həm də xəcalət çəkdim. Üçüncü kursa keçməyimə sevindim, imtahansız yox (çünki imtahan biletləri iyunda olacaqdı), sorğu-sualsız qiymət almağıma isə xəcalət çəkdim. Bu "4" qiymət Əkbər müəllimin böyük qardaşına, o cümlədən Qabilə ehtiramının nəticəsi idi.

Haşiyə: 1981-ci il. Axşam vaxtı idi. Qapı döyüldü. Bayram əmi idi. Çox əsəbi görünürdü.

– Ay Bayram, nə olub?

–Yaman əsəbləşdiriblər məni, Qabil. Bu gün böyük yığıncaq idi. Bir nəfər çıxıb tribunaya dedi ki, bəs bu fəxri ad, medal alanların heç biri layiq deyil. Nədi-nədi buna heç nə çatmayıb. Heç olmasa "bəzi" sözünü işlətsəydi məni yandırmazdı. Axı, bizim Əkbərə də

"Əməkdar elm xadimi" fəxri adı veriblər. Sən də, mən də bilirik ki, layiqdir.

– Deyib deyib də day niyə əsəbləşirsən ki? Öz qanmazlığını göstərib də... – deyə atam Bayram əmini sakitləşdirməyə çalışdı.

–Yox e... məni yandıran o deyil. İclasdan sonra dəhlizdə mənə yaxınlaşıb nə desə yaxşıdır? Deyir ki, "Bayram müəllim, təbrik edirəm. Qardaşınıza fəxri ad veriblər. Layiqdir".

– Bəs sən nə cavab verdin?

– Heç nə. Dedim ki, "eşşəy özünsən". **(SON)**

Əsgərliyimi çəkdim, qayıdıb Universiteti də bitirdim. Sonralar rastlaşmadıq Əkbər müəllimlə. Bir də 1992-ci ildə qəzetdə adına rast gəldim. Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyevi hakimiyyət uğrunda açıq və fəal mübarizəyə səsləyən, onun hakimiyyətə qayıdışı üçün müraciətə imza atmış 91 tanınmış ziyalının arasında professor Əkbər Bayramovun da adı vardı. Daha sonra həmin şəxslər Yeni Azərbaycan Partiyasının "Qızıl Fondu" elan olundular. Prezident Heydər Əliyevin 2002-ci ildə dediyi "91-lər, onlar artıq dillərdə əzbər olublar. Mən 91-lərin hamısına böyük hörmət və ehtiram bəslə-mişəm" qiymətindən siyasətçi Əkbər Bayramova da xüsusi pay düşürdü.

Bu qiymət və ehtiram 2000-ci ildə, Ümummilli liderimizin sə-rəncamıyla bir daha təsdiqini tapdı. Əkbər müəllim "Şöhrət" ordeniylə təltif olundu. 1976-cı ildə təltif edildiyi "Şərəf nişanı" ordeni, 1977-ci ildə layiq görüldüyü "SSRİ Maarif əlaçısı", 1981-ci ildə aldığı "Əməkdar elm xadimi" kimi təltiflərin siyahısına daha bir QİY-MƏT də əlavə olundu.

Üç nöqtəmin davamı

Hə... Yazımı bitirdim. Əvvəldə yarımçıq bir fikrim qalmışdı: "Daha doğrusu çox..." Onu tamamlamaq istəyirəm. İndi bu yazını oxu-yub mənə zəng etsəniz və xoş sözlər söyləsəniz "Borcumdur" cavabı

verməyim səhv olar. Daha doğrusu, çox... bəsit görsənər. Çünki mənim yazdıqlarımın çoxu ödəmək istədiyim mənəvi borclardır. Düzdür. Bir cızma-qarayla bu mümkün deyil. Bəlkə də buna qədirbilənlik kimi qiymət verəcəksiniz. Bəlkə də mən bunları yazıb, borcumu qaytarmış kimi təsəlli tapdığımı zənn edirəm. Çünki "Professor Əkbər Bayramova vida sözü" yazısını yazmaq mənim onqat borcumdur:

- borcumdur ona görə ki, Əkbər Bayramov mənim qonşum Bayram əminin qardaşıdır.

- borcumdur ona görə ki, Əkbər Bayramov mənim müəllimim olub.

- borcumdur ona görə ki, Əkbər müəllimin atam Qabilə böyük ehtiramı olub.

- borcumdur ona görə ki, Əkbər Bayramov "91-lər"-in siyahısında öndə gedənlərdən olub.

- borcumdur ona görə ki, Əkbər Bayramov xalqımın böyük alim övladlarındandır. O alimlərdəndir ki, onun "mürəkkəbi şəhid qanından ağırdır".

- borcumdur ona görə ki...

Son

Yasamal qəbiristanlığındayıq. Əkbər müəllimi torpağa tapşırdıq. Molla dua oxudu. Sonda isə orda olanlara üzünü tutub "Halal edin" söylədi. Hamı da dəfələrlə "halal" söylədi. Mən də qeyri iradi söylədim – hamı kimi. Sonra isə dodağımı dişlədim. Gör e... halallığı mən almaqdan... Amma gecikmişdim. Gec də olsa dilləndim: "Əkbər müəllim, 1985-ci ildə verdiyiniz, layiq olmadığım "4" qiymətini halal edin".

Allah rəhmət eləsin.

Mahir Qabiloğlu

Mənalı bir ömür yaşamağın nümunəsi

Söhbət açacağım şəxs mənim üçün doğma insan, müəllimim, istedadlı alim, psixologiya elmləri doktoru, professor, əməkdar elm xadimi Əkbər Bayramovdur.

Onun haqqında yazmaq üçün xeyli düşündüm, xatirələri vərəqlədim, ixtiyarsız olaraq Vaqif Səmədoğlunun bu misraları beynimdən dilimə, dilimdən sətirlərə tökülməyə başladı, yolüstü qəlbimin sevgisi ilə yoğruldu:

Rica edirəm, yalvarıram, o günəşdən bir az bu yana dur!
İndi dənizə bax!
Gördünmü nə gözəldir Xəzər?
Gördünmü necə istidir Günəş?
Gördünmü səni necə görə bilir gözlərim?
Orda dur, qımıldanma, ömrüm...

Əkbər müəllimin bir alim kimi həqiqəti görə və göstərə bilən təfəkkürü vardı. Yaratdıqları qalaq-qalaq əsərlərlə "Qımıldanma, orda dur, ömrüm", - deyə bilirdi.

Əvvəlcə onu ailədə kübar, sadə, səmimi bir insan kimi tanıdım. Evinə gələn hər kəsi: böyüyü də, kiçiyi də öz dili ilə dindirə bilirdi. Sonralar etnik psixologiyaya aid araşdırmalarında qonaqpərvərliyi xalqın etnik xüsusiyyəti kimi təqdim etdiyini gördükdə "təsadüfi de-

yil", - deyə düşündüm. O yalnız yazmırdı, etnik gözəl cəhətləri həm də yaşadırdı. Görünür, söz və əməlin vəhdəti də onun üçün vacib etnik xüsusiyyət idi.

Sonralar onu bir alim kimi tanımağa başladım. Yazı masasının arxasında sakit, səssiz elə hey yazıb-yaradan alim. O zaman sirli-sehirli bir dünya idi mənimçün. Kitabları, əsərləri bu sehirli aləmə açar oldu.

İlk dəfə universitetdə oxuyarkən dərsliyi ilə tanış oldum. Bu dərsliklərdən bu gün də ali məktəb tələbələri istifadə edir. "Psixologiya", "Sosial psixologiya" və b. dərsliklərindən neçə-neçə nəsil bəhrələnib.

Sonralar müəllim kimi fəaliyyətə başlayarkən özünün verdiyi "Psixoloji düşüncələr" əsəri stolüstü kitabıma çevrildi. Əsərdə "Şəxsiyyət psixologiyasının bəzi məsələləri", "Şəxsiyyət tərbiyəsinə diqqət artırılmalı", "N.Gəncəvi əsərlərində şəxsiyyət və liderlik məsələləri", "Qabiliyyət və istedadın seçilmə problemlərinə dair" araşdırmalar müstəqilliyimizin ilk illərində təhsilin problemlərinin həlli baxımından çox əhəmiyyətli idi.

Onun kiçik məktəbyaşlı şagirdlərdə təfəkkürün müstəqillik və tənqidiliyinin inkişaf xüsusiyyətləri ilə bağlı tədqiqatları məni həmişə bir müəllim kimi maraqlandırmışdır. Müəllifin üç monoqrafiyasında, müxtəlif ölkələrdə dərc olunmuş məqalələrdə öz əksini tapmış şəxsiyyətin təşəkkülü, onun özünüdərki və özünü qiymətləndirməsinin psixoloji problemləri ilə bağlı tədqiqatları pedaqoji cəhətdən diqqətimi cəlb edib, bəhrələndiyim araşdırmalar olub.

Alimin etnik psixologiyaya aid tədqiqatları da çox dəyərlidir. Əsərindən bir parçanı diqqətinizə çatdırıram: "Məşhur alman filosofu Hegel öz xalqının mühüm etnik psixoloji xüsusiyyətini belə ifadə edir: "Mənim xalqım arxivariusdur. Arxiv öz taxçalarında tarixi hadisələri və faktları hifz edir, qoruyub saxlayaraq gələcək nəsillərə verir". Yəni alman xalqı öz tarixini yaxşı bilməklə seçilir. Bəs etnik-psixoloji baxımdan bunun əhəmiyyəti nədir?

Tarixini yaxşı bilən xalq özünü yaxşı dərk edir, onun ibrət dərslərini yaxşı mənimsəyir". Sonra alim belə bir maraqlı nümunə verir: "Almaniyaya işləməyə gedən bir türk vətəndaşı uşaqlarını məktəbə qoymaq üçün Türkiyəyə qayıdır. Ondan soruşurlar: "Orada məktəb yoxdurmu?". "Əlbəttə, var. Amma vəziyyət başqadır. Almaniyada uşaqları əvvəl kilsəyə aparırlar, ibadət etdirirlər. Məktəbə dönüb Almaniya xəritəsinin önünə keçən müəllim deyir: "Almanlar dünyanın ən üstün millətidir, biz hamımız Almaniya üçün varıq". Onlara ədəb qaydalarını , adət- ənənələri incə təfərrüatına qədər anladır, alman kimi yaşamağın zövqünü , qururunu verirlər. Sonradan dünyəvi bilikləri öyrətməyə başlayırlar. Daha sonra qabiliyyətlərinə görə müxtəlif ixtisaslara yiyələnirlər... Maliyyəçi olan bir alman qızından bir quruşluq vergi belə qaçırmaq olmur. Mən də istərdim ki, mənim övladım xalqımıza məxsus əxlaqi-mənəvi dəyərləri mənimsəsin, türk olduğundan qürur duysun". Misaldan aydındır ki, hər bir xalq özünü dərk edib qiymətləndirmək üçün psixoloji keçmişinə dərindən bələd olmalıdır. Çünki etnosun təşəkkülü onun etnik-psixoloji xüsusiyyətlərinin formalaşmasından kənarda götürülə bilməz.

70 il sovet siyasətinin milli dəyərləri məhv edən konsepsiyasına cavab olaraq alimin etnik psixologiya sahəsində araşdırmaları xalqın özünüdərki baxımından mühüm əhəmiyyət kəsb edir.

Gətirilən nümunələr təhsildə gənc nəslin tərbiyəsində və yeni cəmiyyət quruculuğunda da bu tədqiqatların böyük rola malik olduğunu ifadə edir.

Ə.Bayramov xalqımızın ədəbi-bədii irsində etnik psixoloji xüsusiyyətlərin inikası probleminə gənc tədqiqatçılar cəlb edib, yeni bir psixoloji məktəb yaradıb.

Alimin yazı üslubu, "Kitabi-Dədə Qorqud", Nizami, Nəsimi, Füzuli, A.Bakıxanov, M.F.Axundov, C.Məmmədquluzadə, M.Ə.Sabir irsinin psixoloji təhlili ilə bağlı tədqiqat əsərləri həmişə diqqətimi cəlb etmiş, bu mənbələrdən pedaqoji fəaliyyətimdə məharətlə yararlanmışam.

Müəllifin əsərlərində Nizamidə rənglərin simvolikası, Hürufizmin psixoloji kökləri, Məcnunun autizasiyası kimi mürəkkəb məsələlərin təhlili verilib, dünya psixoloji fikri ilə müqayisədə araşdırılıb. Məsələn: alim Nəsiminin özünəməxsus psixoloji konsepsiyasını nəinki qədim hindu və zenbuddizm təlimləri ilə müqayisə edir, həm də onları müasir psixoloji cərəyan və nəzəriyyələr -freydizm və ekzistensial psixologiya istiqamətində araşdırır.

Onun "Psixoloji düşüncələr", "Etnik psixologiya məsələləri", "Kitabi-Dədə Qorqud dastanında etnik-psixoloji xüsusiyyətlərin inikası", "Etnik psixologiya" və digər əsərləri milli psixologiyanın tədqiqi baxımından böyük elmi əhəmiyyətə malikdir.

Vətənini çox sevirdi Əkbər müəllim. Bu misraları tez-tez təkrar edərdi:

Bir çinar göstərin mənə, a dostlar
Mən ona söykənim, Vətənə baxım...

Vətən nisgili vardı qəlbində. O nisgili qəlbində apardı. Bir sıra əsərlərində "Vətən yolunda şəhid olanlara ithaf edilir" epiqraflarına rast gəlinir. Sanki, vicdan borcu daşıyırdı çiynində. Bu da ziyalılıqdan, Vətənə, xalqa məhəbbətindən doğurdu. Vətən qarşısında borcunu qələmi ilə qaytarırdı. O, erməni vəhşiliklərinin psixoloji köklərini araşdırıb, onların etnik xüsusiyyətlərini ilk dəfə psixoloji ədəbiyyatda elmi dəlillərlə açıqlayıb. Ümumiyyətlə, etnoslararası münasibətlərə dair araşdırmaları böyük elmi əhəmiyyətə malikdir.

Çətinə düşəndə suallarıma cavab tapmaq üçün yanına gələrdim. Çox danışmağı sevməzdi. "Niyə?" "Nə üçün?" - kimi suallar yağdıranda qəribə bir təbəssüm qonurdu çöhrəsinə, sakitcə durub kitab rəfindən kitab gətirər: "Apar oxu, bunlar araşdırılıb" - deyərdi. Bu da öyrətməyin, oxutmağın özünəməxsus bir forması idi. Son illər lap səssiz-səmirsiz olmuşdu. Ancaq yenə yazır, yaradırdı. Onun həmmüəllif olduğu "Hüquq psixologiyası" adlı son möhtəşəm əsərini gördükdə heyrətləndim. Yaşlanmışdı, ancaq təfəkkürü zirvədə bərq

vururdu. Elə bil, burda deyildi. “Bilirsən nələr yazardım. Bir ömür bəs etmir”- söyləyirdi.

Vaqif Səmədoğlunun misraları ixtiyarsız olaraq yenə beynimdən dilimə, dilimdən vərəqlərə tökülür:

Soruşursan hardayam? - burda, burda, burdayam.
Əslində, Allah bilir, harda, harda, hardayam?
Soruşursan necəyəm?...
- Necə görmək istəsən, qardaş, elə eləyəm...
Huşum korlanıb bir az,
İçməsəm də bir qram,
Yaddaşımın içində gizlənqaç oynayıram.

Əslində, o, burdadır, əsərləri, fikirləri, düşüncələri ilə. Mənalı bir ömür yaşamağın nümunəsi ilə.

Onlarca tədqiqatçı yetişdirən, məktəb yaradan alimin əsərlərinin tədqiqi özündən sonra başqa, yeni bir məktəb yaradacağına əminəm.

Əkbər Bayramovun əziz xatirəsi xalqın yaddaşında əbədi yaşayacaqdır. Çünki o, irsi ilə “Orda dur, qımıldanma, ömrüm” - deyə bilmişdir.

Mehriban Vəliyeva,
akademik Zərifə Əliyeva adına liseyin direktoru,
filologiya üzrə fəlsəfə doktoru, əməkdar müəllim

Qayğıkeş alim

Əkbər müəllimlə mənim ilk tanışlığım 90-cı illərin əvvəllərinə təsadüf edir. Yaxşı yadımdadır, bir il idi ki, Bakı Dövlət Universitetinin nəzdnində fəaliyyət göstərən Kadrların ixtisasının artırılması və yenidən hazırlanması fakültəsində Ümumi psixologiya fənnindən bizə mühazirəni Psixologiya kafedrasının müdiri, professor Əkbər Bayramov deyirdi. Qrupumuzun ali təhsilli, hətta bəzilərimizin bu fənni keçdiyinə baxmayaraq, səbirsizliklə Əkbər müəllimi gözləyirdik və nəfəs belə çəkmədən onu dinləyirdik. Bu fənni o qədər sevirdim ki, bir gün dərsdən sonra Psixologiya kafedrasına Əkbər müəllimin yanına getdim, özüm və elmi fəaliyyətim haqqında qısa məlumat verdim, məqsədimi açıqladım ki, "Sizin dissertant olmaq istəyirəm". Əkbər müəllim bir an dinmədi, sonra qayğılı, bir az da kədərli halda nəzər salıb, asta-asta dilləndi:

- Bilirsinizmi, sizin ailəniz var, övladlarınız kiçikdir, qayğıya ehtiyacları var, özünüz işləyirsiniz, bütün bunları nəzərə alsaq, elmi iş yazmaq çox çətin olacaq. Bu yol çox uzun, çox zəhmət tələb edən yoldur. Dözərsinizmi?

Bir sözlə, məni çox qorxutdu ki, bu işi bir biləsən kimlər yarımçıq qoyub, başa çatdıra bilməyib. Yəni, bir ata kimi məni hərtərəfli başa saldı, məsələdən agah oldum. Vaxtını aldığıma görə, Əkbər müəllimdən üzr istəyib getmək istəyəndə, başını qaldırıb diqqətlə mənə baxdı. Üzünə yüngül bir təbəssüm qondu.

- Əyləş, tələsmə, - dedi

Oturdum, araya qısa bir sükut çökdü. Sonra ağır-ağır söhbətə başladım:

- Sənə ürəyim yanır, amma sən ki, Psixologiya fənninə belə həvəslə yanaçırsan, qorxma, get, sənədlərini hazırla.

Sevincək getdim və bununla da, həyatımın ən çətin, ən gərgin günləri başlandı. Bütün bu çətin günlərimdə Əkbər müəllim, mənim elmi rəhbərim, bir dəqiqə də olsa məni tək, diqqətsiz qoymadı. Nə zaman müraciət etdimsə, məni səbrlə, təmkinlə dinləyib, bacardığı köməyi əsirgəmədi və işimi yekunlaşdırmaq üçün daima məni ruhlandırdı. Bütün bunların bəhrəsi olaraq dissertasiya işimi başa çatdırdım. Müdafiə günü təyin olundu.

Əkbər müəllim həmişə iclasa sədrlik edirdi. Lakin bu gün Əkbər müəllimin dissertantı müdafiə etdiyi üçün iclasa sədrliyi rəhmətlik prof. Əbdül Əlizadə edirdi. Əkbər müəllim isə, seyrçi kimi kənardan həyəcanla baxırdı. Elmi Şura üzvləri saysız-hesabsız sauallar yağdırırdı. Əkbər müəllim isə, baxışları ilə mənə əmr edirdi ki, dəqiq, məntiqi cavab ver. Təvazökarlıqdan kənar da olsa, mən heç bir sualı cavabsız qoymurdum. Hiss edirdim ki, Əkbər müəllimin üzündə razılıq əlaməti var. Mənim sevimli müəllimim, rəhmətlik Cəmilə xanım sonda söz istədi. Dissertasiya işinin yüksək səviyyədə yazıldığını vurğuladı və dedi ki, bax beləcə də dedi:

- Görürsünüzmü, Validə hər cavabında sübut etdi ki, o, Əkbər Bayramovun "şkolasıdır".

Bu sözə mən ürəkləndim, Əkbər müəllimə yaxınlaşdım ki, siz, razı qaldınızmı? Hər saat onun çöhrəsində təbəssüm olmazdı, bu dəfə vardı. Rahat, razı halda mənə baxdı və bir kəlmə "sağ ol" dedi.

Bəli, Əkbər müəllim belə şəxsiyyət idi. O vaxtdan çox illər keçib. Mən bu illər ərzində öz üzərimdə həmişə Əkbər müəllimin qayğısını hiss etmişəm. İndi düşünürəm, vaxt olub, cavanlığıma salıb, ərkəsöyünlük etmişəm. Bunun müqabilində ondan ağsaqqal təmkini, əsl alim müdrikliyi görmüşəm. Zəhmətini halal et, əziz müəllimim. Hər yerdə ona qarşı böyük hörmət, səmimiyyət görmüşəm. Hə-

mişə təəccüblənmişəm: ən müxtəlif xarakterə, dünyagörüşünə mədəni və intellektual səviyyəyə malik olan insanların hamısı üçün yaxşı adam, qayğıkeş alim olmağı o necə bacarırdı, yəqin ki, bu, fitrətdən gələn keyfiyyətdir.

Əkbər müəllim, öz mənalı əmək fəaliyyəti dövründə həqiqi bir müəllim kimi, təhsili xalqımızın bu günü, millətimizin gələcəyi üçün ən cavib sahə hesab etdiyindən tələbələrə olduqca diqqətlə və tələbkarlıqla yanaşırdı. Ona görə də, tələbə-müəllim kollektivi arasında böyük hörmət və ehtirama sahib idi.

Əkbər müəllim, həqiqi psixoloq, tədqiqatrçı alim idi. O, insanlara xüsusi həssaslıqla, qayğı ilə yanaşanları, müraciət edənləri diqqətlə, təmkinlə dinləmək və müdrik bir şəxsiyyət kimi özünün olduqca ağıllı məsləhətlərini vermək qabiliyyətinə malik idi.

Professor Əkbər Bayramovun yazdığı əsərlərdən, monoqrafiyalardan, dərsliklərdən, dərs vəsaitlərindən hələ gələcək nəsillər çox bəhrələnəcək.

Əkbər müəllim, gözəl ailə başçısı idi. Onun bir zamanda təhsil sistemində çalışan Vəsilə xanım Bayramova kimi gözəl ömür-gün yoldaşı, fidan nəvələri var idi. Böyük nəvəsi Nigar xanım bu gün babasının layiqli davamçısıdır. Hər kəsə yaxşı məlumdur ki, dünyada ən şirin varlıq nəvədir. Kaş, Əkbər müəlllim onun adını daşıyan kiçik nəvəsi Əkbərin toyunu görəydi.

Əlbəttə, bu qısa yazımda çox sevimli müəllimim, elmi rəhbərim, dünya şöhrətli alim, psixoloq Ələkbər müəllimin çox sahəli, geniş, zəngin, hərtərəfli elmi-pedaqoji fəaliyyətinin çox az bir hissəsi haqqında söz deyə bilərəm. Onun şərəfli ömür yolu gələcək nəsillər üçün bir örnək, nümunədir.

Allah sənə rəhmət eləsin. Yerin cənnət olsun. Rahat yat, müəllimlərin müəllimi.

Validə Əliyeva,
Azərbaycan Dövlət İqtisad Universtetinin
Hümanitar fənlər kafedrasının dosenti

IV BÖLMƏ

ƏKBƏR BAYRAMOV HAQQINDA MƏTBUATDA YAZILANLAR

Hüquq psixologiyası

Psixologiya elmləri doktorları Əkbər Bayramov və Bəxtiyar Əliyevin "Təhsil" nəşriyyatında yenicə çapdan çıxan "Hüquq psixologiyası" kitabı Azərbaycan Respublikası Təhsil Nazirliyinin tövsiyəsi ilə ali məktəblərin hüquqşünaslıq və psixologiya ixtisasları üzrə təhsil alan tələbələr üçün nəzərdə tutulsa da, ondan müvafiq sahələrdə çalışan praktik işçilər də istifadə edə bilərlər.

On yeddi fəsildən ibarət nəşrdə, əsasən, hüquq psixologiyasının əsas problemləri və vəzifələri, metodologiyası, şəxsiyyətin psixoloji xüsusiyyətləri, sosializasiyası və hüquqi şüurun formalaşması, kriminal psixologiya, yetkinlik yaşına çatmayanların və yeniyetmələrin cinayət davranışının psixoloji məqamları, cinayət və mülki prosesdə məhkəmə-psixoloji ekspertizanın nəzəri-metodologiya əsasları, islah psixologiyası, məhkumların islah edilməsi və onlara psixoloji təsir üsulları, habelə hüquqa zidd davranışla mühafizə sahəsində psixologiyanın tətbiqi məsələləri araşdırılır.

Müəlliflərin qeyd etdiyi kimi, insan probleminin mürəkkəbliyini şərtləndirən əsas amillərdən biri də ictimai həyatın inkişafına tərbiyəvi təsir göstərən vasitələrin ciddi surətdə dəyişməsidir: "Əgər biz müasir ictimai həyatın ən ümdə xüsusiyyətlərinə diqqət yetirsək, ilk növbədə, nəzərimizi cəlb edən cəhət onun dinamikliyi olacaqdır.

Çünki ictimai həyatın dinamikliyi yalnız sürətlə artan elmi-texniki tərəqqidə deyil, həm də ictimai münasibətlərin, başqa ictimai həyat hadisələrinin çevikliyində özünü büruzə verir".

Kitabın annotasiyasında vurğulanır ki, hüquq psixologiyasının əsas məsələləri ümumi və sosial psixologiyanın əsasları ilə birlikdə dərsliyin məzmun xəttini təşkil edir. Qeyd etmək lazımdır ki, nəşrin bu cür tərtibi həm ali məktəblərdə hazırlanan mütəxəssislərə, həm də hüquq praktikasında çalışanlara ümumi və psixoloji biliklər aşılamağa və həmin bilikləri öz fəaliyyətində tətbiq etməyə imkan yaradır.

Səadət Rzayeva,
"Xalq qəzeti"

Dünyaşöhrətli alimin vida mərasimi

Azərbaycan elminə, maarifinə ağır itki üz verdi. Görkəmli Azərbaycan alimi, psixologiya elmləri doktoru, əməkdar elm xadimi, BDU-nun fəxri professoru Bayramov Əkbər Salman oğlu dünən saat 19 radələrində vəfat etdi. Mərhumla vida mərasimi bu gün saat 11-də Təzəpir məscidində oldu.

Dünyaşöhrətli alim Əkbər Bayramov 1930-cu ildə Ağdam rayonunun Əlimədətli kəndində anadan olub. Əlimədətli kənd 7 illik məktəbini (1945), Ağdam Pedaqoji Texnikumunu (1945-1949) və Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin məntiq-psixologiya şöbəsini (1949-1954) əla qiymətlərlə bitirib, universitetin Böyük Elmi Şurasının qərarı ilə psixologiya ixtisası üzrə aspiranturaya tövsiyə edilmiş və Azərbaycan Pedaqoji İnstitutunda psixologiya ixtisası üzrə aspiranturada təhsil almışdır (1954-1957). Ə.S.Bayramov APİ-də aspirantura şöbəsinin müdiri (1957-1958), elmi işlər üzrə prorektorun köməkçisi işləmişdir (1958-1960).

1959-cu ildə «Təfəkkürün müstəqillik və tənqidiliyinə görə III - IV sinif şagirdlərinin fərdi xüsusiyyətləri» mövzusunda namizədlik və 1969-cu ildə «Kiçik məktəb yaşlı şagirdlərdə təfəkkürün müstəqillik və tənqidiliyinin inkişaf dinamikası» mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1960-1970-ci illərdə APİ-nin psixologiya kafedrasında baş müəllim, dosent, professor vəzifələrində işləmişdir.

1965-1969-cu illərdə əvəzçilik üzrə Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutunda baş elmi işçi işləmiş və həmin illərdə İstitutun psixologiya laboratoriyasının digər əməkdaşları ilə birlikdə təlimdə şagirdlərin fəallaşdırılması və onlarda idrak proseslərinin inkişaf etdirilməsinin psixoloji problemləri ilə bağlı tədqiqat

işləri aparmışdır. Ə.S.Bayramov eyni zamanda Yerevan Pedaqoji İnstitutunun Azərbaycan bölməsinə kömək məqsədilə əvəzçilik üzrə (1965-1983) orada işləmişdir.

1970-1971-ci illərdə APİ-də psixologiya kafedrasında professor, 1971-1992-ci illərdə Azərbaycan Dövlət Universitetinində pedaqogika və psixologiya kafedrasının müdiri, 1992-ci ildə kafedralar ayrıldıqdan sonra Bakı Dövlət Universitetində psixologiya kafedrasının müdiri, 1999-cu ildən həmin kafedrada professor vəzifəsində işləmişdir.

1960-2004-cü ilə kimi keçmiş sovetlər ölkəsi məkanında, xarici ölkələrdə, xüsusən də respublikada keçirilmiş bir çox elmi konfrans və simpoziumlarda, eləcə də beynəlxalq elmi konqreslərdə fəal iştirak etmiş, psixologiya elminin aktual problemlərinə dair maraqlı elmi məruzələrlə çıxış etmişdir.

1955-2004-cü illərdə Ə.S.Bayramovun 46-ya qədər monoqrafiya, dərslik, dərs vəsaiti, elmi-kütləvi kitablar və 250-dan artıq elmi məqalə və məruzə tezisləri nəşr edilmişdir. Eyni zamanda o, psixologiya elminin, təlim-tərbiyənin aktual məsələlərinə dair 270-dən artıq elmi məqalənin müəllifidir. Psixologiya, pedaqogika, məntiq və s. elmlər üzrə o, 35-dən artıq dərslik, dərs vəsaiti və monoqrafiyanın elmi redaktoru olmuşdur.

Ə.S.Bayramovun «Psixologiya» (1989-2002), «Sosial psixologiya» (1986-2003), «Məhkəmə psixologiyası» (1985), «Məhkəmə psixologiyası və psixoloji ekspertiza məsələləri» (1987), «Etnik psixologiya» (2001) kimi fundmental səciyyəli dərsliklərin müəllifidir. Həmin dərsliklər psixologiya elminin müasir inkişaf səviyyəsini tam dolğunluğu ilə əks etdirir və bununla bərabər həmin dərsliklər Milli zəmində zəngin ədəbi-bədii irsimizdən yetərincə bəhrələnmək əsasında yazılmışdır.

Həmçinin görkəmli psixoloq-alimin xalqımızın ədəbi-bədii irsində, «Kitabi-Dədə Qorqud» dastanlarında, xüsusən də klassik sənətkarların (Nizami Gəncəvi, İ.Nəsimi, M.Füzuli, A.Bakıxanov,

M.F.Axundov, C.Məmmədquluzadə, M.Ə.Sabir) ədəbi irsində psixoloji ideyaların inkişafı dünya psixoloji fikrinin müqayisəli təhlili yolu ilə ilk dəfə tədqiq edilmiş, aydınlaşdırılmışdır. Bu araşdırmalar müəllifin «Psixoloji düşüncələr» (1994), «Etnik psixologiya məsələləri» (1996), «Kitabi-Dədə Qorqud» dastanlarında etnik psixoloji xüsusiyyətlərin inikası» (2000) və s. monoqrafiyalarında , «Etnik psixologiya» (2001) dərsliyində və onlarla elmi məqalələrində öz əksini tapmışdır. Bir cəhət də, xüsusi qeyd edilməlidir ki, Ə.S.Bayramov xalqımızın ədəbi-bədii irsində etnik psixoloji xüsusiyyətlərin inikası probleminə gənc tədqiqatçıları cəlb etməklə (onun elmi rəhbərliyi ilə həmin problemlə bağlı 10-a qədər namizədlik dissertasiyası müdafiə edilmişdir) yəni bir psixoloji məktəb yaratmışdır.

Bununla bərabər, Ə.S.Bayramov 10 cildlik Azərbaycan Sovet Ensiklopediyası, Kitabi Dədə-Qorqud Ensiklopediyası üçün psixologiya elminin müxtləif problemlərinə aid 58-dən artıq məqalə yazmışdır. Eyni zamanda o, 10 cildlik Azərbaycan Sovet Ensiklopediyasının və 3 cildlik Uşaq Ensiklopediyasının redaksiya nəşriyyat şurasının üzvü olmuşdur. O, nəinki respublikada, eləcə də digər (Tacikistan, Qırğızıstan, İran İslam Respublikası və b.) ölkələr üçün psixologiya üzrə yüksək ixtisaslı elmi kadrlar hazırlanmasında yaxından iştirak etmişdir. Onun elmi rəhbərliyi ilə psixologiya elmi üzrə 35-dən artıq elmlər namizədi və elmlər doktoru dissertasiyası yazılmış, 15-dən artıq magistr dissertasiyasının elmi rəhbəri olmuşdur. Bununla bərabər o, keçmiş sovetlər məkanında 10-dan artıq namizədlik və doktorluq dissertasiyalarının rəsmi opponenti olmuşdur. Həmçinin, o, SSRİ Psixoloqlar cəmiyyəti Azərbaycan şöbəsinin, Azərbaycan Təhsil Nazirliyi Elmi-Metodik Şurasının pedaqogika və psixologiya bölməsinin sədri, Respublika ictimai rəyi öyrənən sosioloji mərkəzin üzvü kimi fəaliyyət göstərmişdir. Professor Ə.S.Bayramov 1993-cü ildən 2000-ci ilə kimi M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universitetinin nəzdindəki (n.054.03.04) psixologiya elmləri üzrə ixtisaslaşdırılmış müdafiə şura-

sının sədri, 2000-ci ildən indiyə kimi Respublika Prezidenti yanında Ali Attestasiya komissiyasının ekspert şurasının üzvü olmuşdur.

Əkbər Salman oğlu Bayramovun elmi və ictimai fəaliyyəti yüksək qiymətləndirilmiş, o, «Fədakar əməyə görə» yubiley medalı (1970), «Şərəf nişanı» ordeni (1976), «SSRİ maarif əlaçısı» (1977) və Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə elm və təhsil sahələrində xidmətlərinə görə «Şöhrət ordeni» (2000), eləcə də bir neçə dəfə Azərbaycan Təhsil Nazirliyinin fəxri fərmanları ilə təltif edilmişdir. 1981-ci ildə ona Əməkdar elm xadimi fəxri adı verilmişdir. Əkbər Bayramov Respublika Prezidentinin fəxri təqaüdünə layiq görülmüş, Bakı Dövlət Universitetinin fəxri professoru seçilmişdir.

Professor Əkbər Salman oğlu Bayramov zəngin elmi-pedaqoji fəaliyyətinin 45 ildən artıq bir dövrü bilavasitə Bakı Dövlət Universiteti ilə bağlı olmuşdur.

Vida mərasimində Azərbaycanın görkəmli alimləri, ziyalıları, yaxınları, doğmaları da iştirak edirdi.

Millət vəkili Bəxtiyar Əliyev bildirdi ki, mərhum keçmiş SSRİ məkanlında və dünyada tanınan, eyni zamanda özünün elmi məktəbi olan böyük alim idi: ”O, dünyaşöhrətli alim olmaqla, Azərbaycan psixologiya elminin yaradıcılarından olan və əsasını qoyan korifeylərindən biri idi. Əkbər müəllim elmimizin inkişafı üçün böyük işlər görüb, psixoloqlar və alimlər yetişdirib. Bu gün onlar onun yolunu davam etdirirlər. O, həm də böyük bir ziyalı olaraq Azərbaycan cəmiyyətinin inkişafında çox böyük işlər görüb. Bu baxımdan bir alim kimi bütün dövrlərdə onun xidmətləri qiymətləndirilərək ən yüksək orden və medallarla təltilf edilib. Ona ölkənin ən böyük titulları, eləcə də Prezidentin xüsusi təqaüdü verilib. Yeri gəlmişkən qeyd edim ki, bu yaxınlarda Bakı Dövlət Universitetində Fəxri Professorluq İnstitutu yaradılıb. BDU-dan iki nəfər Fəxri Professor adına layiq görülüb ki, onlardan biri Əkbər Bayramovdur. Bu fəxri ad onun böyük bir alim kimi gördüyü işlərə görə verilib. Onun elmi işləri bu gün də da-

vam etdirilir. Gələcək nəsillərin qəlbində Əkbər Bayramov adı daimi yaşayacaq".

BDU-nun elmi işləri üzrə prorektoru, professor Aydın Kazımzadə Əkbər Bayramovun Azərbaycanın məşhur alimlərindən, ziyalılarından biri, gözəl psixoloq və müəllim olduğunu söylədi. Dedi ki, o Azərbaycanda yetişən psixoloqlarının mənəvi atası olmuşdur. Bu universitetimiz üçün və eləcə də Azərbaycan ziyalıları, xalqı üçün böyük itkidir. Amma ölüm də təbiətin qanunlarından biridir, Allah ona rəhmət eləsin. Doktorontları onun elmi işini davam etdirəcəklər".

Tibb elmləri doktoru, professor, görkəmli aftolmoloq Kərəm Kərəmov dedi ki, Əkbər müəllim Azərbaycanda psixologiya sahəsində öz sözünü demiş görkəmli alimlərimizdən biridir. O, nəinki Azərbaycanda, hətta keçmiş Sovetlər Birliyində bu sahədə ən qabaqcıl alimlərdən biriydi. Əkbər müəllim Sovet posməkanında bu sahədə çalışan psixoloq alimləri ilə sıx əlaqə saxlayardı, onlara psxologiya elminin inkişafında öz töhfələrini verərdi. Onun bütün respublikalardan yetişdirdiyi alimlər vardı. Çox təvazökar və sadə bir insan idi. O, insanları sevirdi. Dünən onun yetirmələrilə bir yerdə idi. Onlar da Əkbər müəllimin itkisinə ürək ağrısı ilə heyfsləndilər".

BDU-nun poliotologiya və sosiologiya kafedrasının müdir müavini, professor Fazil Vahidov isə vurğuladı ki, o universitetin yüksək elmi tədrisini qiymətləndirən və ona layiqincə əməl edən şəxsiyyət idi. İkinci Əkbər müəllim 1991-ci ildə müstəqilliyimizlə həmyaşıd olan bir fakültənin, sosial-elmlər və psixologiya fakültəsinin ilk dekanı olub: "Üçüncü həmin vəzifədə Əkbər müəllimi mən əvəz etmişəm. 14 il dekan vəzifəsində çalışmışam ki, onun qoyduğu ənənələr pozulmasın, zənginləşsin, məzmun etibarı ilə daha əhəmiyyətli olsun. Bununla yanaşı bir cəhəti qeyd edim ki, o, Azərbaycanın sayılıb seçilən ziyalılarından biri olmaqla onun gələcəyini xüsusi düşünən şəxsiyyətlərdən biri olmuşdur".

Vida mərasiminə toplaşan digər alim və ziyalılar profesor Əkbər Bayramovun itkisinə kədərlənərək, onun haqqında öz təəssüratlarını paylaşdılar.

Vida mərasimindən sonra alimin nəşi Yasamal qəbiristanlığında torpağa tapşırıldı.

Allah rəhmət eləsin!

Qələndər Xaçınçaylı

Əkbər Bayramovsuz 40 gün…



Bu gün görkəmli alim, psixologiya elmləri doktoru, Əməkdar elm xadimi, professor Əkbər Bayramovun ölümündən 40 gün keçir. Qırx gündür ki, cismən Əkbər müəllimsiz ayrı yaşasaq da, ruhən o bizimlədir, dərs dediyi tələbələrin, yetişdirdiyi alimlərin, bir sözlə, Azərbaycan xalqının qəlbindədir. Əbədi bir məşəl kimi qəlbimizdə daim alovlanacaq, neçə-neçə ziyalının elminə isə işıq saçacaq, bir alim kimi yaşayacaq və yaşadacaq Əkbər müəllim! Harada Azərbaycan varsa, orada Əkbər müəllimin yeri görünəcək. Harada Əkbər müəllim varsa, orada Azərbaycan görünəcək. Harada dünya elmi varsa, orada Əkbər müəllimin adı iftixarla çəkiləcək. Xalqımıza, elimizə və yaşadığımız planetimizə şöhrət gətirən alimlərimizdən, ziyalılarımızdandır Əkbər Salman oğlu Bayramov! O, dünya alimləri ilə müqayisə edilir, yanaşı qoyulur.

Ə.Bayramov 1960-2004-cü ilə kimi keçmiş Sovetlər ölkəsi məkanında, xarici ölkələrdə, xüsusən də respublikada keçirilmiş bir çox elmi konfrans və simpoziumlarda, eləcə də beynəlxalq elmi konqreslərdə fəal iştirak edib, psixologiya elminin aktual problemlərinə dair maraqlı elmi məruzələrlə çıxış edib. 1955-2004-cü illərdə Ə.Bayramovun 46-ya qədər monoqrafiya, dərslik, dərs vəsaiti, elmi-kütləvi kitablar və 250-dən artıq elmi məqalə və məruzə tezisləri nəşr edilib. Eyni zamanda o, psixologiya elminin, təlim-tərbiyənin aktual məsə-

lələrinə dair 270-dən artıq qəzet məqaləsinin müəllifidir. Psixologiya, pedaqogika, məntiq və s. elmlər üzrə o, 35-dən artıq dərslik, dərs vəsaiti və monoqrafiyanın elmi redaktoru olub.

Psixologiya elmləri doktoru, professor Əbdül Əlizadə haqlı olaraq yazır: "Elmin zirvəsinə yol fədakarlıqdan və istedaddan keçir. Ancaq ağır zəhmətə qatlaşanlar, bütün həyatının mənasını elmə həsr etməkdə görən istedadlı şəxslər bu zirvəyə yüksələ bilərlər. Bu gün həmin zirvədə duranlardan biri ömrünün müdriklik çağını yaşayan görkəmli psixoloq, Əməkdar elm xadimi, professor Əkbər Salman oğlu Bayramovdur. Respublikada psixologiya elminin inkişafında, yeni psixoloqlar nəslinin yetişməsində Əkbər müəllimin xidməti əvəzsizdir».

Ə.Bayramovun 1955-ci ildən başlayan çoxsahəli elmi yaradıcılıq fəaliyyətində bir neçə mühüm istiqamət diqqəti cəlb edir. Təfəkkür probleminin, xüsusən də təfəkkürün müstəqillik və tənqidliyinin inkişaf xüsusiyyətləri ilə bağlı araşdırmalar. Həmin tədqiqatlarla respublikada eksperimental psixologiyanın inkişafında yeni mərhələ başlanmışdı. O, kifayət qədər öyrənilməmiş mühüm bir problemin – ağlın keyfiyyətləri probleminin tədqiqinə başladı.Təfəkkür probleminin ayrı-ayrı cəhətləri başqa mütəxəssislər tərəfindən də tədqiq edilmişdir. Lakin həmin tədqiqatlarda təfəkkür prosesi kimi öyrənilirdi, onu şəxsiyyətlə bağlayan cəhətlərə isə diqqət yetirilmirdi. Ə.Bayramov bu baxımdan təfəkkür psixologiyasında mahiyyətcə yeni eksperimental istiqamət müəyyən etdi. O, təfəkkürün müstəqillik və tənqidliyinin inkişaf xüsusiyyətlərini öyrənmək üçün adekvat tədqiqat metodu işləyib-hazırlamışdır. Təsadüfi deyildir ki, o dövrdə xüsusən də Moskvanın, Leninqradın görkəmli psixoloqları istedadlı tədqiqatçının müasirlik hissini, ən başlıcası isə orijinal yaradıcılıq səylərini yüksək qiymətləndirirdilər. Eləcə də respublikanın ali məktəbləri üçün psixologiya elminin müxtəlif sahələri üzrə dərslik və dərs vəsaitlərinin yazılıb nəşr edilməsi. Onlardan: «Psixologiya» (1989), «Sosial psixologiya» (1986), «Məhkəmə psixologiyası» (1985), «Məhkəmə psixologiyası və psixo-

loji ekspertiza məsələləri» (1987), «Etnik psixologiya» (2001) və s. Bununla bərabər, müəllif həmin vacib dərsliklərdən «Psixologiya» (2002) və «Sosial psixologiya» (2003) dərsliklərini professor Ə.Ə.Əlizadə ilə birlikdə yeni proqramlar əsasında yenidən işləmiş və nəşr etdirmişdir.

Bir cəhət də qeyd edilməlidir ki, Ə.Bayramov xalqımızın ədəbi-bədii irsində etnik psixoloji xüsusiyyətlərin inikası probleminə gənc tədqiqatçıları cəlb etməklə (onun elmi rəhbərliyi ilə həmin problemlə bağlı 10-a qədər namizədlik dissertasiyası müdafiə edilmişdir) yəni bir psixoloji məktəb yaratmışdır. Şübhəsiz, bu da elmimizin inkişafı ilə yanaşı, xalqımızın özünüdərkinə, milli şüurunun formalaşmasına yaxından kömək etmiş olar.

Ə.Bayramovun fəaliyyətində söz və əməlin vəhdəti insanı heyran edir. Yəni, o, yalnız kimməsə məsləhət görmür ki, öz xalqının psixoloji keçmişinin araşdırılması ilə məşğul olsun. İlk növbədə, məhz özü bu sahədə əməli addım atır. Eyni prizmadan Ə.Bayramovun belə bir ideyası diqqəti xüsusi olaraq cəlb edir ki, «xalqa məxsus etnik xüsusiyyətlər xalqın folklor və bədii ədəbiyyat materiallarında maddiləşir». O, öz tədqiqatları ilə bu ideyanı əyani surətdə həyata keçirib.

Ə.Bayramov «Fədakar əməyə görə» yubiley medalı (1970), «Şərəf nişanı» ordeni (1976), «SSRİ maarif əlaçısı» (1977) və Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə elm və təhsil sahələrində xidmətlərinə görə «Şöhrət ordeni» (2000), eləcə də bir neçə dəfə Azərbaycan Təhsil Nazirliyinin fəxri fərmanları ilə təltif edilib. 1981-ci ildə ona Əməkdar elm xadimi fəxri adı verilib. Professor Ə.Bayramov zəngin elmi-pedaqoji fəaliyyətinin 35 ildən artıq bir dövrü bilavasitə Bakı Dövlət Universiteti ilə bağlı olub.

Tanınmış filoloq Zahid İmanov müəllimi Əkbər Bayramov haqqında xatirələrini "Həftə içi"nə danışdı. Bildirdi ki, 80-ci illərin əvvəllərində BDU-nun Mircəlal Paşayev, Əkbər Ağayev, Ələvsət Abdullayev kimi alimlərinin sırasında Əkbər Bayramovun da xüsusi çəkisi, yeri vardı: "İlk baxışdan zəhmli görünən bu

insanın tədris prosesində tələbəyə qarşı adiliyi, ürəyiyumşaqlığı vardı. O, böyük alim, ziyalılığı ilə yanaşı, sözün əsl mənasında, böyük bir şəxsiyyət, insan idi. Heç bir tələbəyə imtahandan "2" yazıb təqaüddən kəsilməsinə razı olmazdı. Psixoloji eksperiment yolu ilə hamıya qiymət yazardı. Diqqətə çatdırmaq istəyirəm ki, psixologiya kimi çətin bir elmin tələbələrə aşılanmasında onun böyük xidmətləri olub. Auditoriyada bütün tələbələr onun məruzəsini səbirsizliklə gözləyər və heyranlıqla dinləyədi. Bu gün məmurların əksəriyyətinin müəllimi olub, eləcə də Kütləvi İnformasiya Vasitələrində çalışan insanların böyük bir qisminə dərs deyib. Təəssüflənirik ki, Xudu Məmmədov, Əkbər Bayramov kimi bu cür alimləri tarix çox nadir hallarda yetişdirir.Təəssüflənirəm ki, mətbuatımız, eləcə də televiziya kanallarımız Əkbər müəllim kimi böyük bir alimin vəfatını, keçdiyi həyat yolunu layiqincə işqlandırmadı, sanki sükut ilə yan keçildi və ona soyuq münasibət bəslənlildi. Axı müdriklər demişkən, bir alimin mürəkkəbi şəhid qanından üstündür".

Qələndər Xaçınçaylı,
şair-publisist, jurnalist

Görkəmli Azərbaycan alimi, psixologiya elmləri doktoru, əməkdar elm xadimi, BDU-nun fəxri professoru Əkbər Bayramov vəfat edib

ALLAH RƏHMƏT ELƏSİN!..

Azərbaycan elminə, maarifinə, elimizə, ailəmizə ağır itgi üz verib.

Görkəmli Azərbaycan alimi, tanınmış psixologiya elmləri doktoru, Azərbaycan Respublikası əməkdar elm xadimi, BDU-nun fəxri professoru Bayramov Əkbər Salman oğlu bu gün - 08.07.2017-ci ildə, saat 19-radələrində vəfat edib.

Mərhumla vida mərasimi 09.07.2017-ci ildə, saat 11-dən "Təzə Pir" məscidində olacaqdır.

Bayramov Əkbər Salman oğlu - 30 dekabr 1930-cu ildə Ağdamrayonunun Əlimədətli kəndində anadan olmuşdur. O, Əlimədətli kənd 7-illik məktəbini (1945), Ağdam Pedaqoji Texnikumunu (1945-1949) və Azərbaycan Dövlət Universitetininfilologiya fakültəsinin məntiq-psixologiya şöbəsini (1949-1954) əla qiymətlərlə bitirmiş, Universitetin Böyük Elmi Şurasının qərarı ilə psixologiya ixtisası üzrə aspiranturaya tövsiyə edilmiş və Azərbaycan Pedaqoji İnstitutunda psixologiya ixtisası üzrə aspiranturada təhsil almışdır (1954-1957). Ə.S.Bayramov APİ-də aspirantura şöbəsinin müdiri (1957-1958), elmi işlər üzrə prorektorun köməkçisi işləmişdir (1958-1960).

1959-cu ildə «Təfəkkürün müstəqillik və tənqidiliyinə görə III - IV sinif şagirdlərinin fərdi xüsusiyyətləri» mövzusunda namizədlik və 1969-cu ildə «Kiçik məktəb yaşlı şagirdlərdə təfəkkürün müstəqillik və tənqidiliyinin inkişaf dinamikası» mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1960-1970-ci illərdə APİ-nin psixologiya kafedrasında baş müəllim, dosent, professor vəzifələrində işləmişdir.

1965-1969-cu illərdə əvəzçilik üzrə Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutunda baş elmi işçi işləmiş və həmin illərdə İstitutun psixologiya laboratoriyasının digər əməkdaşları ilə birlikdə təlimdə şagirdlərin fəallaşdırılması və onlarda idrak proseslərinin inkişaf etdirilməsinin psixoloji problemləri ilə bağlı tədqiqat işləri aparmışdır. Ə.S.Bayramov eyni zamanda Yerevan Pedaqoji İnstitutunun Azərbaycan bölməsinə kömək məqsədilə əvəzçilik üzrə (1965-1983) orada işləmişdir.

1970-1971-ci illərdə APİ-də psixologiya kafedrasında professor, 1971-1992-ci illərdə Azərbaycan Dövlət Universitetinində pedaqogika və psixologiya kafedrasının müdiri, 1992-ci ildə kafedralar ayrıldıqdan sonra Bakı Dövlət Universitetində psixologiya kafedrasının müdiri, 1999-cu ildən həmin kafedrada professor vəzifəsində işləmişdir.

1960-2004-cü ilə kimi keçmiş sovetlər ölkəsi məkanında, xarici ölkələrdə, xüsusən də respublikada keçirilmiş bir çox elmi konfrans və simpoziumlarda, eləcə də beynəlxalq elmi konqreslərdə fəal iştirak etmiş, psixologiya elminin aktual problemlərinə dair maraqlı elmi məruzələrlə çıxış etmişdir.

1955-2004-cü illərdə Ə.S.Bayramovun 46-ya qədər monoqrafiya, dərslik, dərs vəsaiti, elmi-kütləvi kitablar və 250-dan artıq elmi məqalə və məruzə tezisləri nəşr edilmişdir. Eyni zamanda o, psixologiya elminin, təlim-tərbiyənin aktual məsələlrinə dair 270-dən artıq elmi məqalənin müəllifidir. Psixologiya, pedaqogika, məntiq və s. elmlər üzrə o, 35-dən artıq dərslik, dərs vəsaiti və monoqrafiyanın elmi redaktoru olmuşdur.

Ə.S.Bayramovun «Psixologiya» (1989-2002), «Sosial psixologiya» (1986-2003), «Məhkəmə psixologiyası» (1985), «Məhkəmə psixologiyası və psixoloji ekspertiza məsələləri» (1987), «Etnik psixologiya» (2001) kimi fundmental səciyyəli dərsliklərin müəllifidir. Həmin dərsliklər psixologiya elminin müasir inkişaf səviyyəsini tam dolğunluğu ilə əks etdirir və bununla bərabər həmin dərsliklər Milli zəmində zəngin ədəbi-bədii irsimizdən yetərincə bəhrələnmək əsasında yazılmışdır.

Həmçinin görkəmli psixoloq-alimin xalqımızın ədəbi-bədii irsində, «Kitabi-Dədə Qorqud» dastanlarında, xüsusən də klassik sənətkarların (Nizami Gəncəvi, İ.Nəsimi, M.Füzuli, A.Bakıxanov, M.F.Axundov, C.Məmmədquluzadə, M.Ə.Sabir) ədəbi irsində psixoloji ideyaların inkişafı dünya psixoloji fikrinin müqayisəli təhlili yolu ilə ilk dəfə tədqiq edilmiş, aydınlaşdırılmışdır. Bu araşdırmalar müəllifin «Psixoloji düşüncələr» (1994), «Etnik psixologiya məsələləri» (1996), «Kitabi-Dədə Qorqud» dastanlarında etnik psixoloji xüsusiyyətlərin inikası» (2000) və s. monoqrafiyalarında, «Etnik psixologiya» (2001) dərsliyində və onlarla elmi məqalələrində öz əksini tapmışdır. Bir cəhət də, xüsusi qeyd edilməlidir ki, Ə.S.Bayramov xalqımızın ədəbi-bədii irsində etnik psixoloji xüsusiyyətlərin inikası probleminə gənc tədqiqatçıları cəlb etməklə (onun elmi rəhbərliyi ilə həmin problemlə bağlı 10-a qədər namizədlik dissertasiyası müdafiə edilmişdir) yəni bir psixoloji məktəb yaratmışdır.

Bununla bərabər, Ə.S.Bayramov 10 cildlik Azərbaycan Sovet Ensiklopediyası, Kitabi Dədə-Qorqud Ensiklopediyası üçün psixologiya elminin müxtəlif problemlərinə aid 58-dən artıq məqalə yazmışdır. Eyni zamanda o, 10 cildlik Azərbaycan Sovet Ensiklopediyasının və 3 cildlik Uşaq Ensiklopediyasının redaksiya nəşriyyat şurasının üzvü olmuşdur. O, nəinki respublikada, eləcə də digər (Tacikistan, Qırğızıstan, İran İslam Respublikası və b.) ölkələr üçün psixologiya üzrə yüksək ixtisaslı elmi kadrlar hazırlanmasında yaxından iştirak etmişdir. Onun elmi rəhbərliyi ilə psixologiya elmi üzrə 35-dən artıq elmlər na-

mizədi və elmlər doktoru dissertasiyası yazılmış, 15-dən artıq magistr dissertasiyasının elmi rəhbəri olmuşdur. Bununla bərabər o, keçmiş sovetlər məkanında 10-dan artıq namizədlik və doktorluq dissertasiyalarının rəsmi opponenti olmuşdur. Həmçinin, o, SSRİ Psixoloqlar cəmiyyəti Azərbaycan şöbəsinin, Azərbaycan Təhsil Nazirliyi Elmi-Metodik Şurasının pedaqogika və psixologiya bölməsinin sədri, Respublika ictimai rəyi öyrənən sosioloji mərkəzin üzvü kimi fəaliyyət göstərmişdir. Professor Ə.S.Bayramov 1993-cü ildən 2000-ci ilə kimi M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universitetinin nəzdindəki (n.054.03.04) psixologiya elmləri üzrə ixtisaslaşdırılmış müdafiə şurasının sədri, 2000-ci ildən indiyə kimi Respublika Prezidenti yanında Ali Attestasiya komissiyasının ekspert şurasının üzvü olmuşdur.

Əkbər Salman oğlu Bayramovun elmi və ictimai fəaliyyəti yüksək qiymətləndirilmiş, o, «Fədakar əməyə görə» yubiley medalı (1970), «Şərəf nişanı» ordeni (1976), «SSRİ maarif əlaçısı» (1977) və Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə elm və təhsil sahələrində xidmətlərinə görə «Şöhrət ordeni» (2000), eləcə də bir neçə dəfə Azərbaycan Təhsil Nazirliyinin fəxri fərmanları ilə təltif edilmişdir. 1981-ci ildə ona Əməkdar elm xadimi fəxri adı verilmişdir. Əkbər Bayramov Respublika Prezidentinin fəxri təqaüdünə layiq görülmüş, Bakı Dövlət Universitetinin fəxri professoru seçilmişdir.

Professor Əkbər Salman oğlu Bayramov zəngin elmi-pedaqoji fəaliyyətinin 45-ildən artıq bir dövrü bilavasitə Bakı Dövlət Universiteti ilə bağlı olmuşdur.

Görkəmli, fədakar, erudik biliyə malik alim 08.07.2017-ci ildə, 87 yaşında gözlərini əbədi yummuş, haqq dünyasına qovuşmuşdur.

Biz də görkəmli Azərbaycan alimi,
tanınmış psixologiya elmləri doktoru,
Azərbaycan Respublikası əməkdar elm xadimi,
BDU-nun fəxri professoru
Bayramov Əkbər Salman oğlunun

vəfatından kədərləndiyimizi bildirir,
mərhumun bütün əzizlərinə,
yaxınlarına və doğmalarına
dərin hüznlə başsağlığı veririk.

Allah rəhmət eləsin!.. Qəbri nurla dolsun!..
Məkanı cənnət, Ruhu şad olsun!..

Müşfiq Borçalı,
"Ziya" qəzetinin
və "ZiM.Az" saytının Baş redaktoru

Azərbaycan elminə ağır itki

BDU-nun fəxri professoru, psixologiya elmləri doktoru, əməkdar elm xadimi, Əkbər Salman oğlu Bayramov vəfat edib.

Milli.Az report.az-a istanadən bildirir ki, o, dünəm axşam saatlarında dünyasını dəyişib.

Mərhumla vida mərasimi Təzə Pir məscidində keçirilib və o, bu gün dəfn olunub.

Qeyd edək ki, Ə.Bayramov 30 dekabr 1930-cu ildə Ağdam rayonunun Əlimədətli kəndində anadan olub. 1970-1971-ci illərdə APİ-də psixologiya kafedrasında professor, 1971-1992-ci illərdə Azərbaycan Dövlət Universitetinində pedaqogika və psixologiya kafedrasının müdiri, 1992-ci ildə kafedralar ayrıldıqdan sonra Bakı Dövlət Universitetində psixologiya kafedrasının müdiri, 1999-cu ildən həmin kafedrada professor vəzifəsində işləyib. Eyni zamanda o, psixologiya elminin, təlim-tərbiyənin aktual məsələlərinə dair 270-dən artıq qəzet məqaləsinin müəllifidir.

Psixologiya, pedaqogika, məntiq və s. elmlər üzrə o, 35-dən artıq dərslik, dərs vəsaiti və monoqrafiyanın elmi redaktoru olub. Respublikada psixologiya elminin inkişafında, yeni psixoloqlar nəslinin yetişməsində Əkbər Bayramovun xidməti əvəzsizdir.

Və sözardı...

Müdriklər deyirlər ki, çox vaxt insanın dünyaya gəldiyi yurdun təbiəti ilə uyğunluq yaradır. Bu baxımdan, Onu nur və həyat rəmzi də adlandırmaq olar. Çünki O, işıqlı, günəşli və gül-çiçləkli bir yurdda dünyaya göz açmışdı. O, elə insan idi ki, bir dəfə ünsiyyətdə olanlar onu ömrü boyu unuda bilmirdilər. Bu böyük şəxsiyyət elə ilk andan onunla ünsiyyətdə olanların yaddaşında yüksək vətəndaşlıq, humanizm və ürək saflığının mücəsməsi kimi əbədi qalırdı. Onun insanlara məhəbbəti qeyri-adi dərəcədə hüdudsuz idi. O, sevib seçdiyi, ömrünü həsr etdiyi sənəti ilə bu istedadını tam gerçəkləşdirə bilmişdi. Hamını duyurdu.

Əkbər Bayramov alim kimi qazandığı böyük uğurlar Azərbaycan psixologiya elminin tarixində ayrıca bir mərhələ təşkil edir. Onun elmi fəaliyyəti çox zəngin və əhatəlidir.

Əkbər müəllim istedadı və həyat enerjisi ilə gələcəkdə çox işlər görməyi düşünürdü. Ömrünün sonuncu anına kimi, O, həyatla, gələcək planlarla yaşayırdı. Yüksək səviyyəli peşəkar alim kimi neçə-neçə tələbə, alim yetişdirmək istəyirdi.

Kitabda bir alimin taleyinin yaşantısı, həyatda üzləşdiyi çətinliklər, məqsədə nail olmağın enişli-yoxuşlu yolları, onun haqqında tanıyanların açıq söhbəti, bizi bir daha söz deməyə vadar edir.

Bir alimi tanımaq, onun mənəvi dünyasına yaxın olmaq, sevindirici haldır. Bu alimin nəvəsi olmaq isə ən azı xoşbəxtlikdir.

Babam mənim yadımda nəcib insan, müdrik ağsaqqal kimi qalıb. Haqq, ədalət aşiqi idi.

Babam ləyaqətli, humanist, xeyirxah, mehriban insan idi. Peşəsində qazandığı uğurlar da onun bu xüsusiyyətləri ilə bağlıdır. Xeyirxahlıq, bir növ, onun həyat tərzinə çevrilmişdi. O, həmişə xüsusi qayğıya ehtiyacı olan tənha insanlara, kimsəsiz və yetim uşaqlara böyük

diqqətlə yanaşırdı. Onun xatirəsini tanışları ilə bərabər sadə xalqın yaddaşında ehtiramla yaşadan, həm də, bu mərhəmət və şəfqətdir.

Təsadüfi deyil ki, bu kitabda psixoloq alimin özünün də bir şəxsiyyət kimi psixoloji portreti cızılıb. Biz bu yazılarda babamın təkcə dostları, tanışları tərəfindən yazılmış portretini deyil, həm də onun yaradıcılıq aləminin sonsuz rənglərini, bu rənglərin ən incə çalarlarını görürük. Əməyi keçən hər kəsə bir minnətdarlıq borcumuz var.

FƏXRİ FƏRMANLAR

BAKI DÖVLƏT UNİVERSİTETİ

FƏXRİ FƏRMAN

Gənc nəslin yetişdirilməsində göstərdiyi xidmətlərə, elmin, təhsilin inkişafındakı roluna görə və anadan olmasının 85 illik yubileyi münasibətilə

Əməkdar elm xadimi, professor

Əkbər Salman oğlu Bayramov

təltif edilir

Rektor akademik Abel Məhərrəmov

Bakı-2015


"AZƏRBAYCANIN
DÖVLƏT MÜSTƏQİLLİYİ
ƏBƏDİDİR,
SARSILMAZDIR,
DÖNMƏZDİR".
HEYDƏR ƏLİYEV

AZƏRBAYCAN RESPUBLİKASI

TƏHSİL NAZİRLİYİ KOLLEGİYASININ

"05" may 1999 ci il tarixli T-137/1 №-li qərarı ilə

M.Ə.Rəsulzadə adına BDU-nun psixologiya

kafedrasının professoru, psixologiya elmləri doktoru, əməkdar elm xadimi

Əkbər Salman oğlu Bayramov

"Azərbaycan məktəbi" jurnalının redaksiya

heyətində uzun müddət səmərəli fəaliyyətinə

görə və jurnalın 75 illik yubileyi münasibətilə

FƏXRİ FƏRMANLA

TƏLTİF EDİLİR.

NAZİR M.MƏRDANOV

"05" may 1999 Qeydiyyat № 468

FƏXRİ FƏRMAN



ФГ—71347. Заказ 339. Тираж 500.
Типография АГУ, Коммунистическая, 6.

Бутүн өлкәләрин пролетарлары, бирләшин!
Пролетарии всех стран, соединяйтесь!

ВӘСИГӘ
Удостоверение

Бакы 1954 Баку

Бакы шәһәри али мәктәб тәләбәләринин әлми ишләринә бахыш кечирмиш Тәшкилат Комитәсинин гәрары илә Байрамов А.С. йолдаша, Материалистик психологиянын инкишафында И. М. Сеченовун ролу мөвзусунда тәдгигат ишини мүвәффәгиййәтлә еринә етирдийинә көрә үчүнчү мукафат верилмишдир.

Тәшкилат Комитәсинин сәдри: (Ю. Һ. Мәммәдәлиев)

26 июн 1954 ил.

Решением Оргкомитета по проведению смотра научных работ студентов высших учебных заведений города Баку тов. Байрамову А.С. присуждена третья премия за успешное выполнение научно-исследовательской работы „Роль великого русского ученого И. М. Сеченова в развитии материалистической психологии".

Председатель Оргкомитета (Мамедалиев Ю. Г.)

26 июня 1954 г.

Награжден орденом	№ ордена	Указом Президиума Верховного Совета СССР
„Знак Почета"	1198116	от „15" марта 1976 г.
		от „ " 19 г.
		от „ " 19 г.
		от „ " 19 г.
		от „ " 19 г.
		от „ " 19 г.
		от „ " 19 г.
		от „ " 19 г.
		от „ " 19 г.
		от „ " 19 г.
		от „ " 19 г.

М. П.

Секретарь Президиума Верховного Совета СССР Мгеладзе

„21" апреля 1976 г.

З № 943732



AZƏRBAYCAN RESPUBLİKASI

Bayramov

Əkbər

Salman oğlu

"Şöhrət"

ordeni

ilə təltif edilmişdir

Azərbaycan Respublikasının Prezidenti

Heydər Əliyev

Azərbaycan Respublikası
Prezidentinin fərmanı

"11" fevral 2000-ci il

Orden № 000089

Бүтүн өлкәләрин пролетарлары, бирләшин!

ВӘСИГӘ № 146

Акбәр Салман оғлу Бајрамов јолдаша Азәрбајчан ССР Али Совети Рәјасәт Һеј'әтинин 1981 ил 3 ијун тарихли Фәрманы илә Азәрб. ССР әмәкдар елму хадими ФӘХРИ АДЫ верилмишдир.

Азәрбајчан ССР
Али Совети Рәјасәт Һеј'әтинин сәдри
Председатель Президиума Верховного
Совета Азербайджанской ССР

Азәрбајчан ССР
Али Совети Рәјасәт Һеј'әтинин катиби
Секретарь Президиума Верховного
Совета Азербайджанской ССР

3 июня 1981 ил/г.

Пролетарии всех стран, соединяйте

УДОСТОВЕРЕНИЕ № 146

Тов. Байрамов Акпер Салман о

Указом Президиума Верховно
Совета Азербайджанской СС

от 3 июня 1981 го

присвоено ПОЧЕТНОЕ ЗВАН

заслуженный деятел
науки Азерб. ССР

Р. Кязымз

УДОСТОВЕРЕНИЕ

К ЗНАКУ

„ПОБЕДИТЕЛЬ СОЦИАЛИСТИЧЕСКОГО СОРЕВНОВАНИЯ 1978 ГОДА“

МПФ Гознака. 1978

„ПОБЕДИТЕЛЬ СОЦИАЛИСТИЧЕСКОГО СОРЕВНОВАНИЯ 1978 ГОДА“

Знак учрежден Центральным Комитетом КПСС, Советом Министров СССР, ВЦСПС и ЦК ВЛКСМ

УДОСТОВЕРЕНИЕ

Байрамов
Акпер
Салман оглы

от имени *Министерства и ЦК профсоюза*

награжден знаком

„ПОБЕДИТЕЛЬ СОЦИАЛИСТИЧЕСКОГО СОРЕВНОВАНИЯ 1978 ГОДА“

„ февраль 1979 г.

(подпись) М. П. (подпись)

СОЮЗ
СОВЕТСКИХ
СОЦИАЛИСТИЧЕСКИХ
РЕСПУБЛИК

УДОСТОВЕРЕНИЕ

**К ЮБИЛЕЙНОЙ МЕДАЛИ
„ЗА ДОБЛЕСТНЫЙ ТРУД.
В ОЗНАМЕНОВАНИЕ 100-летия
СО ДНЯ РОЖДЕНИЯ
ВЛАДИМИРА ИЛЬИЧА ЛЕНИНА“**

„ЗА ДОБЛЕСТНЫЙ ТРУД. В ОЗНАМЕНОВАНИЕ
100-ЛЕТИЯ СО ДНЯ РОЖДЕНИЯ
ВЛАДИМИРА ИЛЬИЧА ЛЕНИНА“

УДОСТОВЕРЕНИЕ

Байрамов Акпер
Самыган оглы

от имени ПРЕЗИДИУМА ВЕРХОВНОГО
СОВЕТА СССР
НАГРАЖДЕН ЮБИЛЕЙНОЙ МЕДАЛЬЮ
„ЗА ДОБЛЕСТНЫЙ ТРУД.
В ОЗНАМЕНОВАНИЕ 100-ЛЕТИЯ
СО ДНЯ РОЖДЕНИЯ
ВЛАДИМИРА ИЛЬИЧА ЛЕНИНА“

Секретарь исполкома
р-он им. 26 Бакин-
ских комиссаров
Совета депутатов трудящихся Рузиев

М. П.

„31“ марта 19 70 года.



УДОСТОВЕРЕНИЕ

К ЗНАКУ

„ПОБЕДИТЕЛЬ СОЦИАЛИСТИЧЕСКОГО СОРЕВНОВАНИЯ 1973 ГОДА“

„ПОБЕДИТЕЛЬ СОЦИАЛИСТИЧЕСКОГО СОРЕВНОВАНИЯ 1973 ГОДА“

1973 ПОБЕДИТЕЛЬ СОЦСОРЕВНОВАНИЯ

Знак учрежден ЦК КПСС, Советом Министров СССР, ВЦСПС и ЦК ВЛКСМ

УДОСТОВЕРЕНИЕ

Байрамов

Акпер

Салман оглы

награжден знаком

„ПОБЕДИТЕЛЬ СОЦИАЛИСТИЧЕСКОГО СОРЕВНОВАНИЯ 1973 ГОДА“

Постановление Президиума коллегии Минвуза АзССР и РК профсоюза работников просв., ВШ и НУ

„30“ января 1974 г.

(подпись) М. П. (подпись)





ОБЩЕСТВО ПСИХОЛОГОВ СССР
ПРИ ПРЕЗИДИУМЕ АКАДЕМИИ НАУК СССР
(основано в 1956 г.)

АЗЭРБАЈЧАН ШӨ'БӘСИ
АЗЕРБАЙДЖАН. ОТДЕЛЕНИЕ

(личная подпись)

№ 1002

Байрамов
(фамилия)
Акбер Салман оглы
(имя, отчество)

Избран действительным членом
Общества психологов СССР

«___» _____ 19__ г.

Президент
Общества психологов СССР

Уплата членских взносов					
год	сумма	подпись	год	сумма	подпись
1981	3 р.	ОКЗ	1987	3 р	АЗ
1982	3 р.	ОКЗ	1988	3 р	АЗ
1983	3 р.	ОКЗ			
1984	3 р	ОКЗ			
1985	3 р.	ОКЗ			
1986	3 р	ОКЗ			

Уплата членских взносов					
год	сумма	подпись	год	сумма	подпись

Зак. 4016



УДОСТОВЕРЕНИЕ № 7103

Тов. Байрамов Акбер Салман оглы

награжден значком

„ОТЛИЧНИК ПРОСВЕЩЕНИЯ СССР"

Министр просвещения СССР — Председатель ЦК профсоюза работников просвещения, высшей школы и научных учреждений

гор. Москва. Решение № 50-144 от 24.II 1977 г.

Нагрудным значком „Отличник просвещения СССР" награждаются лучшие учителя, воспитатели, научные работники, организаторы народного образования, а также другие работники учреждений и предприятий Министерства просвещения СССР и профсоюза за большие успехи, достигнутые в области народного образования, и активное участие в общественно-политической жизни.

МПФГ. 1976. Зак. 76-3969.

FOTOALBOM

Vilnusda

Tələbəlik illəri

Göyçə gölündə, 1972 il

Həyat yoldaşı Vəsilə xanım ilə

Qardaşları Fərman Bayramov və Bayram Bayramovla

qızı Pərvin ilə

oğlu Azər ilə

Pedaqoji Universitetdə əməkdaşı ilə



Qulu Xəlilovla birlikdə

Ata-baba yaylaq yurdu

Moskvada SSRİ psixoloqların simpoziumunda



İsıqkul gölü, Qırğızıstan, 1968-ci il

İrəvanda tələbələri ilə birlikdə

Konfransın iştirakçıları ilə gəzintidə

Universitet müəllimləri ilə

Psixoloqların Beynəlxalq konqressindən. Moskva 1966-cı il

Moskva psixoloqları ilə birlikdə

Pedaqoji Universitetin professor və müəllimləri ilə

Ə.Bayramov Azərbaycanın görkəmli yazıçıları ilə

İstisuda Moskvadan gələn rejissor İ.Strelkov ilə birlikdə

Batumda

BDU-nun müəllimləri ilə

İrəvanda konfrans iştirakçıları ilə birlikdə

Azərbaycan Ali Təhsil ocaqlarının rektor və prorektorları

BDU-nun kafedra əməkdaşları ilə birlikdə





Türkiyə konfransından

Vilnus şəhərində konfrans iştirakçıları ilə birlikdə

İstirahət edərkən

BDU-da daha bir görüş





SSR-in məşhur psixoloqu B.V.Lomov və R.İbrahimbəyova ilə birlikdə. Bakı, 1967-ci il

Beynəlxalq konfrans. Turkiyə, Koniya

Bakı Dövlət Universitetinin
Pedaqogika və Psixologiya kafedrasının kollektivi ilə



Kafedra iclasından

BDU-da toplantı

BDU-nun fəxri doktoru

Ə.Bayramovun 60 illik yubileyindən



Elmi davamçısı nəvəsi Nigar

Ailə üzvləri ilə birlikdə

Qudası professor Kərim Paşayev, nəvələri Cavid və Əkbərlə

Qızı Pərvin və həyat yoldaşı Vəsilə xanımla



Nəvəsi Xəlfə və həyat yoldaşı Vəsilə xanımla



Nəvəsi Baharla

Nəvəsinin yoldaşı Rəşad Nəsirov və nəticəsi Ruslan ilə

Rəşad Nəsirov, Nigar Nəsirova, nəticəsi Ruslan
və həyat yoldaşı Vəsilə xanım ilə

Nəvəsi Nigar, qızı Pərvin, baldızı qızı Mehriban
və həyat yoldaşı Vəsilə xanım

Nəvəsi Nigarın müdafiəsindən sonra yığıncaq

MÜNDƏRİCAT

I BÖLMƏ
ƏKBƏR BAYRAMOV: ƏSLİ VƏ NƏSLİ 3
Kolanı eli 3
Kolanı mahalı 5
Şıxavənd obası 7
Əlimədətli tayfası 11
Xatirələrimdə və yuxularımda səni axtarıram 23
Xalqına, elminə, ailəsinə məhəbbət bəxş edən insan 25
Mənim Əkbər babam 28

II BÖLMƏ
ƏKBƏR BAYRAMOVUN HƏYAT
VƏ YARADICILIQ BİOQRAFİYASI 37
Böyük alim, dəyərli şəxsiyyət 37
Ömrü örnək olan alim 41
Müəllim və alim ömrünün bəhrəsi 48
Yeri görünən insan 52
Əkbər Bayramov: Azərbaycan psixologiyasının
korifey – fenomenal şəxsiyyəti... (xatirə-oçerk) 54
Böyük alim, sədaqətli dost haqqında 84
O mənim qəlbimdə həmişə yaşayacaq 86
Məndə özümə qarşı sonsuz inam, güvənc hissi aşılayırdı 89
Əkbər Bayramov: Etnik psixologiyanın babası 94
Mənim tanıdığım Əkbər Bayramov 108
İstedad və zəhmətin vəhdəti 111
Bayramov Əkbər Salman oğlu – psixologiya elminin fədaisi 115

III BÖLMƏ
ÖLÜM SEVİNMƏSİN QOY... 124
Aqil Abbas: Əkbər Bayramov da çıxdı getdi Ağdama,
qaldıq biz 124

Professor Əkbər Bayramova vida sözü 130
Mənalı bir ömür yaşamağın nümunəsi 136
Qayğıkeş alim 141

IV BÖLMƏ
ƏKBƏR BAYRAMOV HAQQINDA MƏTBUATDA YAZILANLAR ... 144
Hüquq psixologiyası 144
Dünyaşöhrətli alimin vida mərasimi 146
Əkbər Bayramovsuz 40 gün… 152
Görkəmli Azərbaycan alimi, psixologiya elmləri doktoru,
əməkdar elm xadimi, BDU-nun fəxri professoru
Əkbər Bayramov vəfat edib 156
Azərbaycan elminə ağır itki 161
Və sözardı 162

FƏXRİ FƏRMANLAR 164
FOTOALBOM 177

Kitab «Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzində
səhifələnmiş və çap olunmuşdur.

Çapa imzalanıb: 29.06.2018.
Format: 60x84 1/16. Qarnitur: Times.
Həcmi: 13, 5 ç.v. Tiraj: 200. Sifariş № 189.

MÜTƏRCİM

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125/139b
Tel./faks 596 21 44; (055) 715 63 99
e-mail: mutarjim@mail.ru
www.mutercim.az